MHŞT AZƏRBAYCAN

# İLLİK HESABAT

2013

# Azərbaycan Respublikası

Ərazi: 86,6 min km²

Əhalinin sayı: 9 477. 1 min nəfər

Paytaxt: Bakı

Dövlət dili: Azərbaycan dili

Pul vahidi: Manat

**Azərbaycan Respublikası**
**Dövlət gerbi**



**Azərbaycan Respublikası**
**Dövlət bayrağı**





# Mündəricat


Abreviatura və qısaltmalar . . . . . 2

**MHŞT AZƏRBAYCAN İLLİK FƏALİYYƏT HESABATI 2013 . . . . . 3**

Çoxtərəfli qrup (ÇQ) . . . . . 3
2013-cü il üzrə İş planının icrasının qiymətləndirilməsi . . . . . 4
MHŞT tətbiqinin icrası barədə icmal . . . . . 5
Qiymətləndiricinin və Auditorun tövsiyələri əsasında MHŞT üzrə həyata keçirilmiş təkmilləşmələr . . . . . 10
Tədbirlər . . . . . 11
Əlavə 1. Azərbaycan Respublikasında MHŞT tətbiqi üzrə 2013-cü il üzrə İş planı . . . . . 15
Əlavə 2. ÇQ-nin 2013-cü ildə keçirilmiş iclasları və qəbul edilmiş qərarlar . . . . . 19
Əlavə 3. 2013-cü ildə MHŞT-nin Azərbaycanda tətbiqinin MHŞT Qaydalarının və MHŞT Standartının tələblərinə uyğun qiymətləndirməsi . . . . . 22
Əlavə 4. MHŞT üzrə Katibliyin 2013-cü il üzrə xərcləri . . . . . 26
Əlavə 5. Azərbaycan MHŞT-də iştirak edən qeyri-hökumət təşkilatları . . . . . 26
Əlavə 6. Azərbaycan MHŞT-də iştirak edən şirkətlər . . . . . 29

**Hökumətin Hesabatı . . . . . 30**

**31 DEKABR 2013-CÜ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ MHŞT HESABATI . . . . . 30**

1. İCMAL . . . . . 35
1.1. Ümumi məlumat . . . . . 35
1.2. İşin məzmunu . . . . . 35
1.3. Məlumatların məxfiliyi, tamlığı və dəqiqliyi . . . . . 36
1.4. Üzləşmə prosesinin qısa nəticələri . . . . . 37

2. YANAŞMA VƏ METODOLOGİYA . . . . . 38
2.1. İlkin iş mərhələsi . . . . . 38
2.2. Əhəmiyyətlilik dərəcəsinin müəyyən edilməsi . . . . . 38
2.3. Üzləşmə prosesi . . . . . 39
2.4. MHŞT məlumatlarının etibarlılığı . . . . . 41
2.5. Mühasibatlıq siyasəti . . . . . 41

3. HASİLAT SƏNAYESİ ÜZRƏ KONTEKSTUAL MƏLUMATLAR . . . . . 42
3.1. Ümumi məlumat . . . . . 42
3.2. Mədən sənayesinin icmalı . . . . . 47
3.3. Azərbaycan iqtisadiyyatına hasilat sənayesinin töhfəsi . . . . . 55
3.4. İstehsalın həcmi . . . . . 60
3.5. Hasilat sənayesində dövlət iştirakı . . . . . 61
3.6. Hasilat sənayesindən Neft Fonduna daxil olan gəlirlər . . . . . 67
3.7. Lisenziyaların reyestri . . . . . 68
3.8. Lisenziyaların təyinatı . . . . . 69
3.9. Benefisiar qanunvericiliyi . . . . . 69
3.10. Müqavilələr . . . . . 70
3.11. Digər məlumatlar . . . . . 70
4. ÜZLƏŞMƏ PROSESİNİN HƏCMİ . . . . . 72
4.1. Hasilat sənayesi şirkətləri . . . . . 72
4.2. Dövlət qurumları . . . . . 72
4.3. İnfrastruktur müddəalar və barter tədbirləri . . . . . 73
4.4. Sosial xərclər . . . . . 73
4.5. Sub-milli ödənişlər və köçürmələr . . . . . 73

5. ÜZLƏŞMƏ PROSESİ ÜZRƏ NƏTİCƏLƏR . . . . . 74
5.1. Gəlir növləri üzrə üzləşmə prosesi (xarici şirkətlər) . . . . . 74
5.2. Hasilat sənayesi şirkətləri üzrə üzləşmə prosesi (xarici şirkətlər) . . . . . 75
5.3. Hasilat sənayesi şirkətləri üzrə üzləşmə prosesi (yerli şirkətlər üzrə) . . . . . 77
5.4. Gəlir növləri üzrə üzləşmə prosesi (yerli şirkətlər üzrə) . . . . . 78
5.5. Hasilatın pay bölgüsü sazişləri üzrə dövlətə köçürülən gəlirlər 79
5.6. Düzəlişlər . . . . . 80
5.7. Dövlət tərəfindən təsdiq edilmiş məbləğ . . . . . 88

6. XÜSUSİ YOXLAMA PROSEDURLARI . . . . . 89
Attestasiya prosesi . . . . . 89

7. HÖKUMƏT GƏLİRLƏRİNİN TƏHLİLİ . . . . . 91

8. TÖVSİYƏLƏR . . . . . 96
8.1. 2013–cü il üzrə üzləşmə prosesindən əldə olunmuş təcrübə . 96
8.2. 2012–ci MHŞT hesabatı üzrə müvafiq tövsiyələrin icrası . . . . 97

ƏLAVƏLƏR . . . . . 98
Əlavə 1. Azərbaycan Respublikası MHŞT üzrə Komissiyanın bəyannaməsi . . . . . 98
Əlavə 2. Hasilat sənayesi şirkətləri . . . . . 99
Əlavə 3. Hesabat şablonları . . . . . 101
Əlavə 4. Hasilat sənayesi şirkətləri üzrə üzləşmə cədvəlləri . . . 103
Əlavə 5. Qarşılıqlı Anlaşma Memorandumuna qoşulmuş qeyri–hökumət təşkilatları və fiziki şəxslər . . . . . 128
Əlavə 6. Hesabatın tərtibi zamanı istifadə olunmuş mənbələr . . 132

**Azərbaycan Respublikasının 2013-cü il üzrə MHŞT Hesabatına Mədən Sənayesində Şəffaflığın Artırılması (MSŞA) QHT Koalisiyasının RƏYİ . . . . . 134**

Giriş . . . . . 135
I. 2013-cü il üzrə MHŞT Hesabatının səciyyəvi xüsusiyyətləri . . 136
II. Hesabatın "Kontekstual məlumatlar" bölməsinin təhlili . . . . 137
III. Hesabatın əsas (üzləşmə prosesi və onun nəticələri) bölməsinin təhlili . . . . . 143
IV. Nəticə və tövsiyyələr . . . . . 146

# Abreviatura və qısaltmalar

İXTİSARLARIN SİYAHISI

| | |
|---|---|
| **ABƏŞ** | Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti |
| **ABŞ dolları** | Amerika Birləşmiş Ştatları dolları |
| **AÇG** | Azəri–Çıraq–Günəşli |
| **ARDNF** | Azərbaycan Respublikası Dövlət Neft Fondu |
| **AS** | Aksjeselskap–Norveçdə aksiya və opsiyon tipli şirkətlər üçün termin |
| **AZN** | Azərbaycan manatı |
| **BM** | Birgə Müəssisə |
| **BMT BA** | Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası |
| **CNPC** | Çayna Neyşnl Petroleum Korporeyşn |
| **ÇQ** | Çoxtərəfli Qrup |
| **DŞ** | Dövlət Şirkəti |
| **ƏDV** | Əlavə Dəyər Vergisi |
| **FZE** | Fri Zon Enteprayz |
| **GDF** | Qaz de Frans |
| **Hökumət** | Azərbaycan Hökuməti |
| **HPBS** | Hasilatın Pay Bölgüsü Sazişləri |
| **İB** | İstehsalat Birliyi |
| **İSN** | İqtisadiyyat və Sənaye Nazirliyi |
| **Komissiya** | Azərbaycan Respublikasının MHŞT üzrə Komissiyası |
| **QAM** | Qarşılıqlı Anlaşma Memorandumu |
| **QHT** | Qeyri–Hökumət Təşkilatı |
| **LTD** | Limited Kompani |

İXTİSARLARIN SİYAHISI

| | |
|---|---|
| **$m^3$** | Kub metr |
| **MHŞT** | Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsü |
| **MHŞT Katibliyi** | Azərbaycanın MHŞT üzrə Katibliyi |
| **MSŞA** | Mədən Sənayesində Şəffaflığın Artırılması |
| **Min $m^3$** | Min kub metr |
| **Mln** | Milyon |
| **Mlrd** | Milyard |
| **MMC** | Məhdud Məsuliyyətli Cəmiyyət |
| **MMR** | Müstəqil Mühasiblərin Rəyi |
| **Nemb** | Neft hasilatının milyon bareli |
| **NİKO** | Naftiran İntertreyd Kompani |
| **$Nm^3$** | Normal kub metr |
| **ONGC** | Oyl ənd Neyçeral Qaz Orqanizeyşn |
| **$Sm^3$** | Standart kub metr |
| **SOCAR** | Azərbaycan Respublikası Dövlət Neft Şirkəti |
| **STQ** | Sıxılmış Təbii Qaz |
| **Şirkətlər** | Hasilat sənayesi şirkətləri |
| **ŞT** | Şərtlər Toplusu |
| **TAP** | Trans Adriatik Payplayn |
| **TƏMÖHS** | Tranzit Əraziyə Malik Ölkə Hökuməti Sazişi |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **VÖEN** | Vergi Ödəyicisinin Eyniləşdirmə Nömrəsi |

# MHŞT AZƏRBAYCAN İLLİK FƏALİYYƏT HESABATI 2013

## Çoxtərəfli qrup (ÇQ)

ÇQ MHŞT-nin ölkədə tətbiqində qərarverici orqan rolunu oynayır. Qrup 2010-cu il yanvar ayında yaradılmış və Azərbaycanda Təşəbbüsün inkişafı üzərində daha güclü və səmərəli çoxtərəfli nəzarəti və idarəetməni təmin etmək məqsədi ilə Memorandum tərəflərinin (Şirkətlər Qrupu, QHT Koalisiyası və MHŞT üzrə Komissiya) nümayəndələrindən ibarətdir. Belə ki, MHŞT tərəflərinin hər biri ÇQ-yə eyni hüquqa malik olan 3 əsas və 1 əvəzedici üzv təyin edir (ümumilikdə 9 əsas üzv + 3 əvəzedici üzv). MHŞT üzrə Komissiyanın sədri Azərbaycan hökuməti tərəfindən ÇQ-yə üzv olur və onun iclaslarına sədrlik edir. ÇQ-nin tərkibi hər il yenilənir.

Qrupun iclasları ildə ən azı dörd dəfə keçirilir:

**2013-cü ildə Çoxtərəfli qrupun üzvləri**

| | |
|---|---|
| **MHŞT üzrə Komissiya:** | |
| Şahmar Mövsümov | ARDNF-nin İcraçı direktoru, MHŞT üzrə Komissiyanın sədri, ÇQ-nin sədri |
| Feyzulla Muradov | Energetika Nazirliyinin nümayəndəsi |
| Zaur Fətizadə | Vergilər Nazirliyinin nümayəndəsi |
| Qazi Hacıkərimov | Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndəsi (əvəzedici) |
| **Şirkətlər qrupu:** | |
| Araz Yusubov | "BP" şirkətinin nümayəndəsi |
| Cəmilə Hadiyeva | "Statoyl" şirkətinin nümayəndəsi |
| Ayaz Hüseynov | Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin nümayəndəsi |
| Bəxtiyar Axundov | "Şevron" şirkətinin nümayəndəsi (əvəzedici) |
| **MSŞA Koalisiyası:** | |
| Sabit Bağırov | Bazar İqtisadiyyatına və Sahibkarlığın İnkişafına Yardım Fondunun prezidenti |
| Məhəmməd Talıblı | İqtisadi İnnovasiya Mərkəzinin sədri |
| Mübariz Tağıyev | Mədən Sənayesində İnsan Hüquqları İctimai Birliyinin sədri |
| İlham Hüseynli | Demokratik İnkişaf və İqtisadi Əməkdaşlıq İctimai Birliyinin sədri (əvəzedici üzv) |

# 2013-cü il üzrə İş planının icrasının qiymətləndirilməsi

2013-cü il üzrə İş planı MHŞT-nin Azərbaycanda tətbiqində qarşıya qoyulmuş məqsədləri, nəzərdə tutulan fəaliyyətləri və fəaliyyətlərin gözlənilən icra tarixlərini, məsul tərəfləri, cari statusu və əldə olunmuş nəticələri əks etdirir (Əlavə 1). İş planı 2012-ci ilin son ÇQ iclasında təsdiq edilmişdir. 2013-cü il ərzində beynəlxalq MHŞT prosesində kifayət qədər əsaslı dəyişikliklər baş verdiyindən ÇQ-nin 2013-cü il üzrə İş planında da müvafiq əlavələr edilmiş, yeni Standarta keçidlə bağlı qarşıya qoyulan məqsəd və fəaliyyət növləri müəyyən olunmuşdur.

MHŞT-nin Azərbaycanda tətbiqi üzrə 2013-cü il üçün müəyyən olunmuş 10 əsas məqsəddən 9-u üzrə fəaliyyətlər uğurlu və tam şəkildə icra olunmuş və 2013-cü ilin sonunadək yekunlaşdırılmışdır.

İcrası tamamlanmamış məqsəd “Azərbaycan əhalisinin MHŞT barədə məlumatlılığının genişləndirilməsi” olmuşdur. Bu məqsədə nail olmaq üçün İş planına daxil edilmiş 4 fəaliyyət növündən 1-i icra olunmuşdur. Belə ki, MHŞT-nin ölkədə tətbiqi ilə bağlı həm Katiblik, həm də QHT Koalisiyası tərəfindən xüsusi tərtibatda broşür və bukletlər hazırlanmış və paylanılmışdır. Universitetlərdə, regionlarda və mərkəzi və region TV kanallarında dəyirmi masaların keçirilməsi tamamlanmamış olaraq qalır. Koalisiya bu fəaliyyətlərin icrasına məsul tərəf olduğundan həmin fəaliyyətlərin icra olunmaması ilə əlaqədar aşağıdakı izahatı vermişdir:

7.1. Universitetlərdə dəyirmi masalar fəaliyyəti üçün Koalisiyanın həyata keçirdiyi layihələrdə maliyyələşmə nəzərdə tutulmadığından bu öhdəliyin icra olunması ilə bağlı təşəbbüs göstərilməmişdir.

7.2. Regionlarda dəyirmi masaların təşkili üzrə fəaliyyət regionlarda tədbirlərin təşkilinə qoyulan qeyri–rəsmi qadağalara görə baş tutmayıb.

7.3. Mərkəzi və Region TV kanallarında dəyirmi masaların təşkili üzrə fəaliyyətin icra olunmamasının səbəbi Koalisiyanın dəfələrlə müraciət etməsinə baxmayaraq Mərkəzi TV-lərdə efir vaxtının ayrılmamasıdır.

# MHŞT tətbiqinin icrası barədə icmal

2013-cü ildə ÇQ-nin 8 iclası keçirilmişdir. Keçirilmiş görüşlər zamanı MHŞT-nin ölkədə tətbiqi ilə bağlı İş planında olan və ilboyu meydana çıxan digər məsələlər müzakirə olunmuş və müvafiq qərarlar qəbul edilmişdir. Qərarların vaxtında və yüksək səviyyədə icrasını təmin etmək məqsədilə Azərbaycanın MHŞT Katibliyi, ÇQ və ümumilikdə, bütün MHŞT tərəfləri arasında sıx əməkdaşlıq 2013-cü ildə də davam etdirilmişdir.

2013-cü ilin ilk ÇQ iclasının gündəliyinə daxil edilmiş MHŞT-nin tətbiqi üzrə 2012-ci ili əhatə edən illik hesabatın açıqlanması may ayının ortalarında yekunlaşdırılmışdır. Nəfis tərtibatda çap olunmuş hesabat Sidneydə keçirilmiş MHŞT üzrə Milli Sərgidə paylama materialı olaraq qonaqlara təqdim edilmiş və müvafiq strukturlara göndərilmişdir. 23-24 may tarixlərində MHŞT üzrə 6-cı Qlobal Konfrans çərçivəsində Milli Sərgi ilə paralel keçirilmiş MHŞT üzrə İdarə Heyətinin iclaslarında Heyətin yeni tərkibi açıqlanmış, Azərbaycan Respublikası Dövlət Neft Fondunun İcraçı direktoru, MHŞT üzrə Komissiyanın sədri cənab Şahmar Mövsümov və İqtisadi Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin üzvü cənab Qubad Bayramov İdarə Heyətinin əsas təkibinə seçilmişdir. Ümumilikdə, Sidneydə keçirilmiş silsilə tədbirlərdə Azərbaycan geniş nümayəndə heyəti ilə təmsil olunmuş, istər panel müzakirələrdə, istər Milli Sərgidə fəal iştirak etmişdir.

23-24 may 2013-cü ildə Sidneydə keçirilmiş MHŞT üzrə 6-cı Qlobal Konfransda, həmçinin, MHŞT üzrə yeni Standart qəbul edilmişdir. Bu Standart bütün üzv ölkələrdə MHŞT prosesinin tətbiqini tənzimləyən əsas sənəd rolunu oynayır. Standart öncəki illərdə qəbul edilmiş tənzimləyici sənədləri əvəz edir. Standart qəbul edildikdən dərhal sonra keçirilmiş ÇQ iclasında Azərbaycanın yeni Standarta ən tez zamanda tam keçidinin həyata keçirilməsinə qərar verilmişdir. MHŞT üzrə Standarta keçidlə əlaqədar ölkədə müxtəlif addımlar atılmışdır. Standartla bağlı keçirilmiş seminarla[1] bərabər, 26 sentyabr 2013-cü il tarixində Azərbaycanın MHŞT-yə qoşulmasının 10 illiyi münasibətilə və yeni qəbul edilmiş Standarta keçidlə bağlı beynəlxalq konfrans[2] baş tutmuşdur. Həmçinin, Standart Azərbaycan dilinə tərcümə edilmiş[3], peşəkar hüquq şirkəti tərəfindən Azərbaycan qanunvericiliyinə uyğunluğu təhlil edilmişdir[4]. ÇQ-nin 2014-cü il üzrə İş planı da Standarta uyğun olaraq hazırlanmışdır və ÇQ-də təsdiq olmuşdur.

Keçirilmiş ÇQ iclaslarında həmçinin MHŞT üzrə əhəmiyyətli ödəmələr, istənilən tərəfin təşəbbüsü ilə istənilən vaxt qaldırılması şərti saxlanılmaqla, birdəfəlik əsasda təsdiq edilmişdir.[5] MHŞT üzrə Katibliyə hər il Dövlət Sosial Müdafiə Fonduna (DSMF) hasilat şirkətlərinin ödənişləri barədə araşdırmaların aparılması tapşırılmışdır və ÇQ araşdırmaların nəticəsinə müvafiq olaraq əhəmiyyətlilik dərəcəsini təhlil edərək müəyyən etmişdir. 2013-cü ildə DSMF-dən daxil olmuş məlumatlarla sosial ödəmələrin ümumi hasilatdan daxil olan gəlirlər arasında çox cüzi payının olduğu müəyyən edilmiş və bununla da, ÇQ tərəfindən MHŞT hesabatlarına daxil edilməməsi qənaətinə gəlinmişdir.

2013-cü il iyunun 10-da keçirilmiş iclasda MHŞT üzrə Hökumət Komissiyası Mur Stefens audit şirkəti tərəfindən yoxlanılmış Azərbaycan Respublikası Hökumətinin mədən hasilatı sənayesində əldə etdiyi məcmu daxilolmaları barədə növbəti (on yeddinci) hesabatını (2012-ci il üzrə) açıqlamışdır. Həmçinin, Mur Stefens şirkətinin nümayəndələri hökumətin təqdim etdiyi hesabatla şirkətlərin fərdi hesabatlarının tutuşdurulması əsasında öz rəyini də ÇQ-yə təqdim etmişdir. 2012-ci il üzrə hesabat verən şirkətlərin sayı 26 olmuşdur. Təqdim edilmiş hesabatlar MHŞT Azərbaycanın rəsmi internet səhifəsində və dövlət qəzetində dərc edilərək əhaliyə açıqlanmışdır. Auditor şirkətinin 2012-ci il üzrə MHŞT hesabatlarının təhlili əsasında verdiyi rəy əvvəlki rəylərlə müqayisədə təkmilləşdirilmiş, bir sıra mühüm dəyişikliklər və əlavələr daxil edilmişdir. Belə ki, 2013-cü ildə MHŞT hesabatlarındakı məlumatların etibarlılığını daha da artırmaq məqsədilə hesabatların tutuşdurma prosesində auditor “seçmə üsulu”-nu (seçilmiş şirkətlərdən fərqlərin müəyyən olunmadığı halda da təsdiqləyici sənədlərin tələb edilməsi) tətbiq etmişdir. Bu üsulla fərqlərin aşkar olunub-olunmamasından asılı olmayaraq auditor 4 hesabat verən şirkət seçmiş və seçilmiş şirkətlərdə 100%-lik yoxlama həyata keçirmişdir. “Seçmə üsulu”nun tətbiqi şirkətlər və hökumət tərəfindən təsdiq edilmiş rəqəmlərin etibarlılığını artırmışdır. 2013-cü il sentyabrın 23-də baş tutmuş iclas

1 Daha ətraflı: “Tədbirlər” bölməsi
2 Daha ətraflı: “Tədbirlər” bölməsi
3 Bax: http://www.eiti.az/index.php/az/senedler/mhsht-standarti
4 Bax: http://www.eiti.az/index.php/az/senedler/mhsht-standarti/95-mhsht-qanuni-huquqi-rey
5 Daha ətraflı: “ÇQ-nin 2013-cü ildə keçirilmiş iclasları və qəbul edilmiş qərarlar” cədvəli, 30 yanvar tarixli iclas

zamanı QHT Koalisiyasının MHŞT üzrə Komissiyanın 2012-ci il üzrə hesabatı (17-ci hesabat) və müstəqil mühasiblərin hesabatına dair rəyi təqdim edilmiş və müzakirə olunmuşdur.

Əlavə olaraq, MHŞT Azərbaycanın rəsmi internet səhifəsinin yenilənməsi üzrə 2013-cü ildə başladılan fəaliyyət ilin ortalarında yekunlaşdırılmışdır. İnternet səhifəsi yeni tərtibatda daha təkmilləşdirilmiş struktur və məzmunla istifadəyə verilmişdir.

2013-cü ildə imzalanması planlaşdırılan Memorandum ilə bağlı tərəflərin çoxsaylı təklifləri və əlavələri ilə müşayiət olunan müzakirələr davam etdirilmişdir. Sözügedən sənəd üzərində 2 ildir işlər davam etdirilir. Bunun üçün xüsusi İşçi qrup[6] yaradılmış, sənədin hazırlanması üzrə dəfələrlə görüşlər keçirilmişdir. Prosesin uzun müddət davam etməsi ÇQ-nin qərarı ilə Azərbaycanın MHŞT Standartına keçən ilk ölkələrdən biri olması və Standartın qəbulu dövründə artıq hazır olan Memorandumun Standarta uyğunlaşdırılması üzrə yenidən işlərin başladılması ilə əlaqədardır. Memorandumun 2014-cü ildə imzalanması gözlənilir.

6 Daha ətraflı: “Memorandumun yeni MHŞT Standartına uyğunlaşdırılması” bölməsi

# MHŞT tərəflərinin fəaliyyəti: nailiyyət və çətinliklər

**Şirkətlər qrupu:**

Şirkətlər qrupu ÇQ iclaslarında fəal iştirak etməklə yanaşı, BP və Şevron şirkətlərinin nümayəndələri xüsusi İşçi qrup[7] çərçivəsində yeni Memorandum layihəsinin hazırlanmasına öz töhfəsini vermişdir.

Həmçinin, Şirkətlər qrupunun MHŞT prosesi və vətəndaş cəmiyyətinə xoşməramlı dəstəyinin davamı olaraq, Beynəlxalq Katibliyin may ayında keçirilmiş Sidney Konfransında Şirkətlər qrupu nümayəndəsi üçün nəzərdə tutduğu yer QHT Koalisiyasının xahişi ilə vətəndaş cəmiyyəti nümayəndəsinə verilmişdir.

2013-cü ildə Şirkətlər qrupu müxtəlif MHŞT tədbirlərində iştirak etmişdir. Mart ayında Avrasiya Hasilat Sənayesi Bilik Mərkəzinin təşkil etdiyi beynəlxalq təlimlərdə BP nümayəndələri altı ölkəni təmsil edən iştirakçılara iki təqdimat etdilər.

Şirkətlər qrupunun nümayəndələri sentyabr ayında həm ATƏT (OSCE) və Gəlirlərə Nəzarət İnstitutu (RWI) tərəfindən keçirilən yeni MHŞT Standartına keçid üzrə seminar, həm də yeni Standart barədə Katiblik tərəfindən keçirilən seminarda fəal iştirak etmişdir.

Oktyabr ayında Çoxtərəfli qrupun nümayəndə heyəti tərkibində BP şirkəti yeni MHŞT Standartı üzrə Qazaxıstanın paytaxtı Astana şəhərində keçirilən beynəlxalq seminarda şirkətlər qrupunu təmsil etmişdir.

**Hökumət Komissiyası:**

2013-cü ildə Hökumət Komissiyasının sədri və üzvləri MHŞT-nin tətbiqi ilə əlaqədar fəaliyyətlərdə yaxından iştirak etmişdir. Komissiyanın sədri, Dövlət Neft Fondunun İcraçı direktoru ÇQ-nin fəaliyyətinin səmərəliliyinin artırılması, müxtəlif görüş və tədbirlərdə Təşəbbüsə dair çıxışlar və müzakirələrin aparılması, MHŞT üzrə Katibliyin işinə nəzarəti həyata keçirməklə bərabər beynəlxalq səviyyədə də MHŞT-nin idarə olunmasında fəaliyyətlərini davam etdirmişdir. O, fevral ayında Osloda və may ayında Sidneydə keçirilmiş İdarə Heyətinin iclaslarında iştirak etmişdir.

Həmçinin, Komissiyanın üzvləri və Vergilər və Energetika nazirliklərinin nümayəndələri Memorandumun yenidən işlənib-hazırlanması üzrə yaradılmış xüsusi İşçi qrupda təmsil olunmuş, dəfələrlə keçirilən görüşlərdə iştirak etmiş və sənədin hazırlanması üzrə işlərdə öz töhfələrini vermişdir.

**MSŞA üzrə QHT Koalisiyası:**

2013-cü ildə MSŞA Koalisiyası MHŞT-nin Azərbaycanda tətbiqi prosesinə töhfə vermək məqsədilə bir sıra tədqiqatlar aparmış və ictimai müzakirələr keçirmişdir. Koalisiya bu sahədə mövcud durumu dəyərləndirmək üçün beynəlxalq ekspertlərin iştirakı ilə "Azərbaycanda MHŞT-nin tətbiqi: Monqolustan və Norveç təcrübəsi ilə müqayisə" adlı mövqe sənədi hazırlamışdır. MSŞA Koalisiyasının mövqe sənədinin hazırlanmasına Xəzər Universiteti Avrasiya Mədən Sənayesi Bilik Mərkəzinin direktoru İnqilab Əhmədov, İqtisadi Tədqiqatlar Mərkəzinin aparıcı analitiki Qubad İbadoğlu, Monqolustan MHŞT Katibliyinin Əlaqələr üzrə meneceri Delgermaa Boldbaatar və beynəlxalq məsləhətçi Abdul Omar cəlb edilmişdir.

MSŞA Koalisiyasının ekspertləri tərəfindən ötən il həmçinin MHŞT üzrə yeni qaydaların hesabatların təkmilləşdirilməsinə təsiri imkanlarının

7 Daha ətraflı: "Memorandumun yeni MHŞT Standartına uyğunlaşdırılması" bölməsi

müəyyənləşdirilməsi, onun tətbiqi nəticəsində baş verəcək dəyişikliklərin qiymətləndirilməsi və ABŞ Senatının Dodd Frank Aktının Azərbaycanda MHŞT üzrə hesabatların təkmilləşdirilməsinə dair siyasət təklifləri hazırlanmışdır. Ötən il Koalisiyanın həyata keçirdiyi əsas fəaliyyətlərdən biri də 2010-cu ildə MSŞA Koalisiyası tərəfindən hazırlanmış "Mədən sənayesində şəffaflıq təşəbbüsü" haqqında Qanun layihəsinin 2013-cü ildə Normativ sənədlər haqqında Azərbaycan Respublikası Qanununa və eyni zamanda MHŞT Standartına uyğunlaşdırılması və bu Qanun layihəsinin yeni redaktədə hazırlanaraq müzakirəyə təqdim edilməsi olmuşdur.

MSŞA Koalisiyanın 13 dekabr 2013-cü ildə Ümumi Yığıncağı keçirilib, yeni Şura və MQ üzvləri seçilib.

MSŞA Koalisiyasının mövqeyinə əsasən, ötən il ərzində MSŞA Koalisiyasının əsas çətinlikləri ölkədə QHT-lər üçün getdikcə məhdud olan fəaliyyət mühiti ilə əlaqədar olub. Belə ki, 13 dekabr 2013-cü ildə Milli Məclisin QHT Qanunvericiliyinə etdiyi əlavə və dəyişikliklərin təsdiq olunmasından sonra QHT-lərin fəaliyyətinə inzibati müdaxilələr artmış və QHT-lər tərəfindən ictimai müzakirələrin təşkilinə maneələr çoxalıb. QHT-lər 2013-cü ilə qədər regionlarda tədbirlərini keçirməkdə çətinlik çəkirdisə, hazırda hətta Bakı şəhərində konfrans zallarının icarəyə götürülməsində problemlər yaradılır.

**MHŞT Katibliyi:**

Azərbaycanın MHŞT üzrə Katibliyi 2013-cü ildə ÇQ tərəfindən qəbul edilən qərarların icrası, tərəflərə təşkilati və koordinativ dəstəyin göstərilməsi, onlarla mütəmadi əlaqələrin saxlanılması, MHŞT-nin birbaşa iştirakçısı olmayan təşkilat və qurumların müraciətlərinə cavab və digər funksiyaların icrası ilə yanaşı yerli və beynəlxalq MHŞT və əlaqədar tədbirlərdə iştirakı da həyata keçirmişdir.[8]

Katiblik nümayəndələri 2013-cü ildə keçirilmiş 3 İdarə Heyəti iclaslarının iştirakçısı olmuş, Almaniyada keçirlmiş "MHŞT kommunikasiya" təlimində, Astanada MHŞT Standartı ilə bağlı keçirilmiş seminarda iştirak etmişlər.

8 MHŞT üzrə yerli Katibliyin 2013-cü il üzrə büdcəsini Əlavə 4-də nəzərdən keçirə bilərsiniz.

# Memorandumun MHŞT Standartına uyğunlaşdırılması üzrə İşçi qrupun 2013-cü ildə fəaliyyəti

2013-cü il 23-24 may tarixlərində Avstraliyanın Sidney şəhərində MHŞT üzrə VI Qlobal Konfrans keçirilmiş və tətbiq edən ölkələrin MHŞT üzrə fəaliyyətlərini nizamlayan yeni Standart qəbul edilmişdir. Qəbul olunmuş Standart MHŞT ölkələrinin mövcud sahədə çoxillik təcrübələrinə əsaslanaraq Beynəlxalq İdarə Heyəti və MHŞT tərəflərinin birgə məsləhətləşmələrinin və əməkdaşlıqlarının nəticəsi kimi ərsəyə gəlmişdir. MHŞT Standartı əhaliyə daha etibarlı, münasib və lazımlı informasiyanın çatdırılmasını həvəsləndirir, daha genişmiqyaslı islahatlar üçün zəmin yaradır.

Azərbaycanda da ölkədə MHŞT-nin tətbiqini tənzimləyən əsas sənəd olan Memorandumun yeni Standarta uyğunlaşdırılması ehtiyacı yaranmış və 2011-ci ildə ÇQ üzvlərindən ibarət (MSŞA Koalisiyasından 2 nəfər, Şirkətlər qrupundan 2 nəfər, MHŞT üzrə Komissiyadan 2 nəfər) yaradılmış İşçi Qrup fəaliyyətini davam etdirmişdir.

2013-cü ildə İşçi qrupun 10-dək görüşü keçirilmiş, müzakirələr elektron şəkildə də mütamadi olaraq davam etdirilmişdir. Görüşlərdə əsas etibarı ilə Memorandumun tamamilə yenilənərək MHŞT Standartının müddəalarına uyğun hazırlanması, Memoranduma əlavələrin, xüsusilə hesabat formalarının təkmilləşdirilməsi üzrə gərgin müzakirələr aparılmış, sual doğuran məqamlar beynəlxalq təcrübəyə müraciətlə həll edilmişdir. 2013-cü ilin dekabr ayında Memorandum və əlavələr yeni Standarta uyğun olaraq yenidən hazırlanmışdır və ÇQ-yə təqdim olunmuşdur.

# Qiymətləndiricinin və Auditorun tövsiyələri əsasında MHŞT üzrə həyata keçirilmiş təkmilləşmələr

2013-cü ildə ölkəmizdə MHŞT hesabatlılığının məzmununun təkmilləşdirilməsi və keyfiyyətinin artırılması üzrə işlər davam etdirilmişdir. Həmin işlərin planlaşdırılması və həyata keçirilməsi zamanı Auditorun tövsiyələri də nəzərə alınmış və hər üç MHŞT tərəfinin fəal iştirakı müşahidə edilmişdir. Hesabat formalarının məlumat baxımından zənginləşdirilməsi, həmçinin onların doldurulma təlimatlarına uyğun olaraq yenilənməsi ilə bağlı işlər yeni Memorandumun hazırlanması üzrə İşçi qrupun 2013-cü ildə keçirilmiş çoxsaylı görüşləri çərçivəsində müzakirə edilmiş və həyata keçirilmişdir. Həmin sənədlər ölkənin yeni Standarta keçidi ilə əlaqədar tam şəkildə yenilənərək ÇQ-yə təqdim olunmuşdur.

Hökumət və şirkətlər tərəfindən MHŞT hesabatlarında təsdiq edilmiş rəqəmlərin beynəlxalq auditdən keçməsi ilə bağlı məsələ ötən ildə ÇQ üzvləri arasında çoxsaylı müzakirələrə səbəb olmuş əsas məsələlərdən biri olmuşdur. Sözügedən bu məsələ “seçmə üsulu”nun tətbiqi (MHŞT hesabatı verən şirkət və dövlət orqanları içərisindən auditor tərəfindən nümunə üsulu əsasında seçilmiş müəyyən sayda qurumların 100%-lik yoxlamadan keçirilməsi) ilə öz həllini tapmışdır. “Seçmə üsulu” ÇQ üzvləri, auditor və beynəlxalq MHŞT Katibliyi arasında daimi yazışma və müzakirələrin nəticəsində Azərbaycanın mövcud şəraitin təhlili əsasında ən uyğun həll yolu kimi qiymətləndirilmişdir.

MHŞT hesabatlılığında yol verilən səhvlərin azaldılması və ümumi keyfiyyətin daha da artırılması üçün hesabat verən təşkilatların məsul texniki nümayəndələri ilə məsləhətləşmələr aparılmış, yeni MHŞT Standartı ilə bağlı keçirilmiş seminarda bu məsələyə bir daha toxunularaq auditorun təqdimatı keçirilmişdir.

Azərbaycan 2009-cü ildə Qiymətləndirmədən uğurla keçdikdən dərhal sonra Qiymətləndirici tərəfindən irəli sürülmüş tövsiyələrin icrasına başlamış və qısa müddətdə həyata keçirilməsinə nail olmuşdur. Həmin dövrdən etibarən ölkədə MHŞT-nin daim dərinləşdirilməsi üzrə işlər artan xətt üzrə davam etdirilmişdir. Azərbaycanın hal-hazırda hər bir MHŞT tərəfinin bərabər təmsil olunduğu funksional Çoxtərəfli qrupu fəaliyyət göstərir. ÇQ öz fəaliyyətini ölçüləbilən hədəflər, əsas məqsədlər və dəqiq müddətlərin öz əksini tapdığı İş planına əsasən qurur. Təşəbbüs Azərbaycanda hasilat şirkətlərinin, qeyri-hökumət təşkilatlarının və hökumət nümayəndələrinin birgə əməkdaşlığı nəticəsində stabil həyata keçirilir və MHŞT hesabatları müntəzəm olaraq ictimaiyyətə açıqlanır.

# Tədbirlər

**Əfqanıstan nümayəndə heyətinin səfəri**

7 may 2013-cü il tarixində Əfqanıstanın MHŞT üzrə Çoxtərəfli qrup üzvlərindən ibarət nümayəndə heyətinin Bakıya səfəri həyata keçirilmişdir. Səfər zamanı nümayəndə heyəti MHŞT üzrə Komissiyanın sədri Şahmar Mövsümovla və MHŞT üzrə Katibliyin nümayəndələri ilə görüşmüş, Azərbaycanın hasilat sənayesindən əldə olunan gəlirlərinin idarə olunması və şəffaflığın təmin olunması sahəsində Azərbaycanın təcrübəsini öyrənmişlər.

Əfqanıstan MHŞT Çoxtərəfli qrupunun nümayəndə heyəti BP nümayəndələri ilə də görüş keçirmişdir.



**MHŞT üzrə Sidney Qlobal Konfransı və Konfrans çərçivəsində Milli Sərgi**

23-24 may 2013-cü il tarixlərində Avstraliyanın Sidney şəhərində MHŞT üzrə VI Qlobal Konfrans keçirilmişdir. Konfransda Azərbaycan geniş nümayəndə heyəti ilə təmsil olunmuşdur. Konfransla bərabər MHŞT üzrə Beynəlxalq İdarə Heyətinin iclasları da keçirilmişdir.

Konfrans çərçivəsində keçirilmiş MHŞT üzrə Milli Sərgidə Azərbaycana dair stenddə sərgi iştirakçıları ölkəmizin tarixi, coğrafi xüsusiyyətləri kimi ümumi məlumatlarla yanaşı ölkədə çıxarılan təbii sərvətlər, həmin sərvətlərdən daxil olan gəlirlər və ölkəmizin MHŞT-dəki aparıcı rolu haqqında məlumat əldə etmişdir. Sərgidə müxtəlif çap və paylama materialları iştirakçılara təqdim edilmişdir.




**Gəlirlərə Nəzarət İnstitutunun təşkil etdiyi seminar**

23 sentyabr 2013-cü il tarixində Gəlirlərə Nəzarət İnstitutu MHŞT üzrə QHT Koalisiyası ilə birgə vətəndaş cəmiyyəti üçün seminar təşkil etmişdir. Seminar vətəndaş cəmiyyətinin Standartla bağlı müzakirələrə hazırlanması məqsədi ilə MHŞT ilə bağlı tədbirlər həftəsindən öncə təşkil olunmuşdur. Gəlirlərə Nəzarət İnstitutunun yeni Standart üzrə təlimatı iştirakçılara təqdim edilmişdir. Seminarın sonunda vətəndaş cəmiyyətinin mövqe sənədinin layihə versiyası hazırlanmışdır. Sənəddə vətəndaş cəmiyyətinin yeni Standarta keçidi ilə bağlı seçdiyi prioritetlər əks olunmuşdur.

**Gəlirlərə Nəzarət İnstitutu və ATƏT-in Bakı ofisinin təşkil etdiyi görüş**

24 sentyabr 2013-cü il tarixində Gəlirlərə Nəzarət İnstitutu və ATƏT-in Bakı ofisi Azərbaycanda, Norveçdə və Mongolustanda MHŞT-nin tətbiqinin müqayisəli təhlili və yeni qaydalara keçidi ilə bağlı ÇQ tərəflərinin iştirakı ilə görüş keçirmişdir. Görüşdə 4 ekspert - Qubad İbadoğlu, Bodlbatar Delgerma, Əbdül Ömər və İnqlab Əhmədov tərəfindən, MHŞT-nin fərqli ölkələrdə tətbiqi ilə bağlı təqdimat keçirilmişdir. Təqdimatlar zamanı MHŞT-nin üstünlükləri, həm də yeni Standarta təcili keçidin zərurəti də bildirilmişdir. Görüşdə yeni Standartın uğurlu tətbiqində ÇQ və vətəndaş cəmiyyətinin potensialının artırılması zəruri element olaraq vurğulanmışdır.

**MHŞT tərəflərinə yeni Standart haqqında seminar**

25 sentyabr, 2013-cü il tarixində Azərbaycan Respublikası Dövlət Neft Fondu və ATƏT-in birgə təşkilatçılığı ilə Azərbaycanın hasilat sənayesində fəaliyyət göstərən yerli və xarici şirkətlərə, QHT Koalisiyasının üzvlərinə təlim proqramı keçirilmişdir. Təlimin əsas məqsədi Azərbaycanın MHŞT üzrə Yeni Standarta keçidi ilə əlaqədar dəyişikliklər və yeniliklər barədə tərəflərin məlumatlandırılması, hesabatlılığın keyfiyyətinin artırılması və şirkətlər tərəfindən edilən səhvlərin azaldılması və Standartın Azərbaycan Respublikası qanunvericiliyi ilə müqayisəli təhlili olmuşdur.

Seminarda yerli nümayəndələrlə yanaşı xarici ekspertlər də iştirak etmişdir.

**Azərbaycanın MHŞT-yə qoşulmasının 10 illiyi münasibətilə beynəlxalq konfrans**

26 sentyabr 2013-cü il tarixində Azərbaycan Respublikası Dövlət Neft Fondunun təşkilatçılığı ilə Azərbaycanın MHŞT-yə qoşulmasının 10 illiyinə həsr olunmuş “Azərbaycan MHŞT daxilində 10 il. Tarixdən yeni pilləyə” mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

Konfransın təşkilində məqsəd son dövrlərdə MHŞT ətrafında baş verən qlobal dəyişikliklər və müzakirələri gündəmə çıxarmaq, yeni MHŞT Standartına keçidlə bağlı çətinlik və perspektivləri, 10 il ərzində Azərbaycanın MHŞT-nin tətbiqi sahəsində əldə etdiyi uğurları müzakirə etmək və MHŞT-nin daha geniş inkişafına təkan vermək, Azərbaycanın MHŞT sahəsində təcrübəsini digər ölkələrlə bölüşməkdən ibarət olmuşdur.



### Azərbaycanın yeni Standarta keçidi ilə bağlı Azadlıq Radiosunun "Açıq Hökumət" verilişində debat

28 sentyabr 2013-cü il tarixində Azadlıq Radiosunun "Açıq Hökumət" verilişi Azərbaycanda MHŞT həftəsinə təsadüf etmişdir; veriliş hökumət tərəfindən 26 sentyabrda təşkil olunmuş MHŞT-nin 10 illiyinə həsr edilmiş konfransdan sonra təşkil edilmişdir. Verilişin əsas sualı "Azərbaycanın hasilat gəlirləri kifayət qədər şəffafdırmı?", əsas vurğu isə Azərbaycanın Yeni Standarta keçidi olmuşdur. Verilişdə QHT Koalisiyasının koordinatoru Zöhrab İsmayıl və Beynəlxalq MHŞT İdarə Heyəti üzvü Qubad İbadoğlu iştirak etmişdir. Bakıya səfəri zamanı Gəlirlərə Nəzarət İnstitutunun eksperti Aleksandr Gilles də Azadlıq Radiosunun suallarını cavablandırmış və öz fikirlərini ilə bölüşmüşdür.

### MSŞA Koalisiyasının Ümumi Yığıncağı

13 dekabr 2013-cü il tarixində Mədən Sənayesində Şəffaflığın Artırılması (MSŞA) Koalisiyasının Ümumi Yığıncağı keçirilib. Kempinski Otel Badamdarda düzənlənən tədbirdə koalisiya üzvü olan təşkilatlardan 71-i iştirak edib. Qonaqlar arasında Amerika Birləşmiş Ştatlarının səfiri Riçard Morninqstar, Dünya Bankının ölkə direktoru Larisa Leşçenko, Ödədiyini Açıqla (PWYP) beynəlxalq koalisiyasının Avrasiya üzrə koordinatoru Oliana Valigura, eləcə də MHŞT üzrə katibliyin nümayəndələri və ÇQ-nin şirkətlərdən olan təmsilçiləri də olub. Həmçinin, Azərbaycanda MHŞT-nin 10 illiyi ilə bağlı ötən dövrün qiymətləndirilməsinin aparılması üçün ATƏT-in dəstəyi ilə beynəlxalq məsləhətçi (Əbdül Ömər) və 2 nəfər yerli ekspert (İnqilab Əhmədov və Qubad İbadoğlu), həmçinin bu layihənin dəstəyi ilə Monqolustanlı ekspert (Delgerma Boldbatar) layihəyə cəlb edilib. Ekspertlər Norveç və Monqolustan təcrübəsi ilə müqayisəli icmal əsasında mövqe sənədi hazırlayıblar. Ümumi Yığıncaqda Azərbaycanda MHŞT-nin inkişafı ilə bağlı mövqe sənədi və ÇQ-də yeni standarta keçidlə bağlı görülən işlərə dair təqdimat iştirakçıların diqqətinə çatdırılıb.

### Azadlıq radiosunda keçirilən debat

28 dekabr 2013-cü il tarixində "MHŞT-nin 10 illiyi ilə bağlı milli ve regional TV-lərdə, media, internet ve sosial şəbəkələrdə kampaniya" layihəsi çərçivəsində Azadlıq radiosunun Açıq Hökumət verilişində "MHŞT-nin yeni standartı" mövzusunda debat canlı olaraq yayımlanıb və Youtube internet səhifəsində yerləşdirilib. Verilişdə Koalisiyadan 2 nəfər ekspert (İlham Şaban və Zöhrab İsmayıl), həmçinin MHŞT Katibliyinin rəhbəri Fərid Fərzəliyev və BP şirkətinin Şəffaflıq və İctimai Hesabatlılıq komandasının rəhbəri Araz Yusubov iştirak ediblər.

# Əlavə 1

**Azərbaycan Respublikasında "Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsü"nün (MHŞT) tətbiqi üzrə 2013-cü il üzrə İş planı**

Çoxtərəfli Qrup (ÇQ) tərəfindən (Hökumət Komissiyası, QHT Koalisiyası, Mədən hasilatı ilə məşğul olan yerli və xarici şirkətlər) tərtib olunub

| Məqsəd | Fəaliyyət növü | Vaxt | İcra | Məsul tərəf | | | | | | Gözlənilən nəticə |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | ÇQ[9] | Katiblik[10] | Komissiya[11] | Şirkətlər[12] | QHT[13] | Digər | |
| 1. 2012-ci il üzrə illik MHŞT hesabatının hazırlanması və açıqlanması | 1.1. Rəsmi dövlət qəzetlərində, Dövlət Neft Fondunun və MHŞT-nin internet saytlarında MHŞT hesabatlarını tutuşdurmaq üçün beynəlxalq nüfuzlu auditoru seçmək məqsədi ilə tenderin keçirilməsinə dair bildirişin dərc edilməsi | 23 yanvar | Bildiriş dərc edilmişdir. | | * | | | | | Ölkənin mədən sənayesindən əldə olunan gəlirlər barədə əhalinin məlumatlandırılması |
| | 1.2. Beynəlxalq nüfuzlu auditorlara tenderdə iştirak etmək məqsədi ilə dəvətnamələrin göndərilməsi | 24 yanvar | Dəvətnamələr göndərilmişdir. | | * | * | | | | |
| | 1.3. Hesabatları tutuşduraraq təhlil edəcək Auditorun seçilməsi | 13 fevral | Auditor seçilmişdir. | * | | | | | | |
| | 1.4. Auditorla müqavilənin imzalanması | 21 fevral | Müqavilə imzalanmışdır. | | | * | | | | |
| | 1.5. Hesabat formalarının yerli və xarici şirkətlərə göndərilməsi | 22 fevral | Hesabat formaları göndərilmişdir. | | * | * | | | | |
| | 1.6. Hökumətin, xarici və yerli şirkətlərin hesabatlarının audit şirkətinə təqdim olunması üçün son tarix | 15 mart | Hesabatlar təqdim edilmişdir. | | | * | * | | | |
| | 1.7. Hökumətin məcmu daxilolmaları barədə hesabatın və Auditor rəyinin təqdimatı, Azərbaycan MHŞT Katibliyinin, Dövlət Neft Fondunun, QHT Koalisiyasının, MHŞT üzrə beynəlxalq Katibliyin internet saytlarında yerləşdirilməsi | 10 iyun | Rəy təqdim edilmiş və müvafiq internet səhifələrində yerləşdirilmişdir. | * | * | | | * | Auditor | |
| | 1.8. Hökumət hesabatının rəsmi dövlət qəzetində dərc etdirilməsi | 12 iyun | Hesabat dərc edilmişdir. | | * | | | | | |
| | 1.9. QHT Koalisiyası tərəfindən ÇQ üzvlərinə il üzrə hesabatlara dair rəyin təqdimatı və hesabatlar üzrə müzakirələrin aparılması | 23 sentyabr | Rəy təqdim edilmiş və müzakirələr aparılmışdır. | * | | | | * | Auditor | |

9 MHŞT üzrə Çoxtərəfli Qrup
10 Azərbaycanın MHŞT üzrə Katibliyi 11 MHŞT üzrə Hökumət Komissiyası
11 MHŞT üzrə Hökumət Komissiyası
12 Azərbaycanda mədən sənayesi ilə məşğul olan yerli və xarici şirkətlər qrupu
13 Mədən Sənayesində Şəffaflığın Artırılması üzrə Azərbaycan Qeyri-hökumət Koalisiyası

| Məqsəd | Fəaliyyət növü | Vaxt | İcra | Məsul tərəf | | | | | | Gözlənilən nəticə |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | ÇQ[9] | Katiblik[10] | Komissiya[11] | Şirkətlər[12] | QHT[13] | Digər | |
| 1. 2012-ci il üzrə illik MHŞT hesabatının hazırlanması və açıqlanması | 1.10. MHŞT üzrə Hökumət hesabatının, Müstəqil Auditorların və QHT Koalisiyasının rəylərinin birgə sənəddə (MHŞT hesabatı 2012) dərc edilməsi | 30 dekabr | Hesabat dərc edilmişdir. | * | * | | | | | Ölkənin mədən sənayesindən əldə olunan gəlirlər barədə əhalinin məlumatlandırılması |
| | 1.11. MHŞT üzrə hesabatdan sonra nəticələrin telekanalda müzakirəsi | 27 dekabr | İcra edilməmişdir. | * | | | | | | |
| 2. Azərbaycanda MHŞT-nin tətbiqi üzrə fəaliyyət barədə 2012-ci ili əhatə edən illik hesabatın hazırlanması və dərci | 2.1. İllik hesabat üzrə ilkin müzakirələr | 25 yanvar | İlkin müzakirələr aparılmışdır. | * | | | | | | 2012-ci ildə MHŞT-nin tətbiqi üzrə fəaliyyət barədə ictimaiyyətə hesabatın verilməsi |
| | 2.2. ÇQ üzvlərindən materialların toplanması üçün son müddət | 15 fevral | Materiallar toplanmışdır. | * | * | | | | | |
| | 2.3. İllik hesabat layihəsinin müzakirəsi və təsdiqi | 15 aprel | Hesabat layihəsi təsdiq edilmişdir. | * | | | | | | |
| | 2.4. Təsdiq olunmuş hesabatın açıqlanması, MHŞT Azərbaycan internet saytında yerləşdirilməsi | 6 iyun | Hesabat saytda yerləşdirilmişdir. | | * | | | | İcraçı şirkət | |
| | 2.5. Açıqlanmış hesabatın dərci | 20 may | Hesabat dərc edilmişdir. | | * | | | | İcraçı şirkət | |
| 3. MHŞT üzrə Azərbaycanda və Azərbaycandan kənarda təbliğat tədbirlərinin həyata keçirilməsi | 3.1. MHŞT barədə broşürlərin paylanması | ilboyu | Broşürlərin paylanması həyata keçirilir. | * | * | | | | | MHŞT hesabatlarının geniş təbliğatı, MHŞT barədə yerli və beynəlxalq ictimaiyyətin məlumatlandırılması, təcrübə mübadiləsi |
| 4. Beynəlxalq səviyyədə təcrübə mübadiləsi | 4.1 Xaricdə keçirilən MHŞT tədbirlərində (konfranslar, seminarlar, treninqlər, sərgilər, mübadilə proqramları və s.) iştirak | ilboyu | MHŞT tədbirlərində iştirak davam etdirilir. | * | * | * | * | * | | Azərbaycanda MHŞT tətbiqinə dair məlumatların beynəlxalq səviyyədə yayılması, xarici təcrübənin öyrənilməsi |
| 5. Azərbaycanda Beynəlxalq MHŞT konfransının keçirilməsi | 5.1 Konfransın keçirilməsi məsələlərinin müzakirəsi | 25 yanvar | Beynəlxalq Konfransa hazırlıq işləri müzakirə edilmişdir. | * | * | | | | | Azərbaycanda MHŞT tətbiqinə dair təcrübə barədə məlumatın yayılması, ÇQ beynəlxalq əlaqələrinin genişləndirilməsi, digər ölkələrin MHŞT təcrübələri ilə tanışlıq |
| | 5.2 Konfransın hazırlıq işlərinin gedişatı üzrə müzakirələr | 15 aprel | Hazırlıq işləri müzakirə edilmişdir | * | * | | | | | |
| | 5.3 Konfransın keçirilməsi | 26 sentyabr | Konfrans keçirilmişdir. | * | * | * | * | * | | |

| Məqsəd | Fəaliyyət növü | Vaxt | İcra | Məsul tərəf | | | | | | Gözlənilən nəticə |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | ÇQ[9] | Katiblik[10] | Komissiya[11] | Şirkətlər[12] | QHT[13] | Digər | |
| 6. Azərbaycanın MHŞT üzrə Qlobal Konfransda iştirakı | 6.1. Qlobal konfransa və konfrans çərçivəsində keçiriləcək Milli Sərgiyə hazırlıq işlərinin müzakirəsi | 25 yanvar | Qlobal Konfransa hazırlıq işləri müzakirə edilmişdir. | * | | | | | | Azərbaycan MHŞT prosesinin beynəlxlaq təbliğatı, Təşəbbüsün tətbiqinin təkmilləşdirilmə si, təcrübə mübadiləsi |
| | 6.2. Qlobal Konfransa hazırlıq | 15 aprel | Hazırlıq üzrə işlər müəyyənləşdirilmişdir. | * | * | | | | | |
| | 6.3. Qlobal Konfransda və Milli Sərgidə iştirak | 22-24 may | İştirak edildi. | | * | * | * | * | | |
| 7. Azərbaycan əhalisinin MHŞT barədə məlumatlılığının genişləndirilməsi | 7.1. Universitetlərdə dəyirmi masalar | İlboyu | İcra edilməmişdir. | * | * | | | * | | Vətəndaşlarının məlumatlılığını n artırılması |
| | 7.2. Regionlarda dəyirmi masalar | İlboyu | İcra edilməmişdir. | | | | | * | | |
| | 7.3. Mərkəzi və Region TV kanallarında dəyirmi masalar | İlboyu | İcra edilməmişdir. | | | | | * | | |
| | 7.4. Xüsusi çap məhsullarının hazırlanması və istehsalı (broşür, buklet, kitab) | İlboyu | MHŞT-nin Azərbaycanda tətbiqinə dair broşür çap edilmişdir. | | * | | | * | | |
| 8. Şirkətlər qrupuna və QHT nümayəndələrinə MHŞT hesabatlılığı və yeni Standart üzrə treninqin keçirilməsi | 8.1. Treninqin keçirilməsi haqqında ilkin müzakirələr | 10 iyun | Müzakirə edilmişdir | * | | | | | | MHŞT hesabatlılığının keyfiyyətinin və yeni Standartla bağlı məlumatlılığın artırılması |
| | 8.2. Treninqin keçirilməsi | 25 sentyabr | Treninq keçirilmişdir | | * | | | | Auditor, hüquq şirkəti, MHŞT üzrə Beynəlxalq Katiblik | |
| 9. 2014-cü il MHŞT üzrə İş Planının müzakirəsi | 9.1. 2014-cü il MHŞT üzrə İş Planının ilkin müzakirəsi | 25 noyabr | İş planının layihəsi müzakirə edilmişdir. | * | * | | | | | |
| | 9.2. 2014-cü il MHŞT üzrə İş Planının təsdiqi | 3 dekabr | İş planı təsdiq edilmişdir | * | * | | | | | |
| 10. MHŞT Standartına uyğunlaşdırılmış yeni Memorandumun hazırlanması | 10.1. İşçi qrup tərəfindən hazırlanmış yeni Memorandum layihəsinin ilkin müzakirəsi | 7 noyabr | Müzakirə edilmişdir. | * | * | * | * | * | | |
| | 10.2. Yeni Memorandum layihəsinin müzakirəsinin davamı | 25 noyabr | Müzakirələr davam etdirilmişdir. | * | * | * | * | * | | |
| | 10.3. Yeni Memoranduma əlavələrin müzakirəsi | 3 dekabr | Əlavələr müzakirə edilmişdir | * | * | * | * | * | | |

Qeyd: Bütün təkliflər bütün tərəflərə nəzərdə tutulmuş görüşdən 10 gün əvvəldən gec olmayaraq göndərilməlidir.

| ÇQ-nin 2013-cü il üzrə nəzərdə tutulan iclasları | İş planına daxil edilən məsələlər |
|---|---|
| 25 yanvar | 2.1. 5.1. 6.1. |
| 13 fevral | 1.3. |
| 15 aprel | 2.3. 5.2. 6.2. |
| 10 iyun | 1.7. 8.1. |
| 23 sentyabr | 1.9. |
| 7 noyabr | 10.1. |
| 25 noyabr | 9.1. 10.2. |
| 3 dekabr | 9.2. 10.3. |

# Əlavə 2

## ÇQ-nin 2013-cü ildə keçirilmiş iclasları və qəbul edilmiş qərarlar

| ÇQ iclaslarının tarixləri | Gündəlik | Qəbul edilmiş qərarlar |
|---|---|---|
| 30 yanvar | 1. Azərbaycanda MHŞT-nin tətbiqi üzrə illik hesabatla bağlı ilkin müzakirələr; | • ÇQ üzvləri 15 fevral 2013-cü il tarixinədək MHŞT-nin 2012-ci ildə Azərbaycanda tətbiqi üzrə illik hesabatla bağlı təkliflərini və müvafiq məlumatları (foto, mətn, digər şəkillər və s.) Katibliyə təqdim etsinlər.<br>• MHŞT-nin 2012-ci ildə Azərbaycanda tətbiqi üzrə illik hesabata<br>• ÇQ üzvlərinin sitatı və MHŞT hesabatlarının təhlili daxil edilməsin. |
| | 2. Azərbaycanda Beynəlxalq MHŞT konfransının keçirilməsinə hazırlıq işlərinin müzakirəsi; | • ÇQ üzvləri 28 fevral 2013-cü il tarixinədək ölkənin MHŞT-yə qoşulmasının 10 illiyi münasibəti ilə Azərbaycanda keçiriləcək MHŞT üzrə Beynəlxalq Konfransın məzmunu ilə bağlı təkliflərini Katibliyə bildirsin. |
| | 3. MHŞT üzrə ÇQ-nin qərarlarının icrası barədə hesabatın (dekabr 2012-yanvar 2013) müzakirəsi; | • HPBS mətnlərinin və MHŞT üzrə fərdi hesabatların açıqlanması barədə şirkətlərə ünvanlanmış məktublara verilən cavablar növbəti iclaslarda müzakirə olunsun. |
| | 4. MHŞT üzrə VI Qlobal Konfransa və konfrans çərçivəsində keçiriləcək Milli Sərgiyə hazırlıq işlərinin müzakirəsi; | • ÇQ üzvləri 28 fevral 2013-cü il tarixinədək VI Qlobal Konfrans çərçivəsində Sidneydə keçiriləcək Milli Sərgidə Azərbaycanın iştirakı ilə bağlı təkliflərini Katibliyə bildirsin.<br>• Milli Sərgiyə hazırlıq işləri ilə əlaqədar dərhal peşəkar bir şirkətlə işlərə başlanılsın.<br>• MHŞT üzrə Katiblik Sərgi materiallarının Sidneydə çap olunması məsələsini Beynəlxalq Katibliklə aydınlaşdırsın. |
| | 5. Azərbaycan mədən sənayesində əhəmiyyətli ödəmələrinin müzakirəsi; | • MHŞT üzrə Katiblik 2012-ci il üzrə Dövlət Sosial Müdafiə Fonduna ayırmaların miqdarını araşdırsın və məlumatı ÇQ üzvlərinin nəzərinə çatdırsın.<br>• MHŞT üzrə əhəmiyyətli ödəmələr, istənilən tərəfin təşəbbüsü ilə istənilən vaxt qaldırılması şərti saxlanılmaqla, birdəfəlik əsasda aşağıdakı kimi təsdiq edilsin.<br>"Azərbaycanda mədən hasilatı ilə məşğul olan bütün xarici və yerli şirkətlər tərəfindən Azərbaycan dövlətinə köçürülən gəlirlər üzrə (natura və dəyər ifadəsində) əhəmiyyətlilik həddinin müəyyən edilməsi aşağıdakı iki səviyyədə baş verir:<br>1. Hesabata daxil edilən əhəmiyyətli gəlir mənbələrinin müəyyən edilməsi;<br>ÇQ tərəfindən əhəmiyyətli sayılan gəlir mənbələri aşağıdakı kimi müəyyənləşdirilib:<br>- neft hasilatı üzrə natura və dəyər ifadəsində,<br>- təbii və səmt qazı natura və dəyər ifadəsində,<br>- əsas və qiymətli metallar natura və dəyər ifadəsində,<br>- mənfəətdən vergi,<br>- imzalanma və digər bonuslar, - akr ödənişləri və tranzit haqları,<br>- royalti, əlavə dəyər vergisi, torpaq vergisi, əmlak vergisi, qiymət fərqi, sair vergilər (fiziki şəxslərin gəlir vergisi, Dövlət Sosial Müdafiə Fonduna ayırmalar və ödəmə mənbəyindən tutulan vergilər istisna olmaqla)<br>Bu gəlir mənbələri dövlətin mədən hasilatından əldə edilən gəlirlərinin 99 faizindən çoxunu (99.99%-ni) əhatə edir.<br>2. Hər müəyyən edilmiş gəlir mənbəyi üzrə əhəmiyyətli sayılan məbləğ/həcm həddi.<br>Göstərilmiş gəlir mənbələri üzrə Azərbaycan hökumətinə sıfırdan (0-dan) yuxarı məbləğdə/həcmdə daxilolmalar əhəmiyyətli sayılır" |
| | 6. Digər məsələlər | • MHŞT üzrə Katiblik ÇQ tərəfindən VI Qlobal Konfrans və Milli sərgidə iştirakla bağlı ÇQ üzvlərinə dəstək məktubu təqdim etsin.<br>• Növbəti dövr üçün MHŞT üzrə hesabatları tutuşduracaq audit şirkəti seçildikdən sonra ÇQ üzvlərinə "seçmə" üsulun tətbiq metodologiyasının təqdimatını keçirsin. Metodologiyanın təsdiq olunub-olunmaması məsələsi ÇQ-nin növbəti iclaslarında yenidən müzakirəyə çıxarılsın. |

| ÇQ iclaslarının tarixləri | Gündəlik | Qəbul edilmiş qərarlar |
|---|---|---|
| 13 fevral | 1. MHŞT üzrə 2012, 2013 və 2014-cü illəri əhatə edən hesabatları tutuşdurub təhlil edəcək audit şirkətinin seçilməsi; | • MHŞT üzrə 2012, 2013 və 2014-cü illəri əhatə edən hesabatları tutuşdurub təhlil etmək məqsədi ilə "Moore Stephens" auditor şirkəti qalib elan edilsin. |
| | 2. Digər məsələlər | • MHŞT üzrə Sidneydə keçiriləcək Milli Sərgi, 2012-ci il üzrə MHŞT-nin Azərbaycanda tətbiqi hesabatı və Azərbaycanda keçiriləcək MHŞT üzrə Beynəlxalq Konfransa dair təklif və məlumatların katibliyə bildirilməsi üçün müəyyən olunmuş son müddətlər nəzərə alınsın. |
| 15 aprel | 1. MHŞT-nin Azərbaycanda tətbiqi üzrə illik hesabat layihəsinin müzakirəsi və təsdiqi | • Katiblik iclasda səslənmiş bütün düzəliş və təklifləri nəzərə almaqla 2012-ci ildə MHŞT-nin Azərbaycanda tətbiqi üzrə illik hesabatın çap işlərinə başlasın. |
| | 2. Azərbaycanda keçiriləcək Beynəlxalq Konfrans üçün hazırlıq işlərinin müzakirəsi | • MHŞT üzrə Katiblik Azərbaycanda keçiriləcək MHŞT üzrə Beynəlxalq Konfransın ilkin qrafikini müəyyən edərək ÇQ üzvlərinə göndərsin.<br>• ÇQ üzvləri bu qrafikə uyğun olaraq 25 aprel 2013-cü il tarixinədək konfransın gündəliyinə dair təkliflərini katibliyə bildirsin. |
| | 3. MHŞT üzrə VI Qlobal Konfransa hazırlıq işlərinin müzakirəsi | • İclasda səslənən təkliflər nəzərə alınmaqla VI Qlobal Konfrans çərçivəsində keçiriləcək Milli Sərgiyə hazırlıq işləri yekunlaşdırılsın. |
| | 4. 2011 və 2012-ci illər üzrə Dövlət Sosial Müdafiə Fonduna ayırmaların müzakirəsi | • Azərbaycanda fəaliyyət göstərən neft, qaz və mədən hasilatı ilə məşğul olan yerli və xarici şirkətlər tərəfindən Dövlət Sosial Müdafiə Fonduna (DSMF) ödəmələr 2012-ci il üzrə MHŞT hesabatlarına daxil edilməsin.<br>• Növbəti ildən başlayaraq, Azərbaycanda fəaliyyət göstərən neft, qaz və mədən hasilatı ilə məşğul olan yerli və xarici şirkətlər tərəfindən DSMF-yə ödəmələr illik əsasda təhlil olunsun. |
| 10 iyun | 1. MHŞT üzrə Komissiyanın və Müstəqil Mühasiblərin hesabatlarının (2012-ci il üzrə) açıqlanması | • MHŞT üzrə Komissiyanın və Müstəqil Mühasiblərin hesabatları (2012-ci il üzrə) açıqlanmış hesab edilsin.<br>• MHŞT üzrə növbəti hesabat ilindən etibarən (2013-cü ili əhatə edən hesabatlar) 100%-lik yoxlamadan (əminliyin artırılması mərhələsi) keçəcək şirkətlərin auditor tərəfindən seçimində QHT Koalisiyasının ÇQ-dəki üzvlərinin iştirakı təmin edilsin.<br>• MHŞT üzrə Komissiyanın və Müstəqil Mühasiblərin hesabatlarının (2012-ci il üzrə) açıqlanması barədə birgə pres-reliz dərc edilsin. |
| | 2. Yeni qəbul edilmiş MHŞT Standartının və standarta keçidin müzakirəsi | • Azərbaycan yeni MHŞT Standartının tətbiqinə mümkün olan qısa zamanda başlasın.<br>• MHŞT üzrə katiblik Azərbaycanın Qiymətləndirmədən MHŞT Standartına əsasən 2015-ci ildə keçməsinə dair MHŞT üzrə Beynəlxalq Katibliyin irəli sürdüyü təklifin ÇQ tərəfindən dəstəkləndiyi barədə Beynəlxalq Katibliyə bildirsin.<br>• Yeni MHŞT Standartının Azərbaycan Respublikası Qanunvericiliyi ilə uyğunluğunun təhlili üçün ixtisaslaşmış hüquq şirkəti cəlb edilsin.<br>• Cari il sentyabr ayının əvvəllərində "Moore Stephens" audit şirkəti və Yeni MHŞT Standartının təhlili üçün cəlb ediləcək ixtisaslaşmış hüquq şirkəti tərəfindən MHŞT tərəfləri üçün yeni Standartla əlaqədar seminarlar keçirilsin. |
| | 3. Azərbaycanda keçiriləcək MHŞT üzrə Beynəlxalq Konfrans üçün hazırlıq işlərinin müzakirəsi | • Bakıda keçiriləcək MHŞT üzrə Beynəlxalq Konfransda Şirkətlər qrupunun və QHT Koalisiyasının iştirak edəcək nümayəndələrinin siyahısı koordinatorlar tərəfindən 21 iyun 2013-cü il tarixinədək MHŞT üzrə katibliyə təqdim edilsin.<br>• MHŞT üzrə katiblik Konfransın keçirilməsi üçün məkanın təşkilini təmin etsin.<br>• MHŞT üzrə katiblik iclasda səslənmiş təklifləri nəzərə alaraq, Konfransın dəvətlilərinin yekun siyahısını və dəvət məktublarının mətnini hazırlasın.<br>• ÇQ üzvləri S.Bağırov və A.Yusubov Konfransın proqramı üzrə redaktələrini edərək yekun layihə versiyanı hazırlasınlar.<br>• Bakıda keçiriləcək MHŞT üzrə Beynəlxalq Konfransın təşkilinə ixtisaslaşmış şirkət cəlb edilsin. |
| | 4. MHŞT üzrə yeni Memorandum layihəsinin müzakirəsi | • ÇQ üzvü S.Bağırov yeni Memorandumun layihə sənədini nəzərdən keçirərək müvafiq düzəlişlər edib 18 iyun 2013-cü il tarixinədək ÇQ üzvlərinə təqdim etsin.<br>• Yeni Memorandum imzalandıqdan sonra Memorandum üzrə İşçi qrupda yeni MHŞT Standartının Memoranduma inteqrasiyası üzrə işlər davam etdirilsin. |
| | 5. Digər məsələlər | • Yenilənmiş İş planı MHŞT Azərbaycanın internet səhifəsində yerləşdirilsin.<br>• Növbəti ildən etibarən İş planlarında icra tarixi intervallar şəklində göstərilsin. İş planında faktiki icra tarixlərinin qeyd olunması üçün əlavə sütun yaradılsın. |

| ÇQ iclaslarının tarixləri | Gündəlik | Qəbul edilmiş qərarlar |
|---|---|---|
| 23 sentyabr | 1. MHŞT üzrə Komissiyanın və Müstəqil Mühasiblərin hesabatlarına (2012-ci il üzrə) dair QHT Koalisiyasının rəyinin təqdimatı | • QHT Koalisiyasının MHŞT üzrə Komissiyanın 2012-ci il üzrə Hesabatı (17-ci hesabat) və Müstəqil Mühasiblərin Hesabatına dair rəyi təqdim edilmiş və müzakirə olunmuş hesab olunsun.<br>• 2012-ci il üzrə MHŞT hesabatının çapı üzrə işlər yekunlaşdırılsın. |
| | 2. Azərbaycanda keçiriləcək Beynəlxalq Konfrans üçün hazırlıq işlərinin müzakirəsi | • MHŞT üzrə Katiblik Azərbaycanda keçiriləcək MHŞT üzrə Beynəlxalq Konfransın təşkili ilə bağlı digər tamamlanmamış işləri yekunlaşdırsın. |
| | 3. Layihə Memorandumun müzakirəsi | • ÇQ üzvü Z.Fətizadə Memorandumun hazırlanması üzrə İşçi qrupun tərkibinə daxil edilsin.<br>• Bütün MHŞT tərəfləri ilə razılaşdırmaq üçün hazırlanmış yekun layihə Memorandum 21 oktyabr 2013-cü il tarixində ÇQ-yə təqdim olunsun. |
| | 4. MHŞT Standartına dair hüquqi rəyin, Standarta keçidin və növbəti Qiymətləndirmənin müzakirəsi | • Yeni MHŞT Standartının Azərbaycan qanunvericiliyi ilə uyğunluğuna dair hüquqi rəy Katiblik tərəfindən MHŞT üzrə Beynəlxalq Katibliyə göndərilsin. |
| 7 noyabr | 1. Yeni Memorandumun layihəsinin müzakirəsi | • İclasda səslənən təkliflər nəzərə alınmaqla Memorandumun təkmilləşdirilməsi üzrə işlər davam etdirilsin.<br>• Səslənmiş dəyişikliklər və əlavələri əks etdirən Memorandum layihəsi növbəti ÇQ iclasında yenidən baxılsın. |
| | 2. ÇQ-nin fəaliyyəti üzrə yeni layihə İş planının müzakirəsi | • 2014-cü il üçün ÇQ-nin MHŞT üzrə layihə İş planının müzakirəsi növbəti ÇQ iclasının gündəliyinə daxil edilsin. |
| | 3. 2012-ci il üzrə MHŞT hesabatlarının nəticələrinin TV proqramda müzakirəsi | • 2012-ci il üzrə MHŞT hesabatlarının nəticələrinin TV proqramda müzakirəsi məsələsi növbəti ÇQ iclasının gündəliyinə daxil edilsin. |
| 25 noyabr | 1. Yeni Memorandumun layihəsinin müzakirəsi | • İclasda səslənən təkliflər nəzərə alınmaqla Memorandumun təkmilləşdirilməsi üzrə işlər davam etdirilsin.<br>• Səslənmiş dəyişikliklər və əlavələri əks etdirən Memorandum layihəsi növbəti ÇQ iclasında yenidən baxılsın. |
| | 2. ÇQ-nin fəaliyyəti üzrə yeni layihə İş planının müzakirəsi | • 2014-ci il üçün ÇQ-nin MHŞT üzrə layihə İş planına dair tərəflərin rəy və təkliflərini Katibliyə bildirmək üçün son müddət 2 dekabr 2013-cü il müəyyən edilsin.<br>• 2014-cü il üçün ÇQ-nin MHŞT üzrə layihə İş planı əsas olaraq qəbul edilsin və tərəflərin rəy və təklifləri daxil edilməklə növbəti ÇQ iclasında yekun təsdiq üçün təqdim edilsin. |
| | 3. 2012-ci il üzrə MHŞT hesabatlarının nəticələrinin TV proqramda müzakirəsi | • MHŞT üzrə Katiblik Azərbaycanda MHŞT-nin tətbiqinə dair məsələlərin televiziya verilişlərinin birində aparılması ilə bağlı Azərbaycanda fəaliyyət göstərən televiziya kanallarından ikisinə müraciət məktubu göndərsin. |
| 3 dekabr | 1. ÇQ-nin fəaliyyəti üzrə yeni layihə İş planının müzakirəsi | • İclasda səslənən təkliflər nəzərə alınmaqla ÇQ-nin 2014-cü il üzrə İş planının yekun layihəsi Katiblik tərəfindən bütün ÇQ üzvlərinə göndərilsin. Üzvlərdən sənədin göndərilməsindən sonra 1 həftə ərzində heç bir təklif və ya düzəliş daxil olmadığı halda İş planı razılaşdırılmış hesab edilərək MHŞT Azərbaycanın rəsmi internet səhifəsinə yerləşdirilsin. |
| | 2. Yeni Memorandumun layihəsinin müzakirəsinin davamı | • İclasda səslənən təkliflər nəzərə alınmaqla Memorandumun təkmilləşdirilməsi üzrə işlər davam etdirilsin.<br>• 10 dekabr 2013-cü il tarixində Memorandumun yekunlaşdırılması məqsədilə ÇQ sədri Ş.Mövsümov, ÇQ üzvləri A.Yusubov, Z.Fətizadə, S.Bağırov və Koalisiyanın koordinatoru Z.İsmayıl ilə birgə görüş keçirilsin.<br>• ÇQ üzvü A.Yusubov şirkətlərin VÖEN üzrə hesabat verməyə münasibətini öyrənmək məqsədilə sorğu keçirsin və nəticələri ÇQ-yə təqdim etsin. |
| | 3. Digər məsələlər | • ÇQ-nin 2013-cü il üzrə İş planı icra olunmuş hesab edilsin. |

# Əlavə 3

**2013-cü ildə MHŞT-nin Azərbaycanda tətbiqinin MHŞT Qaydalarının və MHŞT Standartının tələblərinə uyğun qiymətləndirməsi**

2013-cü il MHŞT-ni tətbiq edən bir çox ölkələrdə olduğu kimi, Azərbaycanda da MHŞT-nin həyata keçirilməsində yenilik və dəyişikliklərlə yadda qalmışdır. Belə ki, ölkəmiz 2013-cü il üzrə hesabatlılığı MHŞT Qaydalarına əsasən həyata keçirmişdir və gələcək fəaliyyətlərin ilin ortalarında qəbul edilmiş MHŞT Standartının (MHŞT Qaydalarını əvəz edən yenilənmiş tənzimləyici sənəd) tələblərinə uyğun planlaşdırılmasına başlamışdır.

Azərbaycan 2013-cü il üzrə MHŞT fəaliyyətini MHŞT Qaydalarının bütün tələblərinə tam cavab verməklə qurmuşdur. Ötən il ölkəmiz həm də yeni Standarta keçən ilk ölkələrdən olmuşdur və 2015-ci ildə Qiymətləndirmədən yeni Standarta uyğun keçəcəkdir. Bunları nəzərə alaraq, 2013-cü il üzrə MHŞT tətbiqinin və hesabatlılığın qiymətləndirməsi həm MHŞT Qaydalarının, həm MHŞT Standartının ayrı-ayrı tələbləri üzrə aparılmışdır. (Cədvəl 1 və 2)

| MHŞT Qaydalarının tələbləri | Azərbaycanın tələblər üzrə əldə etdiyi proqres |
|---|---|
| 1. Hökumət MHŞT-ni tətbiq etmək niyyəti haqqında birmənalı bəyanat verməlidir. | + |
| 2. Hökumət MHŞT-nin tətbiqi zamanı vətəndaş cəmiyyəti və şirkətlər ilə işləmək öhdəliyini öz üzərinə götürməlidir. | + |
| 3. Hökumət MHŞT-nin tətbiqinə rəhbərlik etmək üçün vəzifəli şəxs təyin etməlidir. | + |
| 4. Hökumət MHŞT-nin tətbiqinə nəzarət etmək üçün çoxtərəfli qrup yaratmalıdır. | + |
| 5. Hökumət ölçülə bilən hədəflər, icra qrafiki və imkanları məhdudlaşdıran faktorların (hökumət, özəl sektor və vətəndaş cəmiyyəti tərəfindən) qiymətləndirilməsini özündə ehtiva edən, tələb olunan xərcləri tam olaraq hesablanmış iş planı dərc etməli və geniş şəkildə yaymalıdır. | + |
| 6. Hökumət vətəndaş cəmiyyətinin bu prosesdə tam, müstəqil, fəal və səmərəli iştirakını təmin etməlidir. | + |
| 7. Hökumət MHŞT-nin tətbiqində şirkətlərin iştirakını təmin etməlidir. | + |
| 8. Hökumət MHŞT-nin tətbiqinə çətinlik yaradan bütün maneələri aradan qaldırmalıdır. | + |
| 9. Çoxtərəfli qrup “əhəmiyyətlilik” anlayışı və hesabat formalarını razılaşdırmalıdır. | + |
| 10. Məlumatların tutuşdurulması üzrə MHŞT-nin hesabatlarını dərc edəcək təşkilat coxtərəfli qrup tərəfindən nüfuzlu, etibarlı və texniki baxımından səlahiyyətli kimi tanınmalıdır. | + |
| 11. Hökumət bütün müvafiq şirkətlər və dövlət qurumları tərəfindən hesabat verilməsini təmin etməlidir. | + |
| 12. Hökumət şirkətlərin hesabatlarının beynəlxalq standartlara müvafiq audit yoxlamasından keçmiş göstəricilərə əsaslanmış olmasını təmin etməlidir. | + |
| 13. Hökumət hökumətin hesabatlarının beynəlxalq standartlara müvafiq olaraq audit yoxlamasından keçmiş hesablara əsaslanmış olmasını təmin etməlidir. | + |
| 14. Şirkətlər bütün daxilolmalar barədə məlumatları razılaşdırılmış hesabat formalarına uyğun ətraflı açıqlamalıdır. | + |
| 15. Hökumət müəssisələri bütün maddi gəlirləri barədə məlumatı razılaşdırılmış hesabat formalarına uyğun ətraflı açıqlamalıdır. | + |
| 16. Çoxtərəfli qrup şirkətlər və hökumət tərəfindən açıqlanan rəqəmləri tutuşdurmaq üçün cəlb edilmiş təşkilatın bu işi qənaətbəxş şəkildə yerinə yetirməsi müstəvisindən qiymətləndirməlidir. | + |
| 17. Rəqəmləri tutuşdurmaq üçün cəlb edilmiş təşkilat MHŞT hesabatının dolğun olmasını, bütün uyğunsuzluqların müəyyən edilməsini, mümkün olduqda bu uyğunsuzluqların izah edilməsini, lazımi məqamlarda islahedici tədbirlərin görülməsinə dair tövsiyələr verilməsini təmin etməlidir. | + |
| 18. Hökumət və çoxtərəfli qrup MHŞT hesabatını hamı üçün açıq, tam və anlaşıqlı şəkildə açıqlamalıdır ki, onun nəticələri ictimai müzakirələrə zəmin yaratsın. | + |
| 19. Neft, qaz və mədən sənayesi sahələrində fəaliyyət göstərən şirkətlər MHŞT-nin tətbiqini dəstəkləməlidir. | + |
| 20. Hökumət və çoxtərəfli qrup öyrənilmiş dərslərə müfaviq fəaliyyət göstərməli, ziddiyyətləri araşdırmalı və MHŞT-nin tətbiqinin davamlılığını təmin etməlidir. Tətbiq edən ölkələr İdarə Heyətinin müəyyən etdiyi son müddətlərdə Qiymətləndirmə hesabatlarını təqdim etməlidir. | + |
| 21. Tamhüquqlu Üzv Statusunda olan ölkələr həmin statusunun saxlanılması üçün yuxarıda göstərilmiş bütün tələbləri yerinə yetirməlidirlər. | + |

## Cədvəl 2

| MHŞT Standartının tələbləri | Azərbaycanın bəndlər üzrə əldə etdiyi proqres |
|---|---|
| **1. MHŞT-nin tələbinə əsasən, Çoxtərəfli qrup səmərəli nəzarəti təmin etməlidir.** | |
| Hökumətdən MHŞT-ni tətbiq etmək niyyətinə dair birmənalı ictimai bəyanat vermək tələb olunur. | + |
| Hökumətdən MHŞT-nin tətbiq edilməsi üçün yüksək vəzifəli rəhbər şəxsi təyin etmək tələb olunur. | + |
| Hökumətdən vətəndaş cəmiyyəti və şirkətlərlə işləmək və MHŞT-nin tətbiqinə nəzarət etmək üçün Çoxtərəfli qrup təşkil etmək tələb olunur. | + |
| Çoxtərəfli qrupdan xərcləri (smetası) tam müəyyən edilmiş və MHŞT üzrə İdarə Heyətinin hesabatvermə və Qiymətləndirmə üzrə təyin etdiyi son tarixlərlə uyğunlaşdırılmış cari iş planı tələb olunur. | + |
| **2. MHŞT hesabatların vaxtlı-vaxtında nəşr olunmasını tələb edir.** | |
| Tətbiq edən ölkələrdən ilk MHŞT Hesabatını MHŞT Namizədi kimi qəbul edildikdən sonra 18 ay ərzində hazırlamaq tələb olunur. Bundan sonra tətbiq edən ölkələrdən hər il MHŞT Hesabatı hazırlamaq tələb olunacaq. | + |
| MHŞT Hesabatları sonuncudan əvvəlki hesabat ilindən gec olmayan dövrü əhatə etməlidir, yəni 2014-cü il təqvim / maliyyə ilində nəşr edilmiş MHŞT Hesabatı 2012-ci təqvim / maliyyə ilindən əvvəlki yox, sonrakı məlumatlara əsaslanmalıdır. Çoxtərəfli qruplar MHŞT Hesabatlarını mümkün qədər tez nəşr etməyə səy göstərməlidirlər.<br>MHŞT Hesabatı xeyli gecikdirildiyi hallarda, Çoxtərəfli qrup MHŞT Hesabatlarının aralıq hesabat müddətləri üçün də verildiyini təmin etmək məqsədi ilə tədbir görməlidir ki, hər bir il hesabat çərçivəsində əhatə edilsin. | + |
| Çoxtərəfli qrupdan MHŞT Hesabatı ilə əhatə edilən hesabat müddətinin razılaşdırılması tələb olunur. | + |
| **3. MHŞT-nin bu tələbinə əsasən, MHŞT Hesabatları mineral ehtiyatların hasilatı ilə məşğul olan sənaye sahələrinə dair kontekstual məlumatı ehtiva etməlidir.** | |
| Kontekstual məlumatın tərtibi | * |
| MHŞT Hesabatı mineral ehtiyatların hasilatı ilə məşğul olan sənayeləri tənzimləyən hüquqi konsepsiyanı və maliyyə rejimini təsvir etməlidir. | * |
| MHŞT Hesabatları mineral ehtiyatların hasilatı ilə məşğul olan sənayelərin, həmçinin hər hansı diqqətəlayiq kəşfiyyat işlərinin icmalını verməlidir. | * |
| MHŞT Hesabatları hesabatın əhatə etdiyi maliyyə ili ərzində mineral ehtiyatların hasilatı ilə məşğul olan sənayelərin iqtisadiyyata töhfəsi (mümkün hallarda) barədə məlumatı açıqlamalıdır. | * |
| MHŞT Hesabatı əhatə etdiyi maliyyə ili üçün aşağıdakılar daxil olmaqla hasilat məlumatlarını açıqlamalıdır:<br>1. Ümumi hasilat həcmləri və məhsul və müvafiq hallarda ştat/bölgə üzrə hasilatın dəyəri.<br>2. Ümumi ixrac həcmləri və məhsul və müvafiq hallarda ştat/bölgə üzrə ixracın dəyəri. | * |
| Dövlətin mineral ehtiyatların hasilatı ilə məşğul olan sənayelərdə iştirakı əhəmiyyətli gəlir ödənişlərinin artmasına səbəb olursa, MHŞT Hesabatı aşağıdakıları ehtiva etməlidir:<br>1. hökumət və dövlət təşkilatları (DT) arasında maliyyə münasibəti ilə ələqədar üstünlük təşkil edən qayda və təcrübələrin izahatı<br>2. dövlət təşkilatlarının sosial xidmətlər, ictimai infrastruktur, yanacaq subsidiyaları və dövlət borcunun ödənilməsi kimi kvazi-fiskal xərclərinin açıqlanması.<br>3. Hökumətin və dövlət təşkilatlarının ölkənin neft, qaz və mədən sektorunda fəaliyyət göstərən dağ-mədən, neft və qaz şirkətlərində, o cümlədən dövlət təşkilatlarının tabe şirkətlərində və birgə müəssisələrində olan benefisiar sahibliyi səviyyəsinin dəyişməsi, eləcə də sahiblik səviyyəsinin hesabat dövrü ərzində dəyişməsi ilə bağlı açıqlamalar. | * |
| MHŞT Hesabatı mineral ehtiyatların hasilatı ilə məşğul olan sənaye sahələrindən daxil olan gəlirlərin bölüşdürülməsini təsvir etməlidir. | * |
| Çoxtərəfli qrup MHŞT Hesabatına gəlirlərin idarə edilməsi və xərclər barədə əlavə məlumatın daxil edilməsinə həvəsləndirilir. | * |
| Lisenziyaların qeydiyyatı | * |
| Lisenziyaların təyinatı | * |
| Benefisiar sahibliyi | * |
| Müqavilələr | * |

| MHŞT Standartının tələbləri | Azərbaycanın bəndlər üzrə əldə etdiyi proqres |
|---|---|
| **4. MHŞT mineral ehtiyatların hasilatı ilə məşğul olan sənaye gəlirləri barədə məlumatların hökumət tərəfindən tam açıqlanmasını və neft, qaz və mədən şirkətlərinin dövlətə köçürdüyü əhəmiyyətli ödənişlərin açıqlanmasını ehtiva edən hərtərəfli MHŞT Hesabatlarının hazırlanmasını tələb edir.** | |
| MHŞT Hesabatında əhatə ediləcək vergi və gəlirlərin müəyyənləşdirilməsi | + |
| Dövlətin hasilat payının satılması və ya digər qeyri-maddi (naturada) gəlirlər | * |
| İnfrastrukturun təchizi və barter razılaşmaları | * |
| Sosial xərclər | * |
| Nəqletmə | + |
| Hansı şirkətin və hökumət müəssisəsinin hesabat verməsinin müəyyənləşdirilməsi | + |
| **5. MHŞT beynəlxalq standartların tətbiqi üzrə etibarlı zəmanət prosesinin olmasını tələb edir.** | |
| Müstəqil inzibatçının təyin edilməsi | + |
| Müstəqil inzibatçının Şərtlər ToplusuŞərtlər Toplusunun razılaşdırılması | + |
| Müstəqil inzibatçı tərəfindən qiymətləndirmə və tövsiyələr | + |
| Çoxtərəfli qrup MHŞT Hesabatını nəşrdən əvvəl təsdiqləməlidir | * |
| **6. MHŞT tələb edir ki, MHŞT Hesabatları hərtərəfli olsun, fəal təbliğ edilsin və ictimaiyyət üçün açıq olmaqla yanaşı, ictimai müzakirələrə öz töhfəsini versin.** | |
| Çoxtərəfli qrup MHŞT Hesabatının hərtərəfli olmasını, fəal təbliğ edilməsini və ictimaiyyət üçün açıq olmaqla yanaşı, ictimai müzakirələrə də töhfə verməsini təmin etməlidir. | + |
| Çoxtərəfli qrupa tövsiyə olunur ki, MHŞT Hesabatlarını kompüterdə oxuna bilən formatda hazırlasın və MHŞT Hesabatlarını, o cümlədən məlumat faylları-nı ictimaiyyətə açıqlanmış digər məlumatla müqayisə oluna biləcək şəkildə kodlaşdırsın və ya işarələsin. | * |
| **7. MHŞT Çoxtərəfli qrupdan tələb edir ki, Çoxtərəfli qrup əldə olunan təcrübə əsasında fəaliyyət üçün tədbirlər görsün və MHŞT-nin tətbiqinin nəticə və təsirlərini nəzərdən keçirsin.** | |
| Çoxtərəfli qrupdan tələb olunur ki, o, əldə edilmiş təcrübə əsasında fəaliyyət üçün tədbirlər görsün, hər hansı uyğunsuzluq halını aşkarlayaraq təhqiq və həll etsin, o cümlədən Müstəqil inzibatçının təkmilləşdirmə ilə bağlı tövsiyələrini nəzərdən keçirsin. | + |
| Çoxtərəfli qrupdan təbii ehtiyatların idarə edilməsi ilə bağlı MHŞT-nin tətbiqinin nəticə və təsirlərini nəzərdən keçirmək tələb olunur. | + |

* 2013-cü ilin ortalarından etibarən başlamış və 2014-cü ilboyu davam edəcək MHŞT Standartına tam keçid prosesində tələb tam ödəniləcəkdir.

# Əlavə 4

**MHŞT üzrə Katibliyin 2013-cü il üzrə xərcləri**

| | |
|---|---|
| MHŞT - Mətbəə | 29,709.14 |
| MHŞT - Ezam | 11,003.50 |
| MHŞT - Audit | 37,323.40 |
| MHŞT - Konfrans | 12,041.26 |
| **Cəmi** | **90,077.30** |

# Əlavə 5

**Azərbaycan MHŞT-də iştirak edən qeyri-hökumət təşkilatları**

1. Azad İqtisadiyyata Yardım İctimai Birliyi
2. Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası
3. “Ahıl Ziyalılara Qayğı” İctimai Birliyi
4. “Aran” İnsan Hüquqları Resurs Mərkəzi (Şirvan)
5. Gəncə Usaq Fondu
6. Regional İnsan Hüquqları və Media Mərkəzi (Bərdə)
7. İslam, Demokratiya və İnsan Haqları Mərkəzi
8. “Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı” İctimai Birliyi
9. Vətəndaş Təşəbbüslərinə Dəstək Mərkəzi
10. “Helsinki Vətəndaş Assambleyası Azərbaycan Milli Komitəsi Qərb Regionu üzrə nümayəndəliyi “
11. Müasir İnkişaf və Hüquqi Yardım Mərkəzi
12. Təhsil Tədqiqatları Mərkəzi
13. “Region” Beynəlxalq Analitik Mərkəz
14. Neftçilərin Hüquqlarını Müdafiə Təşkilatı
15. Demokratik İslahatçı Gənclər İctimai Birliyi
16. Regional İnsan Hüquqları və Sosial Araşdırmalar Mərkəzi”
17. İqtisadi Tədqiqatlar Mərkəzi
18. “Gənclərin Sosial-Mədəni İnkişafına Yardım” İctimai Birliyi
19. Eko- Aləm İctimai Birliyi
20. Vətəndaş Təşəbbüsləri və Qanunların Təkmilləşdirilməsi Mərkəzi
21. İnsan Hüquqları və Maarifçilik İctimai Birliyi
22. İsgəncələr Əlehinə Araşdırmalar Mərkəzi
23. İnsan Hüquqları və Qanunların Təbliği
24. Seçki Tədqiqatları Mərkəzi
25. Demokratik Təsisatlar və İnsan Hüquqlari İctimai Birliyi
26. Qadın Problemlərinin Tədqiqatları Mərkəzi

27. Azərbaycan İnsan Hüqüq və Azadlıqların Müdafiəsi Komitəsi
28. Mina Qurbanlarının Sosial-İqtisadi Probelmlərinin Həllinə Kömək İctimai Birliyi
29. Regional İnkişaf və İnsan Hüquqları İctimai Birliyi
30. Neftçilərə Hüquqi Yardım Mərkəzi
31. "Sağlam həyata doğru" Ekoloji İctimai Birliyi
32. İqtisadi Resursların Öyrənilməsi Mərkəzi
33. Qafqaz Media Tədqiqatlar Mərkəzi
34. "Gənclər Klubu" İctimai Birliyi
35. Sosial Strateji tədqiqatlar və Analitik Araşdırmalar İctimai Birliyi
36. Regional Qadın Təşəbbüsləri İctimai Birliyi
37. Demokratiya və QHT-nin İnkişaf Resurs Mərkəzi
38. Demokratik İslahatlar Uğrunda Cəmiyyət
39. Demokartik Təşəbbüslər və Sosial İnkişaf İctimai Birliyi
40. Vətəndaş Cəmiyyəti İnstitutu İctimai Birliyi
41. "Tərəqqi" Sosial İnkişaf İctimai Birliyi
42. Regional Gender Mərkəzi
43. İnkişafa Baxış Araşdırma Mərkəzi
44. "Konsitusiya" Araşdırmalar Fondu
45. Qarabağ Əlillərinə Qayğı Cəmiyyəti
46. Mülki Cəmiyyət üçün Hüquq Təşəbbüsü Mərkəzi
47. "Ulduz" Elektron Təşkilatı
48. "Zəngilan" İctimai Birliyi
49. Mədən Sənayesində İnsan Hüquqları İctimai Birliyi
50. Yol İnşaat Monitorinq Mərkəzi
51. Elektron Seçki İctimai Birliyi
52. Qafqaz Beynəlxalq Münasibətlər və Strateji Araşdırmalar Mərkəzi – QAFSAM
53. "ELS" Müstəqil Araşdırmalar Mərkəzi
54. Azərbaycan Azad Müəllimlər Birliyi
55. Azərbaycan Qadınlarının Siyasi Mədəniyyət Mərkəzi
56. Ekoloji-Renesans İctimai Birliyi
57. Regional İnsan Hüquqları və Maarifləndirmə Mərkəzi (Kürdəmir)
58. Gənc Nəslin Maarifləndirilməsi İctimai Birliyi
59. Müasir Qadın və Cəmiyyət İctimai Birliyi
60. İqtisadi Təşəbbüslərə Yardım İctimai Birliyi
61. "Qadınlar Arasında Həmrəylik" İctimai Birliyi
62. Rəqəmsal İnkişaf İctimai Birliyi
63. İqtisadi İnnovasiya Mərkəzi
64. Gənc Şairlərə Dəstək İctimai Birliyi
65. "Xilaskar" İctimai Birliyi
66. "Tərəqqi" Sosial Tədqiqatlar İctimai Birliyi
67. "Doğma Yurda Qayıdış" İctimai Birliyi
68. "Gen Mühəndisliyi ilə bağlı Maarifləndirmə" İctimai Birliyi
69. İqtisadi və Sosial Maarifləndirmə Mərkəzi
70. Jurnalist Təşəbbüsləri Mərkəzi
71. İqtisadi və Sosial İnkişaf Mərkəzi
72. "İnsan Haqları - 2003" İctimai Birliyi
73. Demokratik İnkişaf Platforması
74. Bərabər İmkanlar Mərkəzi
75. "Gələcəyə İnam" Ehtiyacı Olan İnsanlara Qayğı İctimai Birliyi
76. Mədəniyyətlərin Təbliği və Xalq Yaradıcılığına Dəstək İctimai Birliyi

77. Demokratiya və Qadın Təşəbbüsləri İctimai Birliyi
78. Regional "Qarabağ" Kənd Təsərrüfatı Assosiasiyası
79. "Bilik və Maarifçiliyin İnkişafı" İctimai Birliyi (Gəncə)
80. "Hüquq Dünyası" Hüquqi Təbliğat İctimai Birliyi
81. Multimediya Mərkəzi
82. Gənclərin Elmi İnkişafına Dəstək İctimai Birliyi
83. İqtisadi və Siyasi Araşdırmalar Mərkəzi
84. İctimai Vəsaitlərin Monitorinqi Mərkəzi
85. Neft Araşdırmalar Mərkəzi
86. Humanitar Tədqiqatlar Mərkəzi
87. Jurnalistlərin İqtisadi və Hüquqi Maarifləndirmə Mərkəzi
88. Demokratiya Monitoru İctimai Birliyi
89. Qarabağ Döyüşçüləri Assosiasiyası
90. Hüquq Təşəbbüsləri Mərkəzi
91. "Güzəran" Sosial Araşdırmalar Mərkəzi
92. Muğan İnsan Hüquqlarının Müdafiəsi İctimai Birliyi
93. Demokratik İnkişaf və İqtisadi Əməkdaşlıq İctimai Birliyi
94. "Aran" Ekoloji Maarifləndirmə İctimai Birliyi
95. Demokratik Dəyərləri Müdafiə Fondu
96. "Dalğa" Ekologiya və Təbiətin Qorunması İctimai Birliyi
97. "Ekoloq" Ətraf Mühitin Qorunmasina Yardım İctimai Birliyi
98. Xalça Dünyası Assosiasiyası (Quba)
99. "Qadın Dünyası" İctimai Birliyi
100. "Demokratik Cəmiyyət, Seçkilər və Mətbuatın Monitorinqi İctimai Birliyi"
101. Aqrar Sənaye Mühəndisləri İctimai Birliyi
102. İqtisadi və Ekoloji Araşdırmalar Mərkəzi
103. Demokratik İslahatlar Mərkəzi
104. Regional Maarifləndirmə İctimai Birliyi
105. "Məşəl" Əlil və Şəhid Ailələrinin Sosial Dəstək İctimai Birliyi
106. Sosial Təşəbbüslər və İnsan Hüquqları İctimai Birliyi
107. Demokratiya və Ekoloji Tarazlıq İctimai Birliyi
108. Sağlam İnkişaf və Maarifləndirmə İctimai Birliyi
109. Hüquqi Yardım İctimai Birliyi (Lənkaran)
110. Eko - Həyat İctimai Birliyi

**Fiziki şəxslər**

1. Hicran Həmidova
2. Arzu Soltan
3. Şamil Mövsümov
4. Elmidar Əliyev
5. Dünya Sakit
6. Fuad Rəsulov
7. Sədaqət Paşayeva
8. Süheylə Cəfərova

# Əlavə 6

**Azərbaycan MHŞT-də iştirak edən şirkətlər**

1. BP Eksploreyşn (Kaspian Sea) Limited
2. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti
3. Total E&P Azərbaycan B.V.
4. ITOÇU Oyl Eksploreyşn (Azərbaycan) Inc.
5. Statoil
6. Turkiye petrolleri  A.O. (TPAO)
7. Komonvels Qobustan
8. Ekson Azərbaycan Limited
9. Hess (ACG) Limited
10. Lukoil Oversiz
11. Şevron Xəzər LTD
12. Petro-HongKong-Pirsaat Oyl LTD
13. Salyan Oil Limited
14. Karasu Əməliyyat Şirkəti
15. GDF SUEZ E and P ABSHERON B. V.
16. Azgerneft BM
17. İnpeks Southwest Caspian Sea LTD
18. Binəqədi Oil Əməliyyat Şirkəti
19. NOVATİS OIL FZE
20. Naftiran İntertrade Co LTD (NİCO)
21. Abşeron İnvestments Ltd
22. Şirvan Əməliyyat Şirkəti
23. Neftçala Əməliyyat Şirkəti
24. Azərbaycan International Mayninq Kompani (AİMC)
25. Bahar Enerji
26. UQE-LANSER PTİ. LTD

# Azərbaycan Respublikası Hökumətinin mədən hasilatı sənayesində əldə etdiyi məcmu daxilolmaları barədə hesabat

**Hesabat dövrü: 1 yanvar – 31 dekabr 2013-cü il**

| | | DƏYƏR * | | HƏCM (naturada) | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | milyon ABŞ dolları | milyon Azərbaycan manatı | neft (milyon barel) | qaz (min kub metr) | qızıl (min unsiya) | gümüş (min unsiya) | əlvan metallar (min ton) | mis konsentratında: Qızıl (min unsiya) | mis konsentratında: Gümüş (min unsiya) |
| 1 | | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| **1.Ərazisində fəaliyyət göstərdiyi ölkə hökumətinə xarici şirkətlərdən daxilolmalar** | | | | | | | | | | |
| 1.1 | Neft | 62,725 | | 157,130 | | | | | | |
| 1.2. | Təbii qaz | 383,841 | | | 13351,813 | | | | | |
| 1.3. | Səmt qaz | | | | 2310248,029 | | | | | |
| 1.4. | Əlvan metallar: mis | | | | | | | 0,107 | | |
| 1.5 | Qızıl* | | | | | 6,715 | | | | |
| 1.6 | Gümüş* | | | | | | 2,601 | | | |
| 1.7 | Hökümətə digər ödənişlər,cəmi,o cümlədən: | | | | | | | | | |
| | 1.7.1mis konsentratıında qızıl | | | | | | | | 0,022 | |
| | 1.7.2. mis konsentrantında gümüş | | | | | | | | | 21,136 |
| **2. Hökumətin yerli şirkətlərdən daxilolmaları. Yerli şirkətlərin hasilatında dövlətə məxsus pay** | | | | | | | | | | |
| 2.1. | Neft | | | | | | | | | |
| 2.2. | Təbii qaz | | | | | | | | | |
| 2.3. | Səmt qaz | | | | | | | | | |
| 2.4. | Əsas metallar | | | | | | | | | |
| 2.5. | Qızıl | | | | | | | | | |
| 2.6 | Gümüş | | | | | | | | | |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **3. Hökumətin xarici şirkətlərdən digər daxilolmaları (yerli dövlət şirkəti vasitəsilə toplanmış ödənişlər daxil olmaqla)** | | | | | | | | | | |
| 3.1. | Royalti (mədən vergisi) | | | | | | | | | |
| 3.2. | Mənfəət vergisi | | 1476,344 | | | | | | | |
| 3.3. | Digər vergilər (fiziki şəxslərin gəlir vergisi, sosial və ödəmə mənbəyindən tutulan vergilər istisna olmaqla) | | | | | | | | | |
| 3.4. | İmzalanma bonusları və digər bonuslar | 2,359 | | | | | | | | |
| 3.5. | Lisenziya və konsessiya haqları | | | | | | | | | |
| 3.6. | Hökumətə digər ödənişlər, cəmi, o cümlədən: | | | | | | | | | |
| | 3.6.1. akrhesabı ödənişlər | 2,335 | | | | | | | | |
| | 3.6.2. tranzit haqqı | 10,278 | | | | | | | | |
| | 3.6.3. qazın satışı üzrə müqavilə qiymətində edilmiş dəyişiklik nəticəsində yaranmış fərqdən daxilolmalar | | | | | | | | | |
| **4. Hökumətin yerli şirkətlərdən digər daxilolmalar** | | | | | | | | | | |
| 4.1 | Vergilər: | | | | | | | | | |
| | 4.1.1. Royalti (mədən vergisi) | | 119,342 | | | | | | | |
| | 4.1.2. Mənfəət vergisi | | 15,809 | | | | | | | |
| | 4.1.3. Əlavə dəyər vergisi | | 108,633 | | | | | | | |
| | 4.1.4. Torpaq vergisi | | 10,018 | | | | | | | |
| | 4.1.5. Əmlak vergisi | | 38,128 | | | | | | | |
| | 4.1.6. Qiymət fərqi | | 369,867 | | | | | | | |
| | 4.1.7. Sair vergilər (fiziki şəxslərin gəlir vergisi, Dövlət Sosial Müdafiə Fonduna ayırmalar və ödəmə mənbəyindən tutulan vergilər istisna olmaqla) | | 2,630 | | | | | | | |
| 4.2. | İmzalanma bonusları və digər bonuslar | | | | | | | | | |
| 4.3. | Lisenziya və konsessiya haqları | | | | | | | | | |
| 4.4. | Hökumətə digər ödənişlər, cəmi, o cümlədən: | | | | | | | | | |
| | | **ABŞ dolları (milyon)** | **Azərbaycanmanatı (milyon)** | **neft (milyon barel)** | **qaz (min kub metr)** | **qızıl (min unsiya)** | **gümüş (min unsiya)** | **əlvan metallar (min ton)** | **mis konsentrantında qızıl (min unsiya)** | **mis konsentrantına gümüş (min unsiya)** |
| **Cəmi:** | | **461,538** | **2140,771** | **157,130** | **2323599,842** | **6,715** | **2,601** | **0,107** | **0,022** | **21,136** |

MOORE STEPHENS
AZERBAIJAN

Azərbaycan Respublikası

# 31 Dekabr 2013-cü il tarixində bitən il üzrə MHŞT hesabatı

16 İyul 2015-ci il

# Müstəqil administratorun hesabatı

**Azərbaycan Respublikası MHŞT üzrə Komissiyaya:**

Biz, MHŞT üzrə Komissiyanın ("Komissiya") bəyannaməsinin (bax: Əlavə 1) yoxlamasını həyata keçirərək müəyyən etdik ki, 31 dekabr 2013–cü il tarixində başa çatan il ərzində Azərbaycan Respublikası Hökumətinin ("Hökumət") mineral ehtiyatların hasilatı ilə məşğul olan şirkətlərdən ("Şirkətlər") aldığı ödənişlərin/ayırmaların cədvəli MHŞT üzrə Komissiya, Azərbaycan Respublikasında mineral ehtiyatların hasilatı sahəsində çalışan yerli və xarici şirkətlər (bax Əlavə 2) və qeyri-hökumət təşkilatları və fiziki şəxslərin daxil olduğu Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası (bax: Əlavə 5) Qarşılıqlı Anlaşma Memorandumuna ("QAM") uyğun olaraq hazırlanmışdır. Azərbaycan Respublikasının MHŞT üzrə Komissiyası bəyannaməyə görə cavabdehdir. Bizim cavabdehliyimiz yoxlama əsasında Bəyannamə üzrə rəy ifadə etməkdir.

Aşağıdakı paraqrafda qeyd olunanlar istisna olmaqla, biz yoxlamanı Əminlik Yoxlamaları üzrə Beynəlxalq Audit Standartlarına uyğun olaraq aparmışıq və müvafiq olaraq Komissiyanın Bəyannaməsini təsdiq edən sübutların test üsulu ilə yoxlamasını və bizim şərtlərdə vacib hesab etdiyimiz bu kimi başqa prosedurları həyata keçirmişik. İnanırıq ki, yoxlamamız rəyimizin əsaslı olmasını təmin edir.

Komissiya Bəyannaməsini yoxlamaq üçün əldə olunan məlumat QAM–ın üzvü olan Şirkətlərin yazılı ərizələrindən və Hökumətin aldığı ödənişlər/ayırmalara dair Komissiya tərəfindən təqdim edilən təfsilatlı hesabatlardan ibarət olmuşdur. Bizim yoxlamamız Hökumətin aldığı bütün ödənişləri/ayırmaları və Şirkətlərin etdiyi bütün ödənişləri/ayırmaları əhatə etməyib. Əgər Şirkətlər ödənişlər/ayırmalar həyata keçiribsə, lakin bu öz əksini nə Hökumətin, nə də Şirkətin təqdimatında tapmayıbsa, bizim yoxlamamız onları aşkar etmək üçün yetərli deyildir.

**İcra olunmuş işin xülasəsi**

Komissiyanın Hesabatını (Əlavə 1) yoxlamaq üçün biz 31 dekabr 2013–cü il tarixində başa çatan il ərzində Hökumətin aldığı ödənişlərin/ayırmaların cədvəlinin (bax "Hökumətin cədvəli") QAM üzvü olan Şirkətlər tərəfindən hazırlanmış və Əlavə 2-də verilmiş cədvəllərlə ("Şirkətlər cədvəli") müqayisəsini aparmışıq. Yuxarıdakı cədvəllər arasındakı fərqlərin səbəblərini müəyyənləşdirmək üçün biz şəraitin tələb etdiyi zəruri prosedurları həyata keçirmişik. Biz üzləşmə (yaxud tutuşdurma) prosesinə cəlb olunan əməliyyatlar barədə əsaslı əminlik əldə etmək üçün müəyyən attestasiya prosedurlarını həyata keçirdik. Biz bir neçə hasilat şirkətləri üzrə əminlik prosedurlarını tətbiq etdik.

# Müstəqil administratorun rəyi

Azərbaycan MHŞT Komissiyasının Hesabatına müşayiəti ilə Komissiyasının Bəyannaməsi yuxarıda qeyd olunan tələblərə uyğun olaraq 31 dekabr 2013–cü il üzrə Şirkətlər tərəfindən edilmiş bütün ödənişlərin/ayırmaların və Hökumət tərəfindən qəbul olunan bütün ödənişlərin/ayırmaların yoxlamasını apardığımız zaman edilməsi zəruri olan hər hansı mümkün düzəlişlər (əgər olmuşsa) istisna olmaqla, bu hesabatda öz əksini tapmışdır.

16 iyul 2015–ci il

# 1. İcmal

## 1.1. Ümumi məlumat

MHŞT neft, qaz və mineral ehtiyatlarla zəngin olan ölkələrdə şirkətlərin hökumətə təqdim etdiyi ödənişlər və hökumətin daxilolmaları sahəsində şəffaflıq və hesabatlılığın təmin edilməsinə yönəldilmiş bir təşəbbüsdür. MHŞT şirkətlər, hökumətlər, sərmayəçilər və vətəndaş cəmiyyəti təşkilatları tərəfindən dəstəklənən könüllü təşəbbüsdür. Dövlət büdcəsində şəffaflığın təmin edilməsi sahəsində digər cəhdlərlə yanaşı MHŞT, həmçinin vətəndaşların öz hökumətlərindən büdcə gəlirlərinə dair açıqlama verməsinə nail olduğu bir prosesdir.

Azərbaycan MHŞT-yə 2003-cü ildə qoşulmuş və Təşəbbüsün icrası ilə bağlı pilot ölkə olmağa könüllü olmuşdur. Azərbaycan hasilat sənayesi şirkətləri tərəfindən dövlətə edilən ödənişlərin və dövlət tərəfindən bu daxilolmaların açıqlanması, tutuşdurulması və dərc edilməsi ilə bağlı müntəzəm proses təsis etmişdir. Azərbaycanda birinci MHŞT hesabatı 2005–ci ildə dərc edilmişdir. Cari hesabat sayca 18–ci hesabat olmaqla, 31 dekabr 2013–cü ildə bitən ili əhatə edir.

2007–ci il 27 sentyabr tarixində Azərbaycan "MHŞT Namizədi" kimi qəbul edilmiş və 2009–cu ilin fevral ayında "MHŞT üzrə tam hüquqlu üzv" statusunu almışdır.

2013–cü ildə MHŞT–nin Azərbaycanda icrası əsas etibarilə təşəbbüsün və MHŞT hesabatlarının yeni MHŞT Standartına uyğun olaraq ölkədə icrası üzərində qurularaq hesabatların əhali üçün oxunaqlılığı və müfəssəlliyinin artırılması, MHŞT haqqında məlumatlılığın artırılması, dövlət, vətəndaş cəmiyyəti və şirkətlər arasında effektiv dialoqun təmin edilməsinə yönəlmişdir.

## 1.2. İşin məzmunu

Müstəqil Administratorun məqsədi 31 dekabr 2013–cü bitən il üzrə hasilat şirkətləri tərəfindən Hökumətə edilmiş ödənişləri/ayırmaları və Hökumət tərəfindən qəbul edilmiş ödənişləri/ayırmaları yığılması, yoxlanılması və üzləşdirməsindən ibarətdir.

2013–cü ili əhatə edən MHŞT hesabatı yeni MHŞT Standartına uyğun olaraq hazırlanmalı və bununla əlaqədar olaraq Müstəqil Administratordan yeni standartlara uyğun olan kontekstual məlumatın hazırlanması tələb edilmişdir.

İşin icrası ÇQ-də öz təsdiqini tapmış ŞT-yə uyğun olaraq yerinə yetirilmişdir və aşağıdakı əsas mərhələlərdən keçmişdir:

- Hesabat formalarının birbaşa iştirakçı şirkətlər və Komissiyadan alınması;
- Şirkətlərdən və Komissiyadan yığılmış hesabatlar əsasında məlumat bazasının hazırlanması;
- Şirkətlərdən yığılmış hesabatların Komissiya hesabatı ilə üzləşdirilərək uyğunsuzluqların müəyyən olunması;
- Uyğunsuzluqların aydınlaşdırılması məqsədilə şirkətlər və Komissiya ilə müzakirələrin aparılması;
- İlkin MHŞT hesabatının şirkətlər və Komissiyadan yığılmış hesabatlar və üzləşmə prosesində aşkar olunan fərqlər nəzərə alınmaqla hazırlanması; və
- Yekun hesabatın ÇQ-dən alınmış rəylər əsasında hazırlanması.

Biz, iş zamanı aşkar etdiyimiz nöqsanları hesabatda və onun müvafiq əlavələrində qeyd etmişik. Həyata keçirilən üzləşmə prosesi zamanı əldə olunan hesabatlar Beynəlxalq Audit Standartlarına və ya Maliyyə hesabatlarının Beynəlxalq İcmal Yoxlamaları Standartlarına əsasən auditi və yoxlamanı nəzərdə tutmur və bu səbəbdən biz bu hesabatda qeyd olunan əməliyyatlara dair əminlik vermirik.

Bu hesabat özündə icmal, yanaşma və metodologiya, hasilat sənayesi üzrə kontekstual məlumatlar, üzləşmə prosesi və nəticələri, xüsusi yoxlama prosedurları, hökumət gəlirlərinin təhlili və tövsiyələri əks etdirir.

## 1.3. Məlumatların məxfiliyi, tamlığı və dəqiqliyi

Müstəqil Administrator ARDNF ilə imzalanmış 21 fevral 2013–cü il tarixli müqavilədə məxfilik haqqında müddəaya uyğun olaraq işlərin icrası zamanı əldə etdiyi bütün məlumatların məxfiliyini təmin etmişdir.

Biz ilkin hesabat formalarını 2014–cü ilin iyul ayından başlayaraq sentyabr ayınadək topladıq. Bütün lazımi hesabatlar hökumət və şirkətlər tərəfindən təqdim edildi. Biz ilkin hesabat formalarını topladıqdan sonra üzləşmə prosesinə başladıq və təhlil edərək fərqləri müəyyən etdik. Biz hasilat sənayesi şirkətlərinin ilkin olaraq təqdim etdikləri ödəniş şablonları ilə Hökumətin apardığı qeydlər arasında uyğunsuzluqlar müşahidə etdik.

Üzləşmə prosesində iştirak edən mədən hasilatı ilə məşğul olan xarici və yerli şirkətlərin sayı 38–ə (otuz səkkiz) çatmışdır. İştirakçı şirkətlərin siyahısı hesabata dair Əlavə 2–də göstərilmişdir (Əlavə 2. Hasilat sənayesi şirkətləri).

Üzləşmə prosesində iştirak edən bütün şirkətlər Azərbaycan Respublikasında MHŞT-yə dair Anlaşma Memorandumunu imzalamış və məlumatı hesabat dövrü üçün açıqlamışdır. Yalnız HESS şirkəti hesabat formasını təqdim etməmişdir və buna səbəb şirkətin Memoranduma daxil olmamasıdır. Bunun da əsas səbəbi Azərbaycan Respublikasında olan nümayəndəliyinin bağlanması ilə əlaqədar olmuşdur. Şirkət bu prosesdə iştirak etmədiyindən, mənfəət vergisi şəklində Hökumətə 29,9 mln ABŞ dolları məbləğindəki ödənişin həyata keçirildiyini təsdiqləmək imkanına malik olmamışdır və qeyd olunan məbləğ dövlət tərəfindən təsdiqini aldığına görə fərq öz həllini tapmışdır.

# 1.4. Üzləşmə prosesinin qısa nəticələri

İlkin hesabat formalarına əsasən üzləşmə prosesi başa çatdıqdan və fərqlər aradan götürüldükdən sonra hasilat sənayesi şirkətləri və Hökumət tərəfindən göstərilən ödənişlər arasında xalis fərq aşağıdakı kimi olmuşdur:

| Gəlir növləri/məhsul | Hasilat sənayesi şirkətləri | Hökumət | Fərq | Yekun fərq |
|---|---|---|---|---|
| Neft-qaz ehtiyatları üzrə | | | | |
| neft (mln ABŞ dolları) | 84,9 | 62,7 | 22,2 | - |
| qaz (mln ABŞ dolları) | 383,8 | 383,8 | - | - |
| neft (mln barel) | 157,8 | 157,1 | 0,7 | - |
| təbii qaz (min $m^3$) | - | 13 351,8 | (13 351,8) | - |
| səmt qazı (min $m^3$) | 2 167 562,6 | 2 310 248,0 | (142 685,4) | - |
| Qızıl-gümüş ehtiyatları üzrə | | | | |
| qızıl (min unsiya) | 6,7 | 6,7 | - | - |
| gümüş (min unsiya) | 22,6 | 2,6 | - | - |
| xam qızıl (min unsiya) | 0,02 | 0,02 | - | - |
| xam gümüş (min unsiya) | 21,1 | 21,1 | - | - |
| xam mis (min unsiya) | 0,1 | 0,1 | - | - |
| Vergilər və sair ödənişlər | | | | |
| Mənfəət vergisi (mln ABŞ dolları) | 1 838,0 | 1 881,9 | (43,9) | (29,9) |
| Mənfəət vergisi (mln manat) | 32,8 | 15,8 | 17,0 | - |
| Royalti (mln manat) | 119,3 | 119,3 | - | - |
| ƏDV (mln manat) | 108,6 | 108,6 | - | - |
| Əmlak vergisi (mln manat) | 38,1 | 38,1 | - | - |
| Torpaq vergisi (mln manat) | 10,0 | 10,0 | - | - |
| Qiymət fərqi (mln manat) | - | 369,9 | (369,9) | - |
| Digər vergilər (mln ABŞ dolları) | 0,1 | - | 0,1 | - |
| Digər vergilər (mln manat) | 866,9 | 2,6 | 864,3 | - |
| Akrhesabı ödənişlər | 2,3 | 2,3 | - | - |
| ARDNF-a nəqletmə tarifi | 3,7 | 10,3 | (6,6) | - |
| Bonuslar | 2,32 | 2,36 | (0,04) | - |

Hesabat təqdim edən şirkətlərin ilkin məbləğinə edilmiş dəyişikliklər və həll olunmamış qalıq fərqləri hesabatın 5.6 Bölməsində təqdim olunmuşdur.

# 2. Yanaşma və metodologiya

## 2.1. İlkin iş mərhələsi

Biz ilkin iş mərhələsini üzləşmə prosesi ilə birləşdirdik, 31 dekabr 2013–cü il üzrə üzləşmə prosesini hazırlayarkən onu əhatə edən aşağıdakı vacib məsələlərə nəzər yetirdik:

- Ödənişlər və daxilolmalar üzrə əhəmiyyətlilik dərəcəsi;
- Əhatə olunacaq vergilər və daxilolmalar;
- Hesabat təqdim edəcək Şirkətlər və Dövlət Qurumları (Bölmə 4.1 və 4.2); və
- Hesabat təqdim edən şirkətlər tərəfindən bizə verilən məlumatlara əminlik.

Azərbaycan 10 ildən artıqdır ki, üzləşmə prosesinə dair təcrübə qazanmış və şəffaflıq üzrə təşəbbüslə əlaqədar hesabat təqdim etmək üçün kifayət qədər imkanlara malikdir. Biz Azərbaycan Respublikası Vergilər Nazirliyindən Azərbaycan Respublikasının hasilat sektoru ilə bağlı qeydə alınmış şirkətlərin bazasını əldə etdik.

## 2.2. Əhəmiyyətlilik dərəcəsinin müəyyən edilməsi

Şirkətlərin və hökumətin etdiyi əhəmiyyətli sayılan ödənişlərin təsdiqi üçün, ÇQ müvafiq ödəniş növlərininin əhəmiyyətlilik dərəcəsini müəyyən etməlidir. Azərbaycanda mədən hasilatı ilə məşğul olan bütün xarici və yerli şirkətlər tərəfindən Azərbaycan dövlətinə köçürülən gəlirlər üzrə (natura və dəyər ifadəsində) əhəmiyyətlilik həddinin müəyyən edilməsi aşağıdakı iki mərhələdə baş verir:

**Hesabata daxil edilən əhəmiyyətli gəlir mənbələrinin müəyyən edilməsi:**
MHŞT üzrə ÇQ tərəfindən əhəmiyyətli sayılan gəlir mənbələri aşağıdakı kimi müəyyənləşdirilib:

- Neft hasilatı üzrə natura və dəyər ifadəsində;
- Təbii və səmt qazı natura və dəyər ifadəsində;
- Əsas və qiymətli metallar üzrə natura və dəyər ifadəsində;
- Mənfəət vergisi;
- İmzalanma və digər bonuslar;
- Akr ödənişləri və tranzit haqları*; və
- Mədən vergisi, əlavə dəyər vergisi, torpaq vergisi, əmlak vergisi, qiymət fərqi və sair vergilər (fiziki şəxslərin gəlir vergisi, Dövlət Sosial Müdafiə Fonduna ayırmalar və ödəmə mənbəyindən tutulan vergilər istisna olmaqla).

Qeyd edilməlidir ki, dividend ödənişləri mövcud olmadığından ÇQ-nin 12 aprel 2012–ci il tarixli qərarı ilə 2013–cü ildən başlayaraq dividend xanası hesabat formalarından çıxarılmışdır. Neft, qaz və mineral ehtiyatların daşınmasından əldə olunan ən böyük gəlir axınlarından birini təşkil etmədiyindən ÇQ-nin qərarına əsasən hesabatda yalnız tranzit haqları göstərilir.

* Tranzit haqqı və nəqletmə tariflərinin anlayışları oxşar olduğundan, hesabatda nəqletmə tarifi kimi istinad olunacaqdır. Nəqletmə tarifinin təsviri hesabatın 45–ci səhifəsinin 3.1 bəndində qeyd olunmuşdur.

**Hər müəyyən edilmiş gəlir mənbəyi üzrə əhəmiyyətli sayılan məbləğ/həcm həddi.**
Göstərilmiş gəlir mənbələri üzrə Azərbaycan hökumətinə sıfırdan (0–dan) yuxarı məbləğdə/həcmdə daxilolmalar əhəmiyyətli sayılır.

# 2.3. Üzləşmə prosesi

Bizim hesabat yalnız Şirkətlərdən və Hökumətdən aldığımız faktiki məlumatların üzləşdirilməsi və şərhindən ibarətdir və aşağıdakı əsas mərhələlərdən keçib. Bizim yanaşmamız mütəmadi məsləhətləşmələr vasitəsilə bütün sualların qısa zaman ərzində həll olunması və üzləşmənin əsas mərhələyə keçməsinə şərait yaratmaq məqsədi daşıyır.

**İlkin iş mərhələsi**
Bu, məlumatların toplandığı ilkin mərhələdir:

- Əməliyyatlar haqqında anlayışın əldə edilməsi;
- Tapşırığın düzgün perspektivdə təhlilinin aparılması; və
- Mineral ehtiyatların hasilatı ilə məşğul olan sənaye sahələrində fəaliyyət göstərən şirkətlərin ödənişləri və Hökumətə daxilolmalar haqqında məlumatların toplanması.

**Üzləşmə mərhələsi:**
Tapşırığın ən mühüm hissəsi olan üzləşmə mərhələsində aşağıdakı işlər həyata keçirilir:

- Sənədlərin yoxlanılması;
- Hesabatların müqayisəsi və təhlili; və
- Məlumatların üzləşdirilməsi.

**Əminlik mərhələsi**
Bu mərhələ, əminlik dərəcəsinin artırılması üçün seçim üsulu əsasında icra olunur. Aşağıdakı işlər həyata keçirilmişdir:

- Hasilat şirkətləri siyahısından ÇQ ilə razılaşdırılmış seçim üsulu ilə şirkətlərin seçilməsi;
- Seçilmiş şirkətlərdə ilkin təsdiqedici sənədlərin nəzərdən keçirilməsi; və
- İcra olunmuş işin yekunlaşması barədə nəticənin hesabata daxil edilməsi.

**Rəy mərhələsi:**
Bu mərhələ zamanı aşağıdakı işlər həyata keçirilir:

- Hesabatın ÇQ üzvlərinə təqdim edilməsi;
- İlkin MHŞT hesabatına dair şərhlərin qəbul edilməsi;
- Hesabatın ÇQ–yə təqdim edilməsi; və
- Hesabata dair Koalisiyanın rəyinin əldə olunması.

Üzləşdirmə zamanı Müstəqil Administratorun əsas vəzifələrinə aşağıdakı mühüm məsələlər daxil idi:

**Hesabat şablonlarının paylanması:** Hesabat şablonları MHŞT–nin Katibliyi tərəfindən məktublara əlavə olunaraq müvafiq şirkətlərə və hökumət orqanlarına göndərilir.

**Müvafiq şirkətlərlə və Hökumətlə iş:** Bu iş prosesində sualların aydınlaşdırılmasından və hesabatların təhvil verilmə vaxtına riayət edilməsini təmin etmək üçün Şirkətlərlə və Hökumət ilə danışıqlardan ibarətdir.

- MHŞT üzrə Katiblikdən, Hesabat Şablonlarının bütün Şirkətlərə paylanması barədə təsdiqedici sənəd alındıqdan sonra biz, üzləşmə işlərini başlamaq üçün əsas əlaqədar şəxslərin siyahısını əldə etdik; və
- Hesabatlar hər hansı bir şirkət və ya hökumət orqanı tərəfindən verilmədiyi təqdirdə MHŞT üzrə Katiblik bu barədə məlumatlandırılır.

**Məlumatların toplanması:** Bu mərhələyə doldurulmuş Hesabat Şablonlarının və təsdiqedici sənədlərin toplanması daxildir.

- Hesabatların Müstəqil Administratora təqdim edilməsinin son tarixi kimi 15 iyul 2014–cü il tarixi MHŞT Katibliyi tərəfindən müəyyənləşdirilmişdir; və
- Ümumi prosesi tezləşdirmək və hesabatın son versiyasını tələb olunan vaxtda təhvil vermək məqsədilə biz şirkətlər tərəfindən təqdim olunmuş hesabatları müəyyən edilmiş tarixə qədər toplayaraq üzləşmə prosesinə başlamışdıq.

**Şirkətlərin ödənişləri:**
ÇQ tərəfindən təsdiq olunmuş hesabat şablonları şirkətlər tərəfindən doldurulmuş və MHŞT tərəfləri arasında imzalanmış Qarşılıqlı Anlaşma Memorandumuna əsasən bizə təqdim edilmişdir. Hesabatların düzgün şəkildə doldurulması məqsədilə hesabat şablonlarına texniki təlimatlar əlavə edilmişdir.

**Hökumət hesabatlarından daxilolmalar**
Biz aşağıda qeyd edilən Dövlət qurumlarından hesabatlar aldıq:

- Azərbaycan Respublikası Dövlət Neft Fondu;
- Azərbaycan Respublikası Dövlət Neft Şirkəti;
- Azərbaycan Respublikası Vergilər Nazirliyi; və
- Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi.

**Nöqsanlar və uyğunsuzluqlar:** Bu mərhələ üzləşmə zamanı şirkətlər və hökumət tərəfindən təqdim olunan məlumatlar arasında fərqlərin tapılmasını əhatə edir.
- Əldə olunmuş hesabat şablonları üzrə təhlilimizi asanlaşdırmaq məqsədilə hər bir şirkət üçün məlumat cədvəli yaratdıq, bütün hesabat formalarındakı ödənişləri və hökumətin gəlirləri göstərilmişdir;
- Şirkətlər və hökumət tərəfindən məlumatlar əldə olunduqdan sonra hesabata daxil edilmiş ödənişlər və gəlirlər təhlil üçün cədvələ əlavə edilmişdir; və
- Bütün məlumatlar əldə edildikdən sonra şirkətlərin ödəniş/ayırmaları və hökumətin daxilolmaları arasındakı uyğunsuzluqların tapılması məqsədilə müqayisə aparılmışdır.

Üzləşmə prosesi zamanı yaranan fərqlərin izahını əldə etmək məqsədilə müvafiq şirkət və hökumətlə əlaqə saxlayıb bu uyğunsuzluğun səbəbini müəyyənləşdirmək üçün təsdiqedici sənədlər tələb etdik. Bu mərhələdə yerinə yetirilmiş işlərin təsviri aşağıda göstərilmişdir:

- Məlumat bazasından istifadə edərək fərqləri araşdırmaq üçün hansı növ əlavə məlumata ehtiyacımız olduğunu müəyyən etmişdik;
- Bütün şirkətlərə və hökumətə aşkar olunan uyğunsuzluqların aradan qaldırılması üçün lazım olan təsdiqləyici sənədlərin təqdim olunmasının vacibliyini izah edərək onlardan əlavə məlumatı təqdim etmələrini xahiş etmişdik; və
- Əgər əlavə təsdiqləyici sənədlər uyğunsuzluğun aradan qaldırılması üçün münasib deyildirsə və ya heç bir əlavə sənəd təqdim olunmurdusa, biz bu fərqi "qeyri-müəyyən/izah olunmayan uyğunsuzluq" kimi hesab etmişdik.

## 2.4. MHŞT məlumatlarının etibarlılığı

MHŞT-nin 5–ci əsas tələbinə riayət etmək və məlumatların etibarlılığını təmin etmək məqsədilə aşağıdakılar tələb edilmişdir:

- Şirkətlərin hesabatları rəhbər işçi heyəti tərəfindən imzalanmalıdır;
- Hökumət orqanlarının hesabatları müvafiq hökumət qurumunun rəhbəri tərəfindən imzalanmalıdır; və
- Hesabat təqdim edən şirkətlər ödənişləri təsdiq etmək üçün göstərilən ödəmələr üzrə müvafiq sənədlərə əsaslanmalıdırlar.

Hesabat qeyd edilən məlumatların əslində hər hansı dəyişikliklərin edilməsinə dair, hökumət orqanları və şirkətlərdən ilkin sənədlərin istənilməsi və ya hər hansı düzəlişlərin əvvəlcədən təsdiqlənməsini təmin edir.

## 2.5. Mühasibatlıq siyasəti

2013–cü il üzrə hasilat sənayesi şirkətləri tərəfindən edilən ödənişlər və hökumət tərəfindən əldə edilən daxilolmalara dair üzləşmə prosesində mühasibat uçotunun kassa metodundan istifadə edilmişdir.

Ödənişlər xarici valyutada edildiyindən, hesabat verən müəssisədən hesabatı ödəniş valyutasına uyğun olaraq verilməsi tələb olunurdu. ABŞ dollarında edilən ödənişlər Mərkəzi Bankın orta illik məzənnəsinə uyğun olaraq AZN-ə konvertasiya olunmuşdur. 31 dekabr 2013–cü il üzrə ABŞ dollarının AZN orta illik məzənnəsi 0.7845 olmuşdur.

# 3. Hasilat sənayesi üzrə kontekstual məlumatlar

## 3.1. Ümumi məlumat

Mədən sənayesi əsas faydalı qazıntı yataqlarını kəşf edən, faydalı qazıntıları hasil və ilkin emal edən istehsal sahələrini özündə cəmləşdirir. Azərbaycan başda neft və qaz olmaqla müxtəlif mineral ehtiyatlarla zəngindir.

**Neft və qaz sənayesi** – neft və qaz yataqlarının kəşfiyyatını, neft-qaz quyularının qazılması, neft və qazın hasilatını, xam neft, neft məhsulları və qazın nəqlini əhatə edir.

- **Kəşfiyyat** – geoloji və geofiziki kəşfiyyat işlərinin aparılması, qazma üsullarının müəyyənləşdirilməsi, yatağın qiymətləndirilməsi və sənaye üsulu ilə istifadəyə hazırlaması kimi işləri əhatə edir;
- **Qazma** – Yer qabığında süxurları qazma aləti ilə dağıtmaqla quyu, lağım və ya şaxta lüləsinin qazılması prosesi;
- **Neft və qaz yataqlarının işlənməsi və istismarı** – neft-qaz quyularının işə salınması, dayanmış neft quyularının bərpası və istismara qaytarılmasını təmin etməkdir;
- **Neft və qaz hasilatı** – müxtəlif metodların tətbiqi ilə quruda və suda neftin və qazın çıxarılması; və
- **Nəqletmə** – xam neft borularla, tankerlərlə və müxtəlif vasitələrlə hasilat yerindən emal müəssisələrinə və ya digər məntəqələrə çatdırılmasıdır.




Azərbaycan dünyanın ən qədim neft hasil edən ölkələrindən biri sayılır. Azərbaycanın əsas neft və qaz ehtiyatları Abşeron yarımadasında və Xəzər dənizində yerləşir.
Azərbaycanda neft və qaz çıxarmanın tarixindən faktlar[1]:

1 "Azərbaycan Respublikası Dövlət Neft Şirkəti", 13 oktyabr 2014-cü il, http://new.socar.az/socar/az/company/about-socar/oil-history-in-azerbaijan

- XIV əsr səyyahı Marko Polo Azərbaycan neftindən müxtəlif məqsədlər üçün istifadə edilməsi və yaxın ölkələrə daşınması barədə yazmışdır;
- Dünyada ilk dəfə olaraq 1847–ci ildə Bibiheybətdə, sonra isə Balaxanıda neft quyuları qazılmışdır;
- 1901–ci ildə Azərbaycan 11,5 mln ton neft hasil edərək dünyada birinci yerə sahib olmuşdur;
- 1941–ci ildə Azərbaycanda 23,5 mln ton neft çıxarılmışdır ki, bu da bütün Sovet İttifaqında hasil olunan neftin 71,4%–ni təşkil etmişdir;
- Dənizdə neftin çıxarılması ilk dəfə olaraq Azərbaycanda başlamışdır. 1949–cu ildə "Neft Daşları" yatağının aşkar edilməsi Azərbaycanı və Xəzəri bütün dünyada məşhur etdi;
- 1970–ci illərin sonu 1980–ci illərin əvvəllərində bütün dünyada məşhur olan "Azəri", "Çıraq", "Kəpəz" və hazırda SOCAR neftinin 60%–dən çoxunu verən "Günəşli" kimi yataqlar aşkar edildi; və
- 1994–cü ilin 20 sentyabr tarixində "Əsrin müqaviləsi" imzalanmışdır.

**Qiymətli metallar**[2]

Azərbaycan ərazisi davamlı və uzunmüddətli qızıl və gümüş hasilatı sənayesinin yaradılması üçün də zəngin potensiala malikdir. Qızıl və gümüş yataqları əsasən Kiçik Qafqazın ərazisində və Azərbaycanın cənub–qərbindəki altı yataqda – Gədəbəy, Ordubad, Qoşa Bulaq, Qızıl Bulaq, Vecnəli və Söyüdlüdə yerləşir.

Respublikanın mis ehtiyatları əsasən Balakən – Zaqatala, Gədəbəy, Qarabağ və Ordubad filiz rayonlarında cəmləşmişdir. Balakən – Zaqatala filiz rayonunda misin əsas ehtiyatları mis–kolçedan, kolçedan-polimetal tipli, Kiçik Qafqaz və Naxçıvan qırışıqlıq zonasının filiz rayonlarında isə əsasən mis–porfir, molibden–mis–porfir və qızıl–mis–kolçedan tipli yataq və təzahürlərdə cəmləşmişdir.

# Hüquqi rejim

Qanunvericiliyə görə bütün yeraltı faydalı qazıntılar dövlətə məxsusdur. Azərbaycanda mədən sənayesində fəaliyyəti tənzimləyən mövcud qanunvericilik bazası aşağıda qeyd olunanlardan ibarətdir[3]:

- **12 noyabr 1995–ci il tarixli Azərbaycan Respublikasının Konstitusiyası;**

- **Beynəlxalq Sazişlər:**
  - Boru kəmərləri magistralları ilə neft və neft məhsullarının tranzit sahəsində razılaşdırılmış siyasətin aparılması haqqında 1996–cı il aprelin 12-də Moskva şəhərində imzalanmış Saziş; və
  - 1999–cu il iyulun 22–də Kiyev şəhərində Azərbaycan Respublikası tərəfindən qeyd-şərtlə imzalanmış dövlətlərarası neft və qaz nəqli sistemlərinin yaradılması üçün təşkilati prinsiplərə dair Çərçivə Sazişi.

- **Məcəllələr:**
  - 28 dekabr 1999–cu il tarixli 779–IQ nömrəli qanun ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Mülki Məcəlləsi;
  - 11 iyul 2000–ci il tarixli 905–IQ nömrəli qanun ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Vergi Məcəlləsi;
  - 11 iyul 2000–ci il tarixli 906–IQ nömrəli qanun ilə təsdiq edilmiş Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi;
  - 26 dekabr 1997–ci il tarixli 418–IQ nömrəli qanun ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Su Məcəlləsi;
  - 24 iyun 2011–ci il tarixli 164–IVQ nömrəli qanun ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Gömrük Məcəlləsi;
  - 01 fevral 1999–cu il tarixli 618–IQ nömrəli qanun ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Əmək Məcəlləsi; və
  - 25 iyun 1999–cu il tarixli 695–IQ nömrəli qanun ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsi.

- **Qanunlar:**
  - 30 may 1996–cı il tarixli 94–IQ nömrəli "Enerji resurslarından istifadə haqqında" Azərbaycan Respublikasının Qanunu;

2 "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi", "Azərbaycanın faydalı qazıntıları", 13 oktyabr 2014-cü il, http://www.eco.gov.az/faydaliqazintilar.php.
3 "Azərbaycan Respublikası Ədliyyə Nazirliyi", "Normativ hüquqi aktların vahid internet elektron bazası", 13 oktyabr 2014-cü il, http://e-qanun.az.

- 02 fevral 2009–cu il tarixli 766–IIIQ nömrəli "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında" Azərbaycan Respublikasının Qanunu;
- 30 iyun 1998–ci il tarixli 513–IQ nömrəli "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanunu;
- 13 fevral 1998–ci il tarixli 439-IQ nömrəli "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanunu;
- 10 iyun 2005–ci il tarixli 924–IIQ nömrəli "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının Qanunu; və
- 24 noyabr 1998–ci il tarixli Energetika haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası istisna olmaqla) HPBS–lər arasında ziddiyyət yaranarsa, həmin Sazişlər tətbiq edilir.

# Fiskal rejim

Azərbaycan Respublikasında vergi sistemini, vergitutmanın ümumi əsaslarını, vergilərin ödənilməsi və yığılması qaydalarını, vergi ödəyicilərinin və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələrini, vergi nəzarətinin forma və metodlarını, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyəti, dövlət vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydalarını müəyyən edən Vergi Məcəlləsidir.

Hasilatın pay bölgüsü sazişləri (HPBS), habelə əsas boru kəməri sazişləri Azərbaycan Respublikası Milli Məclisi tərəfindən təsdiq olunduqdan sonra qüvvəyə minir. Bu sazişlər yataqlarda fəaliyyət göstərən əməliyyat şirkətlərinin, podratçı tərəflərin və bunların subpodratçılarının fəaliyyətlərini, mühasibatlıq və vergi rejimini tənzimləyir.

Vergi Məcəlləsi ilə hasilatın pay bölgüsü haqqında, əsas boru kəməri haqqında və digər bu qəbildən olan saziş və qanunlarla, o cümlədən neft və qaz haqqında, ixrac məqsədli neft–qaz fəaliyyəti və xüsusi iqtisadi zonalar haqqında qanunlar arasında vergilər haqqında fərqli müddəalar müəyyən edildikdə, həmin saziş və qanunların müddəaları üstün götürülür.

İxrac olunan neftin və təbii qazın nəql edilməsi ilə bağlı fəaliyyətləri, münasibətləri və vergi rejimi qanun qüvvəsinə malik Əsas İxrac Boru Kəməri (Bakı–Tbilisi–Ceyhan) və Cənubi Qafqaz Boru Kəməri (Bakı–Tbilisi–Ərzurum) sazişləri ilə tənzimlənir. Bu sazişlərlə fəaliyyət göstərən əməliyyat şirkətlərinin, ƏİBK iştirakçılarının və onların podratçılarının fəaliyyətləri, mühasibatlıq və vergi rejimi tənzimlənir.

Azərbaycan Respublikası Vergi Məcəlləsi Azərbaycanda mövcud olan ümumi vergiqoyma sistemini təşkil edərək aşağıdakı vergi növlərini tənzimləyir :

- Mənfəət vergisi;
- Əlavə dəyər vergisi (ƏDV);
- Əmlak vergisi;
- Gəlir vergisi;
- Mədən vergisi;
- Torpaq vergisi;
- Aksiz vergisi;
- Yol vergisi; və
- Sadələşmiş vergi.

Qanunla təsdiq olunmuş HPBS, Azərbaycan Respublikasında fəaliyyət göstərən müəssisə şirkətlər üçün xüsusi vergi rejimi tətbiq edilir və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə bir sıra transmilli şirkətlər arasında HPBS–lər, habelə onların əsasında tərtib olunan və vergitutmanın müəyyən aspektlərini dəqiqləşdirən protokolları əhatə edir:

- "Mənfəət vergisi haqqında protokol";
- "Əlavə dəyər vergisi haqqında protokol";

- “Xarici subpodratçıların vergiyə cəlb edilməsi haqqında protokol”;
- “Əməkdaşlar və fiziki şəxslərin vergiyə cəlb edilməsi haqqında protokol”; və
- “İdxal və ixrac vergiləri haqqında protokol”

**Əsas İxrac Boru Kəməri Bakı–Tbilisi–Ceyhan (BTC), Tranzit Əraziyə Malik Ölkə Hökuməti Sazişi (TƏMÖHS) və Cənubi Qafqaz Boru Kəməri (Şahdəniz Qaz) sazişləri əsasında işləyən müəssisələr üçün xüsusi vergi rejimləri tətbiq edilir.**

Qanunvericiliyə əsasən hasilatla əlaqədar hökumətə edilən ayırmalar və ödənişlər aşağıda qeyd olunub:

| Hökumətə edilən ayırmalar və ödənişlər[2] | Ödənişin təsviri |
|---|---|
| Neft hasilatı üzrə gəlirlər | Hasilat şirkətləri Azərbaycan Respublikasının payını HPBS–ə uyğun olaraq məhsul şəklində hökumətin təmsilçisi olan SOCAR–a transfer edir. |
| Qaz hasilatı üzrə gəlirlər | Hasilat şirkətləri Azərbaycan Respublikasının payını HPBS–ə uyğun olaraq məhsul şəklində hökumətin təmsilçisi olan SOCAR–a transfer edir |
| Mənfəət vergisi | Mənfəət vergisi şirkətin vergiyə cəlb olunan mənfəət əsasında hesablanır. Mənfəət vergisi qanunvericiliyə uyğun olaraq vergi ödəyicisinin vergiyə cəlb edilən gəlirləri və gəlirdən çıxılan xərcləri arasında olan fərqdən hesablanan vergidir. |
| Bonuslar | Bonuslar neft şirkətləri tərəfindən hasilat hüquqlarının onlara təhvil verilməsi və köçürülməsinə görə ödədiyi haqları əks etdirir. Bu haqlar hökumətlə olan müvafiq razılaşmaya əsasən HPBS–ın icrasının müəyyən mərhələlərində ödənilir. |
| Tranzit haqqı | Neftin Azərbaycan Respublikasının ərazisi ilə Bakı–Supsa ixrac boru kəməri vasitəsi ilə ötürülməsi üçün edilən ödənişlərdir. |
| Akrhesabı ödənişləri | Akrhesabı ödənişləri kəşfiyyat dövrü, habelə Əlavə kəşfiyyat dövrü ərzində Podratçı tərəflər Kontrakt sahəsinin istifadəsinə görə hər kvadrat kilometri üçün haqq ödənişi hesab olunur. |
| Mədən vergisi | Azərbaycan Respublikasının ərazisində, o cümlədən Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan sektorunda faydalı qazıntıların çıxarılmasına görə vergi növüdür. |
| Digər ödənişlər | Digər ödənişlər, yuxarıda qeyd olunmayan ödənişlərə aiddir. Bura, sair vegilər (Əmlak vergisi, torpaq vergisi, ƏDV, qiymət fərqi), natura şəklində hökumətə təhvil verilən məhsulları (qızıl və gümüş) daxil etmək olar. |

Azərbaycan Respublikasının 2013–cü il dövlət büdcəsinin icrası gəlirlər 19,5 mlrd manat, xərclər 19,1 mlrd manat məbləğində olmaqla təsdiq edilmişdir.

Azərbaycan Respublikasının dövlət büdcəsinin 2013–cü ildə qanunvericilikdə nəzərdə tutulmuş mənbələr hesabına (“Avtomobil Yolları” Məqsədli Büdcə Fonduna aid edilən gəlirlərdən başqa, DNF-dan daxilolmalar, vergi daxilolmaları, gömrük rüsumları, verilmiş kreditlər üzrə daxilolmalar və sair gəlir növləri) formalaşan mərkəzləşdirilmiş gəlirlərinin 96,37%–i Bakı şəhərinə, qalan 3,63%–i isə digər şəhər və rayonların yerli gəlirlərinə aid edilməsi nəzərdə tutulmuşdur. Mərkəzləşmiş gəlirlərin digər şəhər və rayonların yerli gəlirlərinə aid edilən hissəsinin, həmin şəhər və rayonlarda fəaliyyət göstərən vergi ödəyicilərinin ödədikləri vergilərin və digər gəlirlərin hesabına dövlət büdcəsinin yerli gəlirləri formalaşdırılır.

4 “Azərbaycan Respublikası Dövlət Neft Fondu”, “Terminlər”, 13 oktyabr 2014-cü il, http://www.oilfund.az/az_AZ/about_found/terminler.asp.

# Müvafiq dövlət qurumlarının rolu və vəzifələri

Azərbaycan Respublikasının xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla beynəlxalq müqavilələri Azərbaycan Respublikası adından (dövlətlərarası müqavilələr) və Azərbaycan Respublikasının hökuməti adından (hökumətlərarası müqavilələr) bağlanır.

Azərbaycan Respublikasında HPBS–lərinin bağlanması prosedurları:

- İlkin danışıqlar Azərbaycan hökumətini təmsil edən Energetika Nazirliyinin tabeliyində olan SOCAR-la HPBS-da maraqlı olan şirkətlər arasında aparılır;
- Bu danışıqlardan sonra ilkin razılıq olaraq Anlaşma Memorandumu (AM) imzalanır;
- Ölkə başçısına HPBS üzrə danışıqlar aparmaq və onu imzalamaq haqqında SOCAR–a səlahiyyətlərin verilməsi haqqında müraciət edilir və Prezidentin müvafiq sərəncamı əsasında AM qüvvəyə minir;
- AM əsasında sonrakı əməkdaşlıq çərçivəsində tərəflərin hüquq və vəzifələri razılaşdırılır;
- HPBS–nin əsas prinsipləri və kommersiya şərtləri haqqında saziş imzalanır;
- Əsas prinsipləri və kommersiya şərtləri haqqında saziş əsasında HPBS layihəsi razılaşdırılır;
- İmzalanmış HPBS ratifikasiya üçün Milli Məclisə təqdim edilir; və
- Ratifikasiyadan sonra Prezidentin fərmanı ilə HPBS qüvvəyə minir.

# Dövlət qurumları

**Azərbaycan Respublikasının Milli Məclisi**
Azərbaycan Respublikasının Milli Məclisi qanunvericilik hakimiyyətini həyata keçirən orqandır. Azərbaycan Respublikasının qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələri, qanunları, o cümlədən HPBS–lərini Azərbaycan Respublikasının Milli Məclisi təsdiq (ratifikasiya) edir.

**Azərbaycan Respublikası Vergilər Nazirliyi [5]**
Vergilər Nazirliyi Azərbaycan Respublikasında aparılan vahid maliyyə və büdcə siyasəti çərçivəsində dövlət vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin edən və bu sahədə dövlət nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

**Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi [6,7]**
Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Azərbaycan Respublikası ərazisində, o cümlədən Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsində ətraf mühitin qorunması, təbiətdən istifadənin təşkili, yeraltı sulardan, mineral xammal ehtiyatlarından və yerüstü təbii sərvətlərdən səmərəli istifadə edilməsi, onların bərpası, hidrometeoroloji proseslərin müşahidəsi və proqnozlaşdırılması sahəsində dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

Qurumun əsas vəzifələrindən biri, təbii sərvətlərin öyrənilməsi, onlardan istifadə edilməsi, bərpası və mühafizəsi və bu sahədə ekoloji təhlükəsizliyin təmin edilməsi və bioloji müxtəlifliyin qorunub saxlanılması üzrə dövlət siyasətini həyata keçirməkdən ibarətdir.

**Azərbaycan Respublikası Energetika Nazirliyi**
Azərbaycan Respublikası Energetika Nazirliyi yanacaq-energetika sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Yanacaq–energetika sahəsi Energetika haqqında Azərbaycan Respublikasının qanunu ilə energetika sahəsində müəyyən edilmiş fəaliyyətdən (bundan sonra–müvafiq sahədə) ibarətdir.[8]

5 "Azərbaycan Respublikası Vergilər Nazirliyi", http://www.taxes.gov.az/vn/info/icmal.pdf.
6 "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi", 13 oktyabr 2014-cü il, http://www.eco.gov.az.
7 "MHŞT Hesabatı", "2013-cü il üzə Azərbaycan MHŞT Hesabatı" , bənd "3.2. Mədən sənayesin icmalı"
8 "Azərbaycan Respublikası Energetika Nazirliyi", "Energetika haqqında Azərbaycan Respublikasının Qanunu", 13 oktyabr 2014-cü il, http://www.minenergy.gov.az/db/Energetika_haqqinda.pdf

Azərbaycan Respublikası Energetika Nazirliyinin əsasnaməsinə görə karbohidrogen ehtiyatları hasilatının pay bölgüsü və ya digər şərtlərə uyğun işlənməsi barədə sazişlərin layihələrini hazırlayır, bu sazişlər üzrə danışıqlar aparır, onları müəyyən olunmuş qaydada imzalayır, bağlanmış sazişlərin həyata keçirilməsinə nəzarət edir.

**Azərbaycan Respublikası Dövlət Neft Fondu [9]**
Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) gələcək nəsillər üçün likvid aktivlərin (müxtəlif formada) yığılmasını, idarə edilməsini həyata keçirən səmərəli mexanizmdir. ARDNF, büdcədənkənar fond kimi təsis edilmiş və dövlət və ya mərkəzi bankdan ayrıca idarəetmə strukturuna malik hüquqi şəxs qismində fəaliyyət göstərir.

**Azərbaycan Respublikası Dövlət Neft Şirkəti [10]**
Azərbaycan Respublikası Dövlət Neft Şirkəti Azərbaycanın dövlət neft və təbii qaz korporasiyasıdır. O, neft və təbii qaz istehsal edir, ölkənin neft emalı və ölkə ərazisində neft və qaz kəmərlərinin fəaliyyət göstərməsini həyata keçirir. Daha ətraflı məlumat hesabatın 3.5 "Hasilat sənayesində dövlət iştirakı" adlı bəndində öz əksini tapmışdır.

**Hasilat sənayesi üzrə mövcud islahatlar**
MHŞT Hesabatını əhatə edən maliyyə ili ərzində hasilat sənayesi üzrə hökumət tərəfindən heç bir nəzərə çarpan mühüm islahatlar olmamışdır.

# 3.2. Mədən sənayesinin icmalı

## Neft və qaz sənayesi

Azərbaycanda neftin əsas yataqları Xəzər dənizi şelfi və Abşeron yarımadasındadır. Neftin əsas ehtiyatları Abşeron sularının cənubunda aşkar edilmişdir. Abşeron yarımadasının şimalında – Siyəzəndə və Abşeronun qərbində və cənub-qərbində – Qobustan, Şirvan və Salyandakı neft mənbələri perspektivli ehtiyatlara malikdirlər. Gəncə yaxınlığındakı Naftalan yataqlarında özünəməxsus xüsusiyyətə malik müalicəvi neft mədənləri vardır. Neftlə bərabər çıxan təbii qazın mövcudluğu da böyük əhəmiyyət daşıyır.

2013–cü ilin sonuna Azərbaycanın neft və qaz ehtiyatları:

| **2013-cü ilin sənaye nəticələri [11]** | **2013** |
|---|---|
| Təsdiq edilmiş neft ehtiyatları, min ton (Miller & Lents-ə görə) | 78,502 |
| Təsdiq edilmiş qaz ehtiyatları, mln $m^3$ (Miller & Lents-ə görə) | 61,150 |

Azərbaycanda neft və qaz ehtiyatları ilə məşğul olan transmilli enerji şirkətləri ilə 31 HPBS (17 dənizdə və 14 quruda) imzalamışlar.

9 "Azərbaycan Respublikası Dövlət Neft Fondu", 13 oktyabr 2014-cü il, http://www.oilfund.az.
10 "Azərbaycan Respublikası Dövlət Neft Şirkəti", 13 oktyabr 2014-cü il, http://new.socar.az/socar/en/home.
11 "Azərbaycan Respublikası Dövlət Neft Şirkəti", "Şirkət haqqında", səh. 6, Noyabr 2014-cü il, http://www.socar.az/socar/assets/documents/en/socar-annual-reports/sus.dev.rep-2013.pdf

## Azərbaycanın neft və qaz yataqlarının yerləşmə xəritəsi



**Neft və qaz yataqları üzrə fəaliyyətdə olan sazişlər:**

**Dənizdəki yataqlar**

| İmzalanma tarixi | Podratçı tərəflər və onların payları | | Ehtiyatlar | | |
|---|---|---|---|---|---|
| | **Şirkətin adı** | **%** | **Neft** | **Qaz** | **Kondensat** |
| **Azəri–Çıraq–Dərinsulu Günəşli [12] (hasilat mərhələsi)** | | | | | |
| 20.09.1994 | BP Eksploreyşn (Kaspian Si) Limited | 35.8 | | | |
| | Azərbaycan (AÇG) Limited | 11.6 | | | |
| | Şevron Xəzər, Ltd | 11.3 | | | |
| | Inpeks Sausvest Kaspian Si, Ltd. | 11.0 | | | |
| | Statoil Absheron AS | 8.6 | • | | |
| | Ekson Azərbaycan Limited | 8.0 | | | |
| | Türkiye Petrolleri Anonim Ortaklığı | 6.8 | | | |
| | İtoçu Oyl Eksploreyşn (Azərbaycan) İnk. | 4.3 | | | |
| | ONCS Videş Limited | 2.7 | | | |
| **Şahdəniz [13] (hasilat mərhələsi)** | | | | | |
| 04.06.1996 | BP Eksploreyşn (Azərbaycan) Limited | 25.5 | | | |
| | Statoil Shah Deniz AS | 25.5 | | | |
| | Azərbaycan (Şah Dəniz) Limited | 10.0 | | | |
| | Lukoyl Oversiz Shah Deniz | 10.0 | | • | |
| | Naftiran Intertrade Co (NICO) Limited | 10.0 | | | |
| | TOTAL E & P Azərbaycan B.V. | 10.0 | | | |
| | Türkiş Petroleum Oversiz Kompani Ltd | 9.0 | | | |
| **Abşeron [14] (kəşfiyyat mərhələsi)** | | | | | |
| 27.02.2009 | SOCAR–ın Ortaq Neft Şirkəti | 40.0 | | | |
| | Total İ Ənd Pi Abşeron B.V. | 40.0 | | • | |
| | GDF SUEZ E and P Absheron BV | 20.0 | | | |
| **Şəfəq–Asiman [15] (kəşfiyyat mərhələsi)** | | | | | |
| 07.10.2010 | BP Şəfəq-Asiman Limited | 50.0 | | • | |
| | SOCAR–ın Ortaq Neft Şirkəti | 50.0 | | | |

12 “BP şirkəti”, “Əməliyyatlar və layihələr”, “Azəri-Çıraq-Dərinsulu Günəşli” 14 oktyabr 2014-cü il, http://www.bp.com/az_az/caspian/operationsprojects/ACG.html.
13 “BP şirkəti”, “Əməliyyatlar və layihələr”, “Şahdəniz” 14 oktyabr 2014-cü il, http://www.bp.com/az_az/caspian/operationsprojects/Shahdeniz.html.
14 “Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti”, “Fəaliyyət”, “Abşeron” 14 oktyabr 2014-cü il, http://new.socar.az/socar/az/activities/exploration/absheron.
15 “BP şirkəti”, “Əməliyyatlar və layihələr”, “Şəfəq Asiman” 14 oktyabr 2014-cü il, http://www.bp.com/az_az/caspian/operationsprojects/Shafagasiman.html

## Qurudakı yataqlar [16,17]

| İmzalanma tarixi | Podratçı tərəflər və onların payları: Şirkətin adı | % | Ehtiyatlar: Neft | Qaz | Kondensat |
|---|---|---|---|---|---|
| **Bahar Qum Dəniz (hasilat mərhələsi)** | | | | | |
| 22.12.2009 | Bahar Energy Limited | 80.0 | | • | |
| | SOCAR | 20.0 | | | |
| **Balaxanı, Sabunçu, Ramana və Kürdəxanı (hasilat mərhələsi)** | | | | | |
| 06.05.2011 | UGE–LANCER PTE.LTD | 75.0 | • | | |
| | SOCAR | 25.0 | | | |
| **Kürovdağ (hasilat mərhələsi)** | | | | | |
| 03.02.2009 | Shirvan Investment Limited | 80.0 | • | | |
| | SOCAR | 20.0 | | | |
| **Kürsəngi və Qarabağlı (hasilat mərhələsi)** | | | | | |
| 15.12.1998 | Salyan Neft MMC | 50.0 | • | | |
| | CNPC | 25.0 | | | |
| | Focnmeyt Əsets Limited | 25.0 | | | |
| **Mişovdağ və Kəlaməddin (hasilat mərhələsi)** | | | | | |
| 12.09.2000 | Karasu Development Company | 85.0 | • | | |
| | Əli–Bayramlı Neft MMC | 15.0 | | | |
| **Neftçala (hasilat mərhələsi)** | | | | | |
| 03.02.2009 | Neftchala İnvestment Limited | 80.0 | • | | |
| | SOCAR | 20.0 | | | |
| **Pirsaat (hasilat mərhələsi)** | | | | | |
| 04.06.2003 | Petro Hong Kong Limited | 50.0 | • | | |
| | Middle East | 30.0 | | | |
| | SOCAR | 20.0 | | | |
| **Suraxanı (hasilat mərhələsi)** | | | | | |
| 16.08.2005 | Novatis Oyl F.Z.E. | 75.0 | • | | |
| | SOCAR | 25.0 | | | |

16 "Azərbaycan Respublikası Dövlət Neft Şirkəti", "Şirkət", "Hasilat Pay Bölgüsü Sazişləri Quru", 14 oktyabr 2014-cü il, http://new.socar.az/socar/az/company/production-sharing-agreements-onshore.
17 "Azərbaycan Respublikası Dövlət Neft Şirkəti", "Fəaliyyət", 14 oktyabr 2014-cü il, http://new.socar.az/socar/az/activities/production.

**Qurudakı yataqlar** [16,17]

| İmzalanma tarixi | Podratçı tərəflər və onların payları | | Ehtiyatlar | | |
|---|---|---|---|---|---|
| | Şirkətin adı | % | Neft | Qaz | Kondensat |
| **Zığ Hövsan (hasilat mərhələsi)** | | | | | |
| 03.11.2006 | Abşeron İnvestment Limited | 75.0 | • | | |
| | SOCAR | 25.0 | | | |
| **Binəqədi, Qırməki, Çaxnaqlar, Sulutəpə, Masazır, Fatmai, Şabandağ və Sianşor (hasilat mərhələsi)** | | | | | |
| 29.09.2004 | Azen Oyl Kompani B.V. | 75.0 | • | | |
| | SOCAR | 25.0 | | | |
| **Cənub Qərbi "Qobustanın" bloku (hasilat mərhələsi)** | | | | | |
| 02.06.1998 | Kommonvealth | 80.0 | • | | |
| | Qobustan Neft MMC | 20.0 | | | |
| **Qaraçuxur neft yatağı (kəşfiyyat mərhələsi)** | | | | | |
| 18.06.2004 | Noblskay | 75.0 | • | | |
| | SOCAR | 25.0 | | | |
| **Padar (kəşfiyyat mərhələsi)** | | | | | |
| 27.04.1999 | Kura Valeey Development Company LTD | 80.0 | • | | |
| | SOCAR | 20.0 | | | |

**Boru kəmərləri**

Azərbaycanın üç ixrac boru kəmərinə malikdir ki, neftin çox hissəsi (80%–yaxını) BTC boru kəməri vasitəsilə ixrac olunur.

**Baku – Tbilisi – Ceyhan (BTC)** [18]

Bakı – Tbilisi – Ceyhan (BTC) boru xətti nefti Azəri – Çıraq – Dərinsulu Günəşli (AÇG) yatağından və kondensatı isə Şahdənizdən götürərək Azərbaycan, Gürcüstan və Türkiyə üzərindən Ceyhan terminalına daşıyır. O, Xəzər Dənizinin sahilində Səngəçal terminalı və Türkiyənin Aralıq dənizi sahilində Ceyhan dəniz terminalı arasında əlaqəni təmin edir. Həmçinin, Türkmənistandan xam neft də boru kəməri vasitəsilə nəql olunur. BTC boru xətti vasitəsilə Qazaxıstandan müəyyən həcmdə Tengiz xam neftinin daşınması 2013–cü ilin oktyabr ayında bərpa edilmişdir.

**Cənubi Qafqaz boru kəməri**[19]

Cənubi Qafqaz boru kəməri (CQBK), Şahdəniz qazını Azərbaycandan Gürcüstana və Türkiyəyə nəql etmək üçün inşa edilmişdir. Boru kəməri, Bakı yaxınlığındakı Səngəçal terminalından başlayır. Bu boru kəməri Türkiyə sərhədinədək Azərbaycanda və Gürcüstanda Bakı–Tbilisi–Ceyhan (BTC) neft kəməri ilə eyni marşrutdadır və o, Türkiyədə bu ölkənin qaz paylama sisteminə birləşdirilib.

Bu boru kəməri 2006–cı ilin sonlarında istismara verilərək qazı əvvəl Azərbaycana və Gürcüstana, Şahdəniz Mərhələ 1 üzrə isə 2007-ci ilin iyul ayından başlayaraq Türkiyəyə çatdırır .

18 "BP şirkəti", "Əməliyyatlar və layihələr", "Boru kəmərləri", "Bakı-Tbilisi-Ceyhan boru kəməri" http://www.bp.com/az_az/caspian/operationsprojects/ACG.html.
19 "BP şirkəti", "Əməliyyatlar və layihələr", "Boru kəmərləri", "Cənubi Qafqaz boru kəməri" http://www.bp.com/az_az/caspian/operationsprojects/ACG.html.

**Azərbaycandan keçən boru kəmərlərinin xəritəsi**




**Qərb İxrac boru kəməri [20]**

Qərb İxrac boru kəməri (QİBK), Xəzər Dənizindəki neft yataqlarından xam nefti Qara dəniz sahilinə nəql edir və xam neft orada tankerlərə yüklənərək, Bosfor boğazından keçməklə Avropa bazarlarına göndərilir.

Boru kəmərinin tikintisi Azərbaycan ilə Gürcüstan arasında 1996–cı ilin aprel ayında bağlanmış Hökumətlərarası Sazişin ratifikasiyasından sonra başlanmış və 1998–ci ilin noyabr ayında başa çatmışdır. QİBK 1999–cu ilin fevralından istismardadır.

**Bakı – Novorossiysk boru kəməri [21,22]**

Bakı-Novorossiysk boru kəməri Azərbaycan neftinin Rusiya Federasiyası ərazisindən keçməklə Qara dənizin Novorossiysk limanına nəql olunması haqqında müqavilə 18 fevral 1996–cı ildə imzalanmışdır.

Borunun neftlə doldurulmasına 1996–cı ilin oktyabrında başlanılmışdır. Kəmərin maksimum ötürmə qabiliyyəti gündə 105 min bareldir.

20 “BP şirkəti”, “Əməliyyatlar və layihələr”, “Boru kəmərləri”, “Qərb İxrac Boru kəməri” http://www.bp.com/az_az/caspian/operationsprojects/ACG.html.
21 “Azərbaycan Respublikası Energetika Nazirliyi”,” Əsas ixrac kəmərləri”, “Bakı-Novorossiysk”, http://www.minenergy.gov.az/?e=525&a=7
22 “SOCAR”, “Nəql”, “Bakı-Novorossiysk Neft Kəməri”, http://www.socar.az/socar/az/activities/transportation/baku-novorossiysk-oil-pipeline

# Qızıl və gümüş hasilatı[23]

Son illərdə qızıl yataqları mühüm geoloji tapıntıya çevrilmişdir. Qarabağda (Ermənistan işğalı altında) Qızılbulaq qızıl – mis – kolçedanı və Zəngilanda Vəcnəli kvars qızıl yataqları, Ordubad ərazisində Ağyurd, Piyasbaşı, Şəkərdərə kvars-qızıl depozitləri, Gədəbəy və Dəlidağda Ağduzdağ kvars–qızıl yataqları geoloji ekspedisiyalar sayəsində aşkar olunmuşdurlar.

Azərbaycanda qızıl hasilatı sənayesinin yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikasının bir sıra qızıl yataqlarının aşkar olunması və emalı barədə» 1996–cı il 5 fevral tarixli sərəncamına uyğun olaraq 20 avqust 1997–ci ildə Azərbaycanın "Azərqızıl" Dövlət Şirkəti ilə ABŞ-ın "R.V.Investment Group Services" şirkəti arasında Gədəbəy, Qoşa, Ordubad qrupu, Söyüdlü, Qızılbulaq və Vecnəli potensial qızıl filizi yataqlarının aşkar olunması, emalı və hasilatın bölgüsü haqqında saziş imzalanmışdır. 2000–ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanına əsasən "Azərqızıl" Dövlət Şirkəti ləğv edilərək, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyinə verilmişdir. Gədəbəy qızıl-mis layihəsi gəlirdə payı 51% olmaqla Azərbaycan höküməti ilə birlikdə həyata keçirilir. Payı 49% olan Azərbaycan Beynəlxalq Mədən Əməliyyat Şirkəti layihəyə rəhbərlik edir.[24]




23 "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi", "Azərbaycanın faydalı qazıntıları", 13 oktyabr 2014-cü il, http://www.eco.gov.az/faydaliqazintilar.php.
24 "Azərbaycan Prezidenti", 13 oktyabr 2014-cü il, http://www.president.az/articles/9268.

**Qızıl və gümüş yataqları üzrə sazişlər**

**Mədən PBS**

| İmzalanma tarixi | Podratçı tərəflər və onların payları | | Ehtiyatlar |
|---|---|---|---|
| | **Şirkətin adı** | **%** | **Qızıl və Gümüş** |
| Gədəbəy qızıl-mis layihəsi (hasilat mərhələsi) | | | |
| 22.12.2009 | Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 51.0 | • |
| | R.V.Investment Group Services | 49.0 | |

# Mühüm kəşfiyyat fəaliyyəti

2013–cü ildə Azərbaycan Respublikasının qurudakı və dənizdəki yataqlarında (neft və qaz yataqlarında və potensial strukturlarda) müəyyən kəşfiyyat qazma işləri yerinə yetirilmişdir. Onlar SOCAR və xarici şirkətlər tərəfindən maliyyələşdirilmişdir.

6991 m-i SOCAR-a aid olan, 1243 m–i isə xarici şirkətlər ilə birlikdə aparılan ümumi 8234 m həcmində kəşfiyyat qazma işləri altı yataqda – quruda "Şimali Şikiqaya" (Nº5) və "Tumbul" (Nº1, Nº2) yataqlarında, eləcə də, dənizdə "Bulla-dəniz" (Nº90), "Ələt-dəniz" (Nº23), "Şahdəniz" (BP əməliyyatçılığı ilə Nº SDX-7) yataqlarında və "Qoşadaş" ərazisində (Nº2) yerinə yetirilmişdir.

**Şəfəq–Asiman [25]**

2012–ci il əvvəllərindən sonra Gilavar seysmik gəmisi Şəfəq–Asiman strukturunda planlaşdırılmış 3D seysmik kəşfiyyat məlumatlarının toplanmasını tamamlamışdır, bu müqavilədə nəzərdə tutulan ərazidə aparılan ilk 3D seysmik kəşfiyyat işləri olmuşdur. Əldə olunan məlumatlar analiz edilir. Bu analiz ölkədə aparılan ən böyük 3D tədqiqatı hesab olunur. 3D seysmik məlumatların əldə edilməsi poqramının bu mərhələsinin tamamlanmasından sonra məlumatların şərh edilməsi üçün təxminən 18 ay və ilk kəşfiyyat quyusunun planlaşdırılması üçün isə daha bir il lazım olacaqdır.

**Abşeron qaz yatağı [26]**

TOTAL, kəşfi və kommersiya bəyanatı 2012–ci ildə sənədləşdirilmiş, Xəzər Dənizində Abşeron Blokunun kəşfiyyat mərhələsinin əməliyyatçısıdır. Yatağın inkişaf planı hal-hazırda hazırlanmaqdadır.

25 "BP şirkəti", "Əməliyyatlar və layihələr", "Şahdəniz", http://www.bp.com/en_az/caspian/operationsprojects/Shahdeniz/projecthistory.html
26 "Total", "Faktbuk 2014", http://www.total.com/sites/default/files/atoms/files/factbook_2014_v2_0.pdf

# 3.3. Azərbaycan iqtisadiyyatına hasilat sənayesinin töhfəsi

Azərbaycan iqtisadiyyatı 2013–cü ildə iqtisadi artımı qoruyub saxlamış və Ümumi Daxili Məhsulun (ÜDM) real artım tempi 5,8% və bazar qiymətlərlə 58,2 mlrd manat olmuşdur və adambaşına düşən ÜDM isə 6,2 min manat təşkil etmişdir. Mədən hasilatı sənayesi məhsullarının istehsalında yaranan əlavə dəyər ÜDM–nin sahə strukturunda aparıcı yer tutmuş və sənayenin ÜDM-də xüsusi çəkisi 39,2% təşkil etmişdir.

**ÜDM–nin istehsal strukturu (2013)** [27]




**Hasilat sənayesindən əldə edilən dövlət gəlirləri.**

2013–cü ildə konsolidasiya edilmiş dövlət büdcəsinin ümumi gəlirləri 23,2 [28] mlrd manat təşkil etmişdir. Hesabat dövründə Azərbaycan Respublikasının icmal büdcəsinə olan mədən hasilatı sənayesi üzrə daxilolmalar 15,3 mlrd manat olmuşdur və bu büdcənin ümumi gəlirlərinin 65,8%–ni təşkil etmişdir.

27 Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi", "Statistik məlumatlar", "ÜDM (rüblük, illik)" 14 oktyabr 2014-cü il, http://www.stat.gov.az/source/system_nat_accounts/
28 "Azərbaycan Respublikası Hesablama Palatası", "Hesablama palatasının fəaliyyəti", "Ekspert–analitik fəaliyyət", "Azərbaycan Respublikasının 2013-cü il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikasının Qanun layihəsinə və dövlət büdcəsinin icrasına dair illik hesabata Azərbaycan Respublikası Hesablama Palatasının rəyi", 15 oktyabr 2014–cü il, http://www.ach.gov.az/?/az/content/468/.

**2013-cü il üzrə hasilat sənayesindən MHŞT hesabatının əhatə etdiyi daxilolmalar**

| Gəlirin növləri | Məbləğ (mln manat) | Faiz nisbəti |
|---|---|---|
| **Azərbaycan Respublikası Dövlət Neft Fondu [29]** | | |
| Mənfəət neftinin və qazın satışından daxilolmalar | 13 108,0 | 56.44% |
| Bonuslar | 1,9 | 0,01% |
| Akrhesabı ödənişlər | 1,8 | 0,01% |
| Tranzit haqqı | 8,1 | 0,04% |
| **Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi [30]** | | |
| Mənfəət vergisi | 1 504,7 | 6,48% |
| Mədən vergisi | 119,3 | 0,51% |
| Əlavə dəyər vergisi | 108,6 | 0,47% |
| Torpaq vergisi | 10,0 | 0,04% |
| Əmlak vergisi | 38,1 | 0,16% |
| Qiymət fərqi | 369,9 | 1,60% |
| Sair vergilər | 2,6 | 0,01% |
| **Cəmi** | **15 273,0** | **65,77%** |

2013–cü ildə ümumi hasilatın həcmi (natura ifadəsində): [31]

| Xammal üzrə Hasilat | Miqdar (min ton) | |
|---|---|---|
| | Quruda | Dənizdə |
| Neft hasilatı (qaz kondensatı daxil olmaqla) | 1 695 | 41 468 |

| Xammal üzrə Hasilat | Miqdar (mln kub metr) | |
|---|---|---|
| | Səmt qazı | Təbii qaz |
| Qaz hasilatı | 13 945 | 15 300 |

29 “Azərbaycan Respublikası Hesablama Palatası”, “Hesablama palatasının fəaliyyəti”, “Ekspert–analitik fəaliyyət”, “Azərbaycan Respublikasının 2013-cü il dövlət büdcəsinin icrası haqqında” Azərbaycan Respublikası-nın Qanun layihəsinə və dövlət büdcəsinin icrasına dair illik hesabata Azərbaycan Respublikası Hesablama Palatasının rəyi”, 15 oktyabr 2014–cü il, http://www.ach.gov.az/?/az/content/468/.

30 “Azərbaycan Respublikası Dövlət Neft Fondu”, “İllik hesabat 2013”, 14 oktyabr 2014-cü il, səh.36, http://www.oilfund.az/uploads/annual_2013az.pdf.

31 “Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi”, “Statistik nəşrlər”, “Nəşrlərin e-versiyası”, “Azərbaycan Sənayesi – Statistik məcmuə”, səh. 323 və səh. 325, 15 oktyabr 2014-cü il, http://www.stat.gov.az/menu/6/statistical_yearbooks.

## İxracatda hasilat sənayesinin payı [32]

Neft və təbii qaz ölkənin əsas ixrac məhsuludur. 2013–cü ildə ümumi ixracat 18,8 mlrd manat təşkil etmişdir. Neft və qaz sektoruna aid olan ümumi ixracat 92% təşkil etmişdir.

2013–cü il ərzində ixrac olunan mallar:

| Məhsulların adı | Miqdarı [33] | Məbləğ (mln manat) [34] | Faiz nisbəti |
|---|---|---|---|
| Xam neft (min ton) | 24 855,9 | 15 881,5 | 84% |
| Neft məhsulları (min ton) | 1 631,1 | 948,1 | 5% |
| Təbii qaz (min $m^3$) | 3 035,1 | 550,7 | 3% |
| Digər məhsullar | - | 1 428,4 | 8% |

## Əsas kapitala cəmi investisiyalar (2013)




32 “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi”, “Azərbaycan Respublikası Xarici Ticarətinin Gömrük Statistikası”, 15 oktyabr 2014-cü il, http://customs.gov.az/statistika/2013.12.pdf.
33 “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi”, “Azərbaycan Respublikası Xarici Ticarətinin Gömrük Statistikası”, “3.3.2. Gömrük bəyannamələri əsasında”,15 oktyabr 2014-cü il, http://customs.gov.az/statistika/2013.12.pdf.
34 “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi”, “Ən çox ixrac olunan mallar”, 15 oktyabr 2014-cü il, http://customs.gov.az/az/ixrac_az_2013.html.

**Məşğulluğun iqtisadiyyatın sahələri üzrə xarakteristikası.**

2013-cü ildə Azərbaycan Respublikasının iqtisadi fəal əhalinin sayı 4 757,8 min nəfər təşkil etmişdir və həmin sayın 4 521,2 min nəfəri məşğul olanlardan ibarət olmuşdur. Mədən hasilatı sənayesinin məşğulluğa olan nisbəti 0.9% olaraq, ümumi saya nəzərən 42,3 min nəfər olmuşdur.[35]

| Məşğulluq | 2013-cü il (min nəfər) |
|---|---|
| İqtisadi fəal əhalinin sayı | 4 757,8 |
| İqtisadiyyatda məşğul olanların sayı | 4 521,2 |
| Mədən hasilatı sənayesində sayı | 42,3 |
| Mədən hasilatı sənayesinin faiz nisbəti | 0.9 % |

**Ümumi məşğulluğun strukturu (2013)** [36]




**İstehsalın cəmləşdiyi əsas region/ərazilər**

Neft ehtiyatlarının əksər hissəsi yəni 80%–i Abşeron Yarımadası, Bakı və Abşeron Arxipelaqı və Xəzər dənizinin şelf zonasının 3000–4000 metr dərinliyində yerləşmişdir. Neft ehtiyatlarının formalaşması suxurları Kaynozoy dövrünə aiddir. Neft istehsalının istismarı Bibiheybət daxil olmaqla, Balaxanı, Sabunçu və Ramanada gedən qazıntı işləriylə əlaqədardır.

35 "Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi", "Statistik nəşrlər", "Nəşrlərin e-versiyası", "Əmək bazarı", "1.1 Əmək bazarının əsas sosial-iqtisadi göstəriciləri", səh. 16, 15 oktyabr 2014-cü il, http://www.stat.gov.az/menu/6/statistical_yearbooks.

36 "Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi", "Statistik nəşrlər", "Nəşrlərin e-versiyası", "Azərbaycanın Statistik Göstəriciləri", "3.5. Məşğul əhalinin iqtisadi fəaliyyət növləri üzrə bölgüsü", səh. 101, 15 oktyabr 2014-cü il, http://www.stat.gov.az/menu/6/statistical_yearbooks.

Əsas neft və qaz istehsalı əraziləri Bakı yaxınlığında yerləşir. Azərbaycan ərazisində Abşeron yarımadası, Aşağı və Orta Kür, Xəzəryanı ərazilər və Şamaxı–Qobustan kimi quruda istismara verilən 5 neft və qaz kondensatı əraziləri vardır. Bu zonalara 43 neft, qaz və kondensat əraziləri daxildir ki, bunlardan da 38–i istismar üçün əlverişlidir.

**Neft (kondensatlar daxil olmaqla), mln ton [37]:**

| Ərazilər | 2011 | 2012 | 2013 |
|---|---|---|---|
| Bakı | 44 673 | 42 346 | 42 558 |
| Siyəzən | 48 | 48 | 49 |
| Neftçala | 39 | 37 | 41 |
| Salyan | 209 | 193 | 187 |
| İmişli | 27 | 24 | 20 |
| Şirvan | 379 | 333 | 308 |
| **Cəmi** | **45 375** | **42 981** | **43 163** |

Bakı yaxınlığında yerləşən mühüm neft istehsalı ərazilərinə misal olaraq Sabunçu, Suraxanı və Bibiheybəti göstərmək olar. 2013–cü ildə Bakıda neft hasilatı 42 558 min tona çatmışdır və bu da ümumi neft hasilatının 98%–ni təşkil etmişdir.

**Təbii qaz, mln. kubmetr. (xammal)**

| Ərazilər | 2011 | 2012 | 2013 |
|---|---|---|---|
| Bakı | 25 685 | 26 745 | 29 196 |
| Siyəzən | 8 | 8 | 7 |
| Neftçala | 4 | 9 | - |
| Salyan | 23 | 24 | 30 |
| Şirvan | 8 | 10 | 12 |
| **Cəmi** | **25 728** | **26 796** | **29 245** |

37 “Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi”, “Statistik nəşrlər”, “Nəşrlərin e-versiyası”, “Azərbaycanın Statistik Göstəriciləri”, “39. “Məhsul formasında əsas sənaye məhsullarının növləri”, səh. 302, 15 oktyabr 2014, http://www.stat.gov.az/menu/6/statistical_yearbooks.

**Qızıl, kq (əsas məhsulun istehsalı)** [38]

| Ərazi | 2011 | 2012 | 2013 |
|---|---|---|---|
| Gədəbəy | 1 775 | 1 562 | 1 619 |
| Cəmi | 1 775 | 1 562 | 1 619 |

**Gümüş, kq (əsas məhsulun istehsalı)** [39]

| Ərazi | 2011 | 2012 | 2013 |
|---|---|---|---|
| Gədəbəy | 1 216 | 626 | 630 |
| Cəmi | 1 216 | 626 | 630 |

**Digər məlumatlar – Hasilat sənayesinə edilən investisiya.** [40]

Hesabat ilində daxili və xarici mənbələrdən əsas kapitala yönəldilən investisiyaların həcmində əhəmiyyətli artım qeydə alınmışdır. 2013-cü ildə əsas kapitala yönəldilən investisiyaların həcmi real ifadədə 15% artaraq 17,8 mlrd manata çatmışdır. Bu investisiyalardan 13,0 mlrd manatı qeyri-neft sektoruna, 4,8 mlrd manatı isə neft sektoruna yönəldilmişdir.

# 3.4. İstehsalın həcmi

2013–cü il ərzində Azərbaycan hökumətinə xarici və yerli hasilat sənayesi şirkətləri tərəfindən təhvil verilmiş məhsullar haqqında məlumat aşağıda göstərilmişdir: [41]

38 “Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi”, “Statistik nəşrlər”, “Nəşrlərin e-versiyası”, “Azərbaycan Sənayesi–Statistik məcmuə”, səh. 177, 15 oktyabr 2014-cü il, http://www.stat.gov.az/menu/6/statistical_yearbooks.

39 “Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi”, “Statistik nəşrlər”, “Nəşrlərin e-versiyası”, “Azərbaycanın Regionları–Statistik məcmuə”, səh. 197, 15 oktyabr 2014-cü il, http://www.stat.gov.az/menu/6/statistical_yearbooks.

40 “Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi”, “2013-cü ilin yanvar-dekabr ayları üzrə əsas kapitala investisiyalar”, 15 oktyabr 2014, http://economy.gov.az/index.php?option=com_content&view=article&id=1121:2013-inv-haq&catid=17:investisiyalar&lang=az.

41 “Azərbaycan Respublikası Dövlət Neft Fondu”, “MHŞT üzrə hökumətin hesabatları”, noyabr 2014-cü il, http://www.oilfund.az.

| Xammal üzrə İstehsalat | Həcmi | | | |
|---|---|---|---|---|
| | **Mln Barrel** | **Min $m^3$** | **Min unsiya** | **Min ton** |
| Xam neft | 157,1 | - | - | - |
| Təbii qaz | - | 13 351,8 | - | - |
| Səmt qazı | - | 2 310 248,0 | - | - |
| Qızıl | - | - | 6,7 | - |
| Gümüş | - | - | 2,6 | - |
| Mis | - | - | - | 0,1 |
| Mis qarışıqlı qızıl | - | - | 0,02 | - |
| Mis qarışıqlı gümüş | - | - | 21,1 | - |

# 3.5. Hasilat sənayesində dövlət iştirakı

## a) Ümumi məlumat

Dövlət müəssisəsi hökumətin kommersiya fəaliyyətini göstərmək üçün hökumət adından çıxış edən müəssisələrdir. O, ya bütövlükdə, ya da tam olaraq hökumətə məxsus olub, kommersiya fəaliyyəti ilə məşğul olur.

HPBS–lərdə iştirak etmək istəyən şirkətlərin seçim prosesi, ilk öncə əvvəlki hər bir HPBS–də olan ilkin seçim meyarları göstərilir: məsələn, maraqlı tərəf enerji sahəsində müvafiq təcrübəyə malik olmalı, sənayedə seçilən pay sahibi və nüfuzu olmalı, terror təşkilatları və s. neqativ hallarda əlaqəli olmamalıdır. Bu meyyarlardan sonra həmin şirkətlərlə SOCAR arasında keçirilən ikitərəfli görüşlərdə hökumət marağını maksimum səviyyədə qorunacağını təmin edərək seçim edilir.

SOCAR ölkə ərazisindəki neft və qaz yataqlarının kəşfiyyatı və işlənməsi, neft və qazın hasilatı, emalı, neft – qaz və neft – kimya məhsullarının daxili və xarici bazarlarda satışı ilə məşğul olan neft şirkətidir.

SOCAR Azərbaycan Respublikası Prezidentinin 13 sentyabr 1992–ci il tarixli 200 saylı Fərmanı ilə “Azərineft” Dövlət Konserninin və “Azərneftkimya” İstehsalat Birliyinin bazasında yaradılmışdır. Hazırda Şirkətin Bakı şəhəri də daxil olmaqla respublikanın bir çox rayonunda (işğal olunmuş rayonlar istisna olmaqla) müəssisələri və dünyanın 22 ölkəsində treydinq ofisləri, nümayəndəlikləri fəaliyyət göstərir. 2013–cü il üzrə, SOCAR ümumilikdə 61,088 nəfər işçi qüvvəsinə, 22 hüquqi şəxs statusuna malik olan, ölkənin ən böyük şirkəti olaraq Azərbaycan Respublikasının iqtisadiyyatında mühüm yer tutur və Xəzər dənizinin Azərbaycan sektorunda və quruda yerləşən yataqlarda HPBS-lər üzrə tərəfdaşdır. 100% səhmlərinin dövlətə məxsus olduğu SOCAR–ın dövlət orqanları qarşısında öhdəliyi var.

### Həcm ifadəsində hasilat [42]

| 2011-2013-cü illərdə sənaye nəticələri | 2011 | 2012 | 2013 |
|---|---|---|---|
| Təsdiq edilmiş neft ehtiyatları, mln ton (Miller & Lents–ə görə) | 78,744 | 71,661 | 78,502 |
| Təsdiq edilmiş qaz ehtiyatları, mln $m^3$ (Miller & Lents–ə görə) | 30,453 | 23,817 | 61,150 |
| Neft hasilatı, mln ton | 8,401 | 8,290 | 8,315 |
| Qaz hasilatı, mln $m^3$ | 7,084 | 6,925 | 7,140 |
| Neft emalı, mln ton | 6,327 | 6,173 | 6,533 |

### Azərbaycan Respublikası üzrə neft hasilatı (milyon ton): [43]




42 "Azərbaycan Respublikası Dövlət Neft Şirkəti", "Şirkət haqqında", səh. 6, Noyabr 2014-cü il, http://www.socar.az/socar/assets/documents/en/socar-annual-reports/sus.dev.rep-2013.pdf
43 "Azərbaycan Respublikası Dövlət Neft Şirkəti", "Davamlı İnkişaf Hesabatı, 2013", "Şirkət haqqında", səh. 7, Noyabr, 2014-cü il, http://www.socar.az/socar/assets/documents/en/socar-annual-reports/sus.dev.rep-2013.pdf

**Azərbaycan Respublikası üzrə qaz hasilatı (mlyrd $m^3$):** [44]




**Maliyyə Nəticələri** [45]

SOCAR-ın gəlir və ümumi mənfəət üzrə üçillik dinamikası:




44 “Azərbaycan Respublikası Dövlət Neft Şirkəti”, “Davamlı İnkişaf Hesabatı, 2013”, “Şirkət haqqında”, səh. 7, Noyabr, 2014-cü il, http://www.socar.az/socar/assets/documents/en/socar-annual-reports/sus.dev.rep-2013.pdf

45 “Azərbaycan Respublikası Dövlət Neft Şirkəti”, “Maliyyə Hesabatı, 2013”, “Konsolidasiya Edilmiş Mənfəət və ya Zərər və Digər Məcmu Gəlir haqqında Hesabat”, səh. 4, Noyabr, 2014-cü il, http://www.socar.az/socar/assets/documents/en/socar-financial-reports/2013.pdf

SOCAR-ın büdcə ödənişləri və nizamnamə kapitalı üzrə üçillik dinamikası:




Xam neftin satışından əldə olunan gəlirlər, xam neftin beynəlxalq bazar qiyməti ilə dövlət tərəfindən tənzimlənən daxili qiyməti arasındakı qiymət marjası üzrə Azərbaycan Respublikasında müvafiq vergi çıxılmaqla göstərilir. Bazar qiyməti ilə dövlət tərəfindən tənzimlənən daxili qiymət arasındakı fərqə 30% qiymət fərqi tətbiq edilir və vergi məbləği Dövlət Büdcəsinə köçürülür. Neft məhsullarının satışından yaranan gəlirlər 570 mln manat (2012–ci il: 482 mln manat məbləğində aksiz vergisi çıxılmaqla göstərilir. AÇG HPBS üzrə hasil edilmiş xam neftin və Şahdəniz HPBS üzrə hasil edilmiş kondensatın ixrac olunduğunda yaranan gəlirlərdən yuxarıda göstərilən aksiz və qiymət marjası üzrə vergilər tutulmur.

## b) Ölkənin hasilat sənayesi üzrə fəaliyyət göstərən dağ-mədən, neft və qaz şirkətlərinin benefisiar sahibliyinin səviyyəsi[46]

2013-cü il ərzində Azərbaycan Dövlət Neft Şirkətinin birgə və asılı müəssisələrdə iştirak payları, hesabat dövründə iştirak payının dəyişməsi, gəlir, aktiv və borc öhdəliklərinə dair məlumatlar aşağıdakı cədvəldə göstərilmişdir:

46 "Azərbaycan Respublikası Dövlət Neft Şirkəti", "Maliyyə Hesabatı, 2013", "16-cı qeyd, Birgə nəzarət edilən müəssisələrdə investisiya", səh. 45-48, noyabr 2014, http://www.socar.az/socar/assets/documents/en/socar-financial-reports/2013.pdf

Birgə müəssisələr:

2.6.2. 3-cü tələbin 3.6.a) yarımbəndinə əsasən, dövlətin hasilat sənayesində iştirakı əhəmiyyətli gəlir ödənişlərinin artmasına səbəb olursa, hökumət və dövlət müəssisələri arasında maliyyə münasibətlərini tənzimləyən qayda və təcrübələrin izahatı MHŞT Hesabatına daxil edilməlidir. Standartın bu yarımbəndinin tələbinə uyğun olaraq Hesabata SOCAR haqqında ümumi məlumat, son 3 ildə Şirkətin hasilat və maliyyə nəticələri üzrə göstəriciləri, dövlət büdcəsinə ödənişlər, kredit və zəmanətlər haqqında məlumatlar  daxil edilmişdir.

Bununla belə, Hesabatın 61-ci səhifəsində verilən "Həcm ifadəsində hasilat" cədvəlindəki məlumatlar SOCAR-ın HPBS-lərdəki paylarını əks etdirmir (neft və qaz ehtiyatları baxımından). Bu cədvəldən sonra təsvir edilən qrafiklərdə də eyni nöqsanlar mövcuddur ki, bunlar da SOCAR-ın imkanları və gücü haqqında təsəvvür formalaşdırmağa imkan vermir. Bu cür yanaşma SOCAR-ın kapitalizasiyasını uyğun şəkildə əks etdirmir.

Standartla tutuşdurma əsasında apardığımız qiymətləndirmə habelə göstərir ki, Standartın bu yarımbəndində tələb olunan məlumatların əksəriyyəti hesabatda əks etdirilməyib: məsələn, SOCAR-ın Maliyyə Nazirliyi, Neft Fondu, Sosial Müdafiə Fondu, Mərkəzi Bank, Azərbaycan Beynəlxalq Bankı qarşısında olan öhdəlikləri və dövlətin şirkətə ayırmaları ilə bağlı göstəricilər hesabatda yoxdur. Bununla yanaşı, SOCAR-ın xaricdəki törəmə müəssisələri vasitəsilə həyata keçirdiyi maliyyə-investisiya fəaliyyətinə, xüsusilə də şirkətlə xaricdəki müəssislərarası maliyyə axınlarına, təkrar investisiya və üçüncü tərəfin maliyyələşdirilməsinə dair məlumatlar da Hesabata daxil edilməmişdir.

Fikrimizcə, bu yarımbəndin tələbinə uyğun olaraq 2013-cü il üzrə MHŞT Hesabatında habelə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi, "Azərbaycan Respublikasının 2013-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanunu, Azərbaycan Respublikasının Vergi Məcəlləsi, Nazirlər Kabinetinin 2005-ci il 9 iyun tarixli 102 saylı "İri dövlət vergi ödəyicilərinin gəlirlər və xərclər smetaları haqqında" Qərarı[63], BVF-nin "Fiskal şəffaflıq üzrə Bələdçi"-sində 1.1.4 bəndi "Hökümət və ictimai korporasiyalar arasında qarşılıqlı əlaqələr" bölməsinə və digər sənədlərə dair izahatlar verilməli idi.

2.6.3. Standartın 3.6.b) yarımbəndində göstərilir ki, dövlətin hasilat sənayesində iştirakı əhəmiyyətli gəlir ödənişlərinin artmasına səbəb olursa, MHŞT Hesabatına dövlət müəssisələrinin sosial xidmətlər, ictimai infrastruktur, yanacaq subsidiyaları və dövlət borcunun ödənilməsi kimi kvazi-fiskal xərclərinin açıqlanması daxil edilməlidir. Yeri gəlmişkən qeyd etməliyik ki, iri milli hasilat şirkətlərinin dövlətin və ya ayrı-ayrı dövlət qurumlarının səlahiyyətində olan sosial və infrastruktur təyinatlı funksiyaların icrasına cəlb edilməsi təcrübəsi bir çox dünya ölkələrinin praktikasında geniş yayılmış bir haldır. Həm də əksər hallarda bu, mövcud şərtlər üzündən (məsələn, dövlətin maliyyə imkanlarının məhdud olması, enerji daşıyıcılarını yerli məhsul istehsalçılarına nisbətən ucuz satmaqla yerli istehsalın canlanmasını təmin etmək, milli hasilat şirkətinin maliyyə nəzarəti mexanizmlərinin daha məsuliyyətli olması və s.) zəruri və effektiv bir vasitə kimi çıxış edir. Yəni, milli hasilat şirkətlərinin kvazi-fiskal fəaliyyəti heç də tamamilə mənfi bir proses və ya korrupsiya elementi kimi qiymətləndirilməməlidir.

Bu tələblə bağlı MHŞT Hesabatında qeyd edilib ki, "MHŞT hesabatı müddətində SOCAR heç bir dövlət borcunun ödənilməsi, sosial xidmətlər, ictimai infrastrukturun yaradılması və yanacaq subsidiyaları kimi kvazi-fiskal xərclər həyata keçirməmişdir" (səh. 67). Amma, MSŞA QHT Koalisiyası ekspertlərinin araşdırmaları tamamilə fərqli nəticələr ortaya qoyur. Belə ki, hesabat ilində SOCAR-ın fəaliyyətində BVF-nin enerji sektoru üzrə müəyyənləşdirdiyi 4 kvazi-fiskal fəaliyyət növündən ən azı 3-ü üzrə kvazi-fiskal əməliyyatların baş verməsini söyləyə bilərik:

Enerjidaşıyıcıları sahəsində kvazi-fiskal fəaliyyət – SOCAR tərəfindən yanacaq və enerji daşıyıcılarının daxili istehlakçılar üçün bazar qiymətindən aşağı qiymətə icbari şəkildə təqdim edilməsi baş verir. Belə ki, SOCAR-ın daxili istehlakçılara təqdim etdiyi yanacaq, neft məhsulları və qazın Azərbaycan Respublikası Tarif Şurasının 2007-ci il 6 yanvar tarixli qərarları ilə müəyyən edilmiş qiymətləri əslində neft, neft məhsulları və qazın 2013-cü ildə qeydə alınan dünya bazar qiymətlərindən daha aşağı olmuşdur, yəni Şirkət neft məhsullarını daxili istehlakçılara icbari şəkildə bazar qiymətindən aşağı qiymətə təqdim etmişdir. 2007-ci ildən başlayaraq dövlət büdcəsi haqqında qanunla ölkədə istehsal edilən və qiymətləri tənzimlənən məhsulların ixracı zamanı məhsulun kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən yığımın tətbiqi də bununla bağlıdır və fikrimizi təsdiq edir. Qeyd edək ki, bu ödəniş mənbəyi üzrə 2013-cü ildə dövlət büdcəsinə 370,56 milyon manat vəsait daxil olmuşdur[64]. ;

Dövlət xərcləri sahəsində kvazi-fiskal fəaliyyət – SOCAR-ın 2013-cü il üzrə illik hesabatlarının araşdırılması göstərdi

63 http://e-qanun.gov.az/framework/10044
64 Azərbaycan Respublikasının 2013-cü il dövlət büdcəsinin icrası haqqında Azərbaycan Respublikasının 2014-cü il 16 may tarixli 958-IVQ saylı Qanunu

ki, Şirkət hesabat ilində ayrı-ayrı dövlət qurumlarının funksiyasına aid olan çox sayda sosial xidmətlər göstərmiş və infrastrukturun yaradılması üzrə böyük məsrəfli layihələri həyata keçirmişdir[65]. SOCAR-ın Nizamnaməsində Şirkətin dövlət tərəfindən həyata keçirilən sosial-iqtisadi inkişaf proqramlarında nəzərdə tutulmuş tədbirlərin təmin edilməsində iştirakı nəzərdə tutulsa da, belə iştirakın həyata keçirilməsi qaydaları Nazirlər Kabineti yaxud başqa dövlət qurumları tərəfindən işlənilməyib.  Qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı SOCAR-a verilən tapşırıqlar müvafiq proqramlarda  bir qədər detallı göstərilsə də, digər dövlət proqramlarında SOCAR-ın iştirakı məsələləri, bir qayda olaraq, ümumi şəkildə qeyd edilir.  SOCAR-ın nə 2013-cü il üzrə hesabatlarında, nə də saytında, nə də müvafiq dövlət qurumlarının saytlarında və hesabatlarında da bu işlərin həyata keçirilməsi ilə bağlı zəruri müqavilələrin bağlanılması barədə məlumatlar yoxdur. Yeri gəlmişkən, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 30 dekabr tarixli 443s saylı Sərəncamında SOCAR-ın strukturuna daxil olan müəssisələrinin vergi borclarının əvəzlənməsinin məqsədlərindən biri kimi "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin icraçısı olduğu müvafiq dövlət proqramları və beynəlxalq layihələr üzrə öhdəliklərin daxili imkanlar hesabına yerinə yetirilməsi üzrə tədbirlərin həyata keçirilməsi"[66] göstərilir.

Məşğulluq sahəsində kvazi-fiskal fəaliyyət – Son illər SOCAR-ın strukturunun təkmilləşdirilməsi və işçilərin sayının optimallaşdırılması, işçilərinin sayının azaldılması, Şirkətin izafi məşğulluqdan və izafi sosial məsrəflərdən azad edilməsi istiqamətində bir sıra addımlar atılır. Bununla belə, araşdırmalar göstərir ki, SOCAR-ın idman sahəsində fəaliyyətləri, belə fəaliyyətlərin maliyyələşmə mexanizmlərinin şəffaf olmaması məşğulluq sahəsində Şirkətin kvazi-fiskal əməliyyatların mövcudluğu barədə fikir yürütməyə əsas verir. Belə ki, SOCAR-ın illik hesabatlarında Şirkətin idman sahəsində, xüsusilə "Neftçi" İdman Sağlamlıq Mərkəzi ilə bağlı fəaliyyətləri və idman uğurları barədə məlumat 67 verilsə də,  idmanla peşəkar məşğul olan şəxslərin, peşəkar məşqçilərin SOCAR-ın işçi heyətinə daxil olub-olmaması, idman obyektlərinin saxlanılmasına və idmançılara çəkilən xərclər barədə məlumatlar yoxdur. "Neftçi" Futbol Klubu SOCAR-a məxsus olduğu halda nə Şirkətin hesabatlarında, nə onun saytında, nə də bu Futbol Klubunun saytında bu barədə heç bir məlumat yoxdur. Habelə SOCAR-ın Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) və CBC televiziya kanalı ilə münasibətləri də aydınlıq gətirilməli xərclərdir.

Bütün bunları nəzərə alaraq, MHŞT Hesabatında SOCAR-ın kvazi-fiskal əməliyyatları ilə bağlı məsələyə diqqətin artırılmasını zəruri hesab edirik.

2.6.4. Standartın 3-cü tələbinin 3.6.c) yarımbəndi dövlət şirkətlərinin benefisiar sahibliklə bağlı MSŞT Hesbatına daxil etməli olduğu məsələləri əhatə edir. 2013-cü il üzrə MHŞT hesabatında SOCAR-ın benefisiar sahibliklə bağlı açıqladığı məlumatlarda birgə və asılı müəssisələrdə dövlət şirkətinin payı, gəlir və aktivlərin həcmi və borc öhdəlikləri ifadə olunub. Bütün bu məlumatlar yalnız SOCAR-a aiddir. MHŞT standartları isə tələb edir ki, dövlət müəssisələri MHŞT hesabatlarına birgə və asılı şirkətlərin kapitalındakı payı, həmçinin layihə dövrünün müxtəlif mərhələlərində xərcləri ödəmək cavabdehliyi, məsələn: tam ödənmiş kapital, sərbəst kapital və yarımaktiv (nominal) iştirak paylarını daxil etsin (Hesabatda dövlətin payları haqqında məlumatlar təsvir edilir). Həmçinin MHŞT Hesabatı müddətində hökumət və dövlət təşkilatlarının sahiblik səviyyəsində dəyişikliklər baş verərsə, hökumətdən və dövlət təşkilatlarından transaksiyanın şərtlərini, o cümlədən qiymətləndirmə və gəlirlərə dair təfərrüatları açıqlamaq tələb olunur. Eyni zamanda hökumət və dövlət müəssisəsələri ölkə daxilində fəaliyyət göstərən mədən, neft və qaz şirkətlərinə kredit və ya kredit zəmanəti verdikləri hallarda, bu əməliyyatların təfərrüatları MHŞT Hesabatında açıqlanmalıdır.

2013-cü il MHŞT Hesabatında göstərilir ki, bu hesabatlılıq müddətində hökumət və SOCAR arasında benefisiar sahiblik səviyyəsində dəyişiklik olmamışdır. Eyni zamanda, hesabatlılıq müddətində SOCAR-ın tabe şirkətlərində və birgə müəssisələrində benefisiar sahibliyində də heç bir dəyişiklik olmamışdır (səh. 64-66).

---

65 ARDNŞ: Davamlı inkişaf üzrə hesabat - 2013-ci il, səh. 48-50 http://socar.az/socar/az/social-responsibility/social-support/care-about-displaced-persons; SOCAR: İllik hesabat 2013, səh.103-104 http://socar.az/socar/assets/documents/az/socar-annual-reports/illik-hesabat2013az.pdf

66 http://e-qanun.gov.az/framework/22855

67 ARDNŞ: illik Hesabat – 2013. Səh. 108; ARDNŞ: Davamlı inkişaf üzrə hesabat - 2013-ci il, səh. 51

Lakin, SOCAR-ın 2013-cü il üzrə İcmal Maliyyə Hesabatı[68] ilə tutuşdurduqda məlum olur ki, dövlət şirkətinin benefisiar sahibliklə bağlı bir çox məlumat və dəyişiklikləri MHŞT hesabatı çərçivəsində açıqlamayıb. SOCAR-ın 2013-cü il üzrə İcmal Maliyyə Hesbatından bəlli olur ki, həmin ildə şirkətin birgə və asılı müəssisələrində nizamnamə kapitalına əlavələr, investisiya qoyuluşu və başqa dəyişikliklər baş verib. Şirkətin İcmal Maliyyə Hesabatından birgə və asılı müəssisələrində kapitalın dəyişməsi, investisiyalar və başqa dəyişikliklərlə bağlı aşağıdakı çıxarışlara nəzər salaq[69]:

2013-cü il ərzində ARDNŞ tərəfindən yaradılmış Socar Turkey Yatirim A.S. STEAS-ın STAR emal zavodunda bütün səhmlərini alıb. Sonradan Socar Turkey Yatirim A.S. səhmlərin 40%-ni Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə və 18.5 faizini Turcas-a satmışdır. Qrupun Socar Turkey Yatirim A.S-də iştirak payı 41.5 faiz təşkil edir və kapital metodu ilə uçota alınır.

2013-cü il ərzində Qrup Socar Turkey Yatirim A.S-in nizamnamə kapitalına 144 milyon AZN məbləğində vəsait yönəltmişdir. 2013-cü ilin iyul ayında ARDNŞ qrupu SOCAR International DMCC-nin səhmlərinin qalan 50 faizini əldə etmişdir. Bunun nəticəsində Qrup SOCAR International DMCC üzrə nəzarəti əldə etmişdir.

2013-cü il ərzində ARDNŞ SOCAR Ümid MMC və Azərbaycan Rigs MMC birgə nəzarət altında olan müəssisələrin nizamnamə kapitalına, müvafiq olaraq, 84 milyon AZN və 19 milyon AZN məbləğində əlavə vəsaitlər yatırmışdır.

2013-cü ilin iyul ayında Star Gulf FZCO ilə bağlı səhmdarların müqaviləsi dəyişdi və ARDNŞ bu birgə müəssisə üzrə nəzarəti əldə etdi (ARDNŞ tərəfindən heç bir ödəniş edilmədən). Nəticədə, Star Gulf FZCO və “BosŞelf” MMC (Star Gulf FZCO-nun burada 50 faiz iştirak payı var) ARDNŞ-nin törəmə müəssisələrinə çevrilmişdir.

2013-cü ilin ikinci yarısı ərzində ARDNŞ-in törəmə müəssisəsi SOCAR Overseas SOCAR Petroleum-da qalan 49 faiz iştirak payını əldə etmişdir və nəticədə bu şirkət üzərində nəzarət əldə olunmuşdur. 2013-cü ilin iyul ayında asılı müəssisə olan SOCAR International DMCC-də qalan 50 faiz  səhmləri əldə etmişdir. Nəticədə, SOCAR İnternational DMCC-nin SOCAR Aurora Terminal-a 30 milyon AZN məbləğində investisiyası ARDNŞ-in birgə müəssisəsi kimi tanınmışdır.

Deməli, MHŞT Hesabatının bu hissəsinin də təkmilləşdirilməsi diqqət mərkəzində olmalıdır.

2.7. Standartın 3-cü tələbinin 3.7-ci bəndi hasilat  sənayesindən daxil olan gəlirlərin bölünməsi və istifadəsinin MHŞT hesabatlarında təsvir olunmasını tələb edir. Bu tələbə əsasən hasilat sənayesi üzrə hansı gəlirlərin (dəyər və natural ifadəsində) milli  büdcədə qeyd edildiyi MHŞT Hesabatında əks olunmalıdır. Gəlirlər milli büdcədə qeyd edilmədikdə bu gəlirlərin necə bölüşdürülməsi izah olunmalıdır. 2013-cü il üzrə MHŞT Hesabatının 3.6-cı bölməsində 2013-cü ildə ARDNF-in gəlirlərinin formalaşma mənbələri və xərclərin bölgüsü təqdim olunmuşdur. Lakin, Standartın tələbinə uyğun olaraq, hasilat sənayesindən dövlət büdcəsinə daxilolmalar haqqında məlumat burada yoxdur. Hökumətin hər ilin büdcə qanunu layihəsi ilə birlikdə Milli Məclisə təqdim etdiyi büdcə zərfində hasilat sənayesindən dövlət büdcəsinə daxilolmalar barəsində detallı məlumatlar olur. Həmin məlumatların sistemləşdirilərək Hesabatın bu hissəsinə əlavə edilməsi həm Standartın tələblərinə əməl etmək, həm də Hesabatı təkmilləşdirmək baxımından məqsədəuyğun olardı.

2.8. Standartın 3.8-ci bəndi gəlirlərin idarə edilməsi və xərclər barədə əlavə məlumatların hesabatlara daxil edilməsini təşviq edir. Təşviq olunan məlumatların 2013-cü il hesabatına daxil edilməməsi ilə bağlı ÇQ-də ümumi razılıq əldə olunsa da, QHT Koalisiyası Şurası növbəti illər üzrə hesabatlara bu məlumatların da daxil edilməsini ölkəmizin şəffaflıq imicinin yüksəldilməsi baxımından əhəmiyyətli hesab edir.

2.9. Standartın 3.9 və 3.10-cu bəndləri ilə bağlı MHŞT Hesabatında müvafiq qeydlər edilmişdir. Bunula belə növbəti illər üzrə hesabatlarda bu məlumatların təkmilləşdirilməsini və daha dəqiq ifadə edilməsini zəruri hesab edirik. Məlumdur ki, Azərbaycan Respublikasında biznes fəaliyyətinin bəzi növləri xüsusi icazələrin (lisenziyaların) verilməsi Azərbaycan

68 SOCAR: Maliyyə hesabatı 2013, http://socar.az/socar/assets/documents/az/socar-financial-reports/Maliyye.hesabat.2013.pdf
69 SOCAR: Maliyyə hesabatı 2013, səh. 46 - 52

Respublikası Prezidentinin Fərmanları ilə tənzimlənir[70]. Mədən sənayesində isə kəşfiyyət və hasilat fəaliyyəti üçün xüsusi icazələrin (lisenziyaların) verilməsi lisenziyalaşdırılmır. Bu sahədə fəaliyyət göstərmək üçün icazənin alınması (HPBS-lərin bağlanması prosedurları) qısa şəkildə bu Hesabatın "Müvafiq dövlət qurumlarının rolu və vəzifələri" bölməsində qeyd edilir. Bu zaman əsas normativ sənəd kimi Enerji Nazirliyinin Əsasnaməsi göstərilir[71]. Əsasnamədə isə prosedur çox ümumi və qısa şəkildə təsvir edilir. Ümumiyyətlə, Azərbaycan Respublikası mədən sənayesində fəaliyyətləri tənzimləyən normalar yerli və xarici investorlar üçün daha aydın və əhatəli şəkildə öz əksini qanunvericilikdə tapmalıdır.

2.10. Standartın 3.11-ci bəndi – benefisiar sahiblik məsələsi – üzrə məlumatların MHŞT Hesabatlarında açıqlanması yalnız 2016-cı ildən tələb olunacaq. Rəy verdiyimiz MHŞT Hesabatında da qeyd edildiyi kimi, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan respublikasının Qanununda dəyişikliklər edilməsi barədə 12 iyun 2012–ci il tarixli Qanuna əsasən hüquqi şəxslərin təsisçisi barədə məlumatlar ölkəmizdə komersiya sirri hesab olunur. Həmin məlumatlar üçüncü şəxslər tərəfindən yalnız həmin müəssisələrin səhmdarlarının razılığı ilə əldə edilə bilər. Buna görə də Koalisiya Şurası 2016-cı il üzrə MHŞT Hesabatının hazırlıqlarının başlanması dövrünədək bu məsələnin həllinə nail olmaq üçün ÇQ-da müzakirələrin aparılmasını və müvafiq dövlət qurumlarına müraciət edilməsini məqsədəuyğun hesab edir.

2.11. Standartın 3-cü tələbinin sonuncu – 3.12-ci bəndi sazişlər haqqında məlumatlarla bağlıdır. Burada qeyd olunur ki, MHŞT-ni tətbiq edən ölkələrdə neft, qaz və minerallarıın hasilatını tənzimləyən şərtlərə dair hər hansı sazişləri və lisenziyaları ictimaiyyətə açıqlamaq alqışlanır. Qeyd etməliyik ki, 2013-cü ilin MHŞT Hesabatının 49-51-ci səhifələrində neft və qaz yataqları üzrə fəaliyyətdə olan sazişlərin siyahısı, sazişlərin imzalanma tarixi, saziş iştirakçıları və onların payları haqqında məlumatlar yerləşdirilib. Azərbaycanın neft-qaz sazişlərinin MHŞT-nin saytına yerləşdirilməsi ilə bağlı ÇQ-nin qərarının olmasına baxmayaraq bu məsələnin həlli nədənsə ləngiyir. Azərbaycan Respublikası üzrə MHŞT katibliyinin bu məsələnin həllinə diqqətini artırmasını zəruri hesab edirik.

70 http://e-qanun.az/framework/898
71 http://www.minenergy.gov.az/db/EN_Esasname.pdf

# III. Hesabatın əsas (üzləşmə prosesi və onun nəticələri) bölməsinin təhlili

Standartın 4-cü tələbi hökumətin hasilat sənayesindən olan bütün gəlirlərinin və hasilat şirkətlərinin hökumətə bütün əhəmiyyətli ödənişlərinin MHŞT Hesabatında hərtərəfli əks olunmasından ibarətdir. Standartın 4.1 bölümü MHŞT Hesabatında əhatə ediləcək ödəniş və gəlir növləri ilə əlaqədar tələbləri təsvir edir.

MHŞT Hesabatında qeyd edilir ki, ÇQ-nin 10 dekabr 2014–cü il tarixli 34-cü iclasında gedən müzakirələrə əsasən infrastruktur müddəaları və barter tədbirlərinə dair, sub-milli ödənişlər və köçürmələrə dair, habelə sosial xərclərə dair məlumatlar Azərbaycan Respublikasında tətbiq edilmədiyindən 2013-cü il üzrə MHŞT hesabatına daxil edilməmişdir. Başqa sözlə, qeyd edilənlərdən başqa hasilat sənayesi ilə bağlı bütün digər ödəniş və daxilolmalar MHŞT Hesabatında əksini tapmışdır.

Hesabatın bu bölməsini öyrənilməsi və təhlili əsasında aşağıdakıları müəyyənləşdirdik:

3.1. Xarici neft şirkətlərinin neft gəlirlərindən hökumətə etdiyi ödənişlərin məbləğində yaranan 22,2 mln. ABŞ dolları fərqin izahını tam bitkin etmək olmaz. Belə ki, hesabatın “5.6. Düzəlişlər” bölməsində bu fərqin izahı cədvəli verilir (səh. 81). Oradan məlum olur ki, Bahar Energy Limited və Binəqədi Oil Company şirkətləri müvafiq olaraq 0,1 və 5,1 mln. ABŞ dolları məbləğində vəsaiti SOCAR-a köçürdükləri halda bunu şablon hesabatlarda hökumətə köçürmələr kimi göstərmişdir. Belə bir səhvin olması başa düşüləndir. Amma Əli Bayramlı Neft MMC və Salyan Neft MMC-nin müvafiq olaraq 14,4 mln və 2,6 mln.ABŞ dolları məbləğində vəsaiti səhvən niyə şablon hesabatlara daxil etdiyinin izahı yoxdur: bu vəsaitlər hansısa quruma köçürülməyibsə, hesabat şablonuna necə düşə bilərdi? Ehtimal edirik ki, müvafiq məbləğli köçürmələr hansısa formada baş verib ki, bunlar səhvən hesabat şablonuna daxil edilib. Buna aydınlıq gətirilməsini zəruri hesab edirik.

3.2. Hesabatda nəqletmə və tranzit gəlirləri ilə bağlı məlumatlarda qarışıqlıq var. MHŞT Standartında (4.1 f bəndi) göstərilir ki, “neft, qaz və mineral ehtiyatların daşınmasından əldə olunan gəlir mineral ehtiyatların hasilatı sektorunda ən böyük gəlir axınlarından birini təşkil edərsə, hökumətdən və dövlət müəsisələrindən gəliri açıqlamaq nəzərdə tutulur”. Hazırda nəqletmə gəlirləri hasilat sektorunun iri gəlirləri fonunda çox az görünür. Amma buna baxmayaraq, ölkənin geniş şəbəkəli nəqletmə infrastrukturunu (strateji əhəmiyyətli neft-qaz boru kəmərləri, dəniz və dəmir yolu daşınmaları), habelə strateji tranzit potensialını nəzərə alaraq, ÇQ bu gəlirlərin mərhələli şəkildə tam olaraq MHŞT hesabatına daxil edilməsinə nail olmalıdr.

2013-cü il üzrə MHŞT Hesabatında nəqletmə və (və ya) tranzit gəlirləri ilə bağlı məlumatlar həm kontekstual hissədə, həm də tutuşdurmada qarışıq və səthi verlimşidir. Belə ki, nəqletmə və tranzit gəlirləri Hesabatın ayrı-ayrı yerlərində fərqli adlarla təqdim olunur ki, bu da anlaşılmazlıqlar yaradır:

1) 3.6-cı bölmədə (səh.68) 2013-cü ildə ARDNF gəlirlərinin formalaşma mənbələri cədvəlində “tranzit haqları üzrə ödənişlər “ – 8,1 mln. AZN göstərilir,

5.1-ci bölmədə xarici hasilat şirkətləri üzrə üzləşmə prosesi cədvəlində (səh. 74) “ARDNF-ə nəqletmə tarifi” - 10,3 mln. ABŞ dolları göstərilir: müvafiq dövrə olan mübadilə kursuna uyğun olaraq bu göstəricilər üst-üstə düşür.

Bundan başqa, ARDNF-ın 2013-cü il büdcəsinin icrası haqqında Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 22 may tarixli Sərəncamında bu gəlir mənbəyi “Neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən əldə edilən gəlirlər” adı altında təqdim edilir (məbləğ – 8,1 mln. AZN)[72]. ARDNF-in 2013-cü il üzrə illik Hesabatında bu, “tranzit haqqları üzrə ödənişlər” kimi[73] (səh. 68) verilir (məbləğ – 10,3 mln. ABŞ dolları).

Üzləşmə prosesində bu ödəniş növü üzrə xarici hasilat şirkətləri və hökumət arasında yaranan və üzləşdirmə cədvəlində (səh. 37) əks olunan 6,6 mln. ABŞ dolları məbləğində kənarlaşmanın düzəlişi ilə bağlı Hesabatda (“5.6. Düzəlişlər” bölməsi, səh. 82-də) verilmiş izahın daha aydın şəkildə təqdim edilməsi zəruridir. İzahatda bildirilir ki, bu məbləğ Azərbaycan hökumətinə çatan mənfəət neftinin Qərb İxrac Boru Kəməri ilə ötürülməsinə görə ARDNF-in ödədiyi vəsaitdir. İzahatdan həm də belə çıxır ki, bu vəsaiti ARDNF ABƏŞ-ə ödəmişdir. İzahatda vurğulanır ki, “əməliyyatın xüsusiyyətinə görə bu fərq daimidir”. Buna görə də bu vəsaitin hərəkət mexanizminin hesabatda daha aydın şəkildə təqdim edilməsini zəruri hesab edirik.

Əsas ixrac boru kəməri olan BTC-dən hökumətin əldə etdiyi dividend haqqında məlumat isə 2013-cü ildə nə MHŞT Hesabatında, nə də ARDNF-in hesabatında verilməmişdir. Halbuki 2012-ci ilədək bu məlumat həmin hesabatlarda olurdu.

3.3. SOCAR-ın hökumətə ödədiyi mənfəət vergisinin məbləğində qeydə alınmış 17,0 milyon manatlıq fərqin izahı əlavə şərh tələb edir. Hesabatın “5.6. Düzəlişlər” bölməsində yerli şirkətin hökumətə ödədiyi mənfəət vergisində yaranan 17,0 milyon manatlıq fərqin səbəbi kimi 2013-cü ildə SOCAR-ın müəssisələrinin şəxsi vərəqələrində dövlət büdcəsinə olan vergi borclarının qarşılıqlı əvəzləşmə protokolunun olması göstərilir. Hesab edirik ki, Müstəqil Administrator belə qarşılıqlı əvəzlənmənin aparılmasının hüquqi əsasını burada qeyd etməli idi, çünki yalnız bu halda qeyd edilən qarşılıqlı əvəzlənmənin mövcud hüquqi normalara uyğunluğunu qəbul etmək olar.

3.4. Hökumətə natural şəkildə təhvil verilən təbii qazın həcmi ilə bağlı informasiyada qarışıqlıq var. Belə ki, MHŞT Hesabatının 9-cu səhifəsində ilkin hesabat formalarına əsasən üzləşmə prosesi başa çatdıqdan və fərqlər aradan götürüldükdən sonra hasilat şirkətləri və Hökumət tərəfindən göstərilən ödənişlər və gəlirlər arasında xalis fərqi əks etdirən cədvəl verilir. Cədvəldən məlum olur ki, hesabat ilində Hökumət hasilat şirkətlərindən natural formada 13351,8 min m3 təbii qaz alıb, amma şirkətlər bu barədə məlumatı ilkin hesabat məlumatlarına bunu daxil etməyib, üzləşdirmədən sonra müvafiq düzəliş aparılıb. Hesabatın 75-ci səhifəsində 5.1 altbölməsinin 2-ci cədvəlində xarici hasilat şirkətləri tərəfindən hökumətə edilən natural ifadədə köçürmələrin məcmusu təqdim edilib. Həmin cədvəlin məlumatına əsasən, Hökumət xarici hasilat şirkətlərindən 13351,8 min $m^3$ təbii qaz alıb, xarici hasilat şirkətləri bu barədə məlumatı ilkin hesabata daxil etməyib, lakin üzləşdirmədən sonra yekun cədvəldə hasilat şirkəti məlumatı təsdiq edib və fərq aradan qaldırılıb. Hesabatın 86-cı səhifəsindəki məlumatlardan aydın olur ki, bu yanlışlığa yol verən, yəni həmin həcmdə təbii qazı təhvil verən və bu məlumatı hesabata daxil etməyən xarici hasilat şirkəti Bahar Energy Limiteddir. Auditor yazır ki, “Şirkət SOCAR–a köçürülən təbii qazın məbləğini daxil etməmişdir. Biz köçürmə aktlarını nəzərdən keçirdik və yaranmış fərqlərə dair düzəlişlər etdik”. Hesabatın 106-cı səhifəsində Bahar Energy Limited üzrə yekun cədvəldə də bu həcmdə təbii qazın şirkət tərəfindən hökumətə verilməsi əksini tapıb.

Bununla yanaşı, Hesabatın 78-ci səhifəsində 5.4 altbölməsinin 2-ci cədvəlində yerli hasilat şirkətləri tərəfindən hökumətə edilən natural ifadədə köçürmələrin məcmusu əks olunub. Bu cədvəldən məlum olur ki, 13351,8 min m3 təbii qaz yerli hasilat şirkəti tərəfindən hökumətə təhvil verilib və hökumət də bu qazı aldığını təsdiq edib. Hesabatın 121-ci səhifəsində SOCAR üzrə yekun cədvəldən məlum olur ki, eyni həcmdə təbii qazı hökumətə təhvil verən yerli hasilat şirkəti SOCAR-dır.

Belə çıxır ki, Hesabatın 37-ci səhifəsində hökumətə təhvil verilən və hökumətin hasilat şirkətlərindən aldığı natural formada təbii qazın həcmi 13351,8 min m3 olduğu halda, Hesabatın 5-ci bölməsinin məlumatlarında həm xarici, həm də yerli hasilat şirkətlrinin eyni həcmdə təbii qazı natural formada hökumətə təhvil verdiyi ortaya çıxır.

72 http://www.oilfund.az/az_AZ/huequqi-senedler/fondun-buedcesine-dair/fondun-budcesine-dair-22052014.asp
73 http://www.oilfund.az/uploads/annual_2013az.pdf

Hesabatın “5.6. Düzəlişlər” altbölməsində xarici hasilat şirkəti olan Bahar Energy Limitedin bu təbii qazı SOCAR-a verdiyi göstərilir. Belə anlaşılır ki, həmin qaz Bahar Energy Limited tərəfindən SOCAR-a təhvil verilib, SOCAR da hökumətə verib. Burada bir anlaşılmazlıq (yaxud qarışıqlıq) var: SOCAR hökumət adından qazın istifadəçisi olduğu halda onun təbii qazı hökumətə təhvil verməsi nə deməkdir?

Hesab edirik ki, bu məsələdə anlaşılmazlıq aradan qaldırılmalıdır: Hesabatda natural formada təbii qazın hasilat şirkətləri tərəfindən hökumətə (yəni onun təmsilçisi kimi SOCAR-a) təhvil verilməsi göstərildiyi halda, həmin qazın SOCAR tərəfindən yenidən hökumətə təhvil verilməsinin qeyd edilməsinə və bunula da eyni göstəricini Hesabatda 2 fərqli formada əks etdirməklə qarışıqlıq yaradılmasına ehtiyac yoxdur.

3.5. Təbii qazla bağlı yuxarıda qeyd edilən irad eynilə səmt qazının həcmi ilə bağlı da müşahidə olunur. Hesabatın 5.1 və 5.4 altbölmələrində eyni həcmlərdə səmt qazının həm xarici, həm də yerli hasilat şirkətləri tərəfindən SOCAR-a təhvil verilməsi əks olunub. Halbuki, araşdırmadan məlum olur ki, qeyd edilən həcmdə səmt qazını xarici hasilat şirkətləri SOCAR-a təhvil vermişdir.

3.6. Hesabatda UGE-Lancer PTE. Ltd şirkətinin hökumətə natural formada təhvil verdiyi təbii qazın həcmi ilə bağlı da anlaşılmazlıq var: Hesabatın 127-ci səhifəsində (“Əlavələr” hissəsində) UGE-Lancer PTE. Ltd şirkəti üzrə ödənişlər cədvəlindən məlum olur ki, hesabat ilində bu şirkət hökumətə 5328,8 min m3 təbii qaz təhvil verib, hökumət də bunu təsdiq edib. Lakin hesabatın nə 37-ci səhifəsindəki ümumi cədvəldə, nə 75-ci səhifəsində olan 5.1 altbölməsinin 2-ci cədvəlində, yəni xarici hasilat şirkətləri tərəfindən hökumətə natural formada ödənişlərində bu məbləğ əks olunmayıb. Yuxarıda da qeyd etdiyimiz kimi, Hesabatda (5.1 altbölməsinin 2-ci cədvəlində) 2013-cü ildə xarici hasilat şirkətləri tərəfindən hökumətə natural formada 13351,8 min m3 təbii qazın təhvil verilməsi göstərilir və bu məbləği ödəyən xarici şirkətin Bahar Energy Limited-in olduğu bildirilir. Onda UGE-Lancer PTE. Ltd şirkətinin natural formada təhvil verdiyi (və hökumətin təsdiq etdiyi) təbii qazın həcmi yekun cədvəllərə niyə daxil edilməyib?

3.7. Xarici hasilat şirkətləri tərəfindən Hökumətə təhvil verilən səmt qazının həcmi ilə bağlı məlumatlarda qeyri-müəyyənlik var. Hesabatın 75-ci səhifəsində olan 5.1 altbölməsinin 2-ci cədvəlində xarici hasilat şirkətləri tərəfindən Hökumətə təhvil verilən səmt qazının həcminin 2310248 min m3 olması göstərilir. Hesabatın əlavələr hissəsində şirkətlər üzrə hesabat cədvəlləri üzrə müvafiq məlumatları toplayanda isə şirkətlərin hökumətə təhvil verdiyi səmt qazının həcmi 2304919, 1 min m3 alınır, yəni 5328,9 min m3-lik fərq yaranır. Müstəqil Administratorun buna aydınlıq gətirməsi tələb olunur.

# IV. Nəticə və tövsiyyələr

MSŞA QHT Koalisiyası Şurası Azərbaycan Respublikasının 2013-cü il üzrə MHŞT Hesabatını dərindən öyrənməklə, onun MHŞT Standartının tələblərinə uyğunluğunu qiymətləndirməklə, habelə zəruri araşdırma və təhlillər aparmaqla belə bir qənaətə gəlir ki:

Azərbaycan Respublikasının 2013-cü il üzrə MHŞT Hesabatında hasilat sənayesinin dövlət gəlirlərində və ölkə iqtisadiyyatındakı rolu ilə bağlı indiyədək cəmiyyət üçün açıq olmayan, ölkə vətəndaşları və bütün maraq qrupları üçün əhəmiyyətli olan böyük həcmdə informasiya toplanmışıdır. Buna görə də bu Hesabatı hökumətin və mədən sənayesi şirkətlərinin fəaliyyətində şəffaflığı artırmaq istiqamətində irəliyə doğru atılmış addım hesab etmək olar;

Azərbaycan Respublikasının 2013-cü il üzrə MHŞT Hesabatı əksər tələblər üzrə MHŞT Standartının tələblərinə uyğun hazırlanmışdır;

Bununla belə, Hesabatda MHŞT Standartının bir sıra tələblərinə tam və ya qismən əməl edilməməsi halları, habelə üzləşmə prosesi ilə bağlı çatışmazlıqlar və anlaşılmazlıqlar  mövcuddur ki, bunlar da yuxarıda qeyd edilmişdir.

MSŞA QHT Koalisiyası Şurası Azərbaycan Respublikasının 2013-cü il üzrə MHŞT Hesabatında qeydə alınan MHŞT Standartı ilə uyğunsuzluqların, çatışmazlıqların və üzləşmə prosesində müşahidə edilən anlaşılmazlıqların aradan qaldırılması, növbəti illər üzrə MHŞT Hesabatlarının daha təkmil alınması üçün aşağıdakı təklif və tövsiyələri irəli sürür:

# 1. MHŞT üzrə Çoxtərəfli Qrupa tövsiyə olunur:

1.1. Ölkədə hasilat sənayesinin fəaliyyətini tənzimləyən və fiskal rejimlə bağlı qanun və fərmanlarla yanaşı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qəbul etdiyi müvafiq qərar və sərəncamların icmalının da Hesabata daxil edilməsi təmin edilsin;

1.2. Hesabat ili ərzində hasilat sənayesinin fəaliyyətini tənzimləyən hüquqi normalarda, fiskal rejimdə və dövlət qurumlarının rolunda baş verən dəyişikliklərin (islahatların) Hesabatda ayrıca şəkildə şərhlərlə birgə daxil olunması təmin edilsin;

1.3. Hesabat ili ərzində hasilat sənayesinin iqtisadiyyata töhfəsi barədə məlumatlarla yanaşı MHŞT Hesabatında ayrı-ayrı hasilat şirkətləri üzrə investisiya və məşğulluq göstəricilərinin verilməsi məqsədəuyğundur;

1.4. Növbəti illərin MHŞT hesabatlarına bütün yataqlar və məhsul növləri (neft, qaz, kondensat, qızıl, gümüş və s.) üzrə ehtiyatların həcminin daxil edilməsi şəffaflığın artırılmasına xidmət edərdi;

1.5. Növbəti illər üzrə ölkə hesabatlarına MHŞT Standartın 3.5-ci tələbinə uyğun (ümumi hasilat həcmləri və növlər üzrə məhsulların dəyəri, ümumi ixrac həcmləri və növlər üzrə məhsulların ixracının dəyəri) məlumatların daxil edilməsi təmin edilsin;

1.6. Dövlət şirkətinin borc öhdəliklərinə dair ümumiləşdirilmiş məlumatlar, xüsusilə də SOCAR-ın əlaqəli tərəflərlə əməliyyatlar üzrə qalıqlarına dair maliyyə münasibətlərini xarakterizə edən göstəricilərin hesabatlara daxil edilməsi üçün zəruri işləri həyata keçirsin;

1.7. SOCAR-la  hökumət və dövlət orqanları, habelə digər dövlət şirkətləri, eləcə də SOCAR-la iri özəl şirkətlər və banklar arasında vəsaitlərin köçürülməsi, bölüşdürülməmiş gəlirlər, təkrar investisiya və üçüncü tərəfin maliyyələşdirilməsinə dair məlumatların MHŞT hesabatlarına daxil edilməsini diqqətdə saxlasın;

1.8. MHŞT Hesabatında SOCAR-ın kvazi-fiskal əməliyyatları ilə bağlı məsələyə diqqəti artırsın və Müstəqil Administartora növbəti ilin hesabatında Standartın 3.6.b) yarımbəndi üzrə daha dolğun məlumatların daxil edilməsini tələb etsin;

1.9. ÇQ-da benefisiar sahibliyin dövlət müəssisələri ilə bağlı əhatə dairəsi, SOCAR-ın kvazi-fiskal fəaliyyətləri və sosial xərcləmələri ilə bağlı məsələlər üzrə ekspertlərin iştirakı ilə müzakirələr təşkil edilsin və həmin istiqamətlərdə MHŞT Standartından irəli gələn tələblərə aydınlıq gətirilsin;

1.10. SOCAR-ın ölkədən xaricdə fəaliyyət göstərən törəmə, asılı və birgə müəssisələri vasitəsilə idarə edilən ümumi aktivləri, kapitalda dəyişiklər, layihə dövrünün müxtəlif mərhələlərində xərcləri ödəmək cavabdehliyi ilə bağlı məlumatların Hesabata daxil edilməsi üçün iş aparsın;

1.11. Növbəti illər üzrə MHŞT hesabatlarına Standartda təşviq olunan məlumatların daxil edilməsi ölkəmizin şəffaflıq imicinin yüksəldilməsi baxımından əhəmiyyətli olduğundan ÇQ bu istiqamətdə müvafiq addımların atılması imkanlarını müzakirə etsin;

1.12. 2016-cı il üzrə MHŞT Hesabatına hazırlıqlar başlananadək benefisiar sahibliyin açıqlanması məsələsinin həllinə nail olmaq üçün ÇQ-da müzakirələr aparılmalı və zəruri addımlar barədə müvafiq dövlət qurumlarına müraciətlər edilməlidir;

1.13. Azərbaycanın neft-qaz sazişlərinin MHŞT-nin saytına yerləşdirilməsi ilə bağlı ÇQ-nin əvvəllər qəbul etdiyi qərarların icrasının sürətləndirilməsi zəruriliyini bir daha MHŞT katibliyinin diqqətinə çatdırsın. Hasilatın pay bölgüsü sazişlərlərin hər birinin ictimai əlçatanlığının təmin edilməsi işi qısa müddət ərzində başa çatdırılsın;

1.14. Nəqletmə gəlirlərinin Azərbaycan üçün mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alaraq ÇQ nəqletmə və tranzit anlayışlarına aydınlıq gətirilməsinə çalışmalı, bununla bağlı beynəlxalq MHŞT İH qarşısında təşəbbüslə çıxış etməlidir;

1.15. Növbəti illərin Fəaliyyət Planına nəqletmə gəlirlərinin hesabata daxil edilməsi və onun tətbiqi ilə bağlı tədbirləri daxil etsin, habelə bu sahədə texniki dəstək almaq üçün Beynəlxalq MHŞT İH-ə müraciət etsin;

# 2. Müstəqil Administratora tövsiyə olunur:

2.1. Ölkədə fiskal devolüsiya – hasilat sənayesinin yerli (bələdiyyə) büdcələrinə töhfəsi – ilə bağlı məlumatları hesabata əlavə etsin;

2.2. Hesabatın 47-ci səhifəsində göstərilən SOCAR-la Energetika Nazirliyinin tabeliyi məsələsinə düzəliş versin, habelə Hesabatının 3.5.a bölməsində zəruri redaktə və stilistika işləri aparılsın;

2.3. Hesabatda dövlət şirkətinin (SOCAR-ın) hasilat sənayesində iştirakı ilə bağlı hökümətlə maliyyə münasibətlərini tənzimləyən qayda və təcrübələrin izahatı verilsin, qarşılıqlı transferlərlə bağlı məlumatlar genişləndirsin. Hesabata SOCAR-ın dövlət orqanlarına ödənişləri və eyni zamanda, dövlətdən aldıqlarına dair məlumatlar daxil edilsin;

2.4. SOCAR-ın müvafiq illər üzrə konsolidə edilmiş maliyyə hesabatında və digər illik hesabatlarda olan məlumatlardan istifadə etməklə MHŞT hesabatlarında SOCAR-la bağlı məlumatlar hissəsinin daha da təkmilləşdirilməsinə, hesabatda olan məlumatların Şirkətin real gücünü və imkanlarını daha dolğun əks etdirə bilməsinə nail olsun;

2.5. SOCAR-dan müvafiq məlumatları əldə edib zəruri hesablamalar aparmaqla Şirkətin kvazi-fiskal əməliyyatları barədə məlumatların MHŞT Hesabatına daxil edilməsi istiqamətində iş aparsın;

2.6. SOCAR-ın birgə, asılı və törəmə müəssisələrində mülkiyyət sahibliyi və onun səviyyəsindəki dəyişikliklərlə bağlı məlumatlar Standarta uyğun olaraq genişləndirilməli və hesabata SOCAR-ın bütün birgə və əlaqəli müəssisələri bağlı məlumatlar daxil edilməlidir;

2.7. Standartın 3.7-ci tələbinə uyğun olaraq, hasilat sənayesindən dövlət büdcəsinə daxilolmalar haqqında detallı məlumatları Maliyyə Nazirliyindən (illik dövlət büdcəsi haqqında qanun layihəsi ilə birlikdə Milli Məclisə təqdim edilən büdcə zərfindən) əldə etməklə MHŞT Hesabatına daxil etsin;

2.8. Hesabatın həm kontekstual məlumatlar, həm də tutuşdurulma prosesinin nəticələri hissələrində nəqletmə tarifləri və ya tranzit gəlirləri anlayışlarının dəqiqləşdirilməsini təmin etsin;

2.9. Tranzit gəlirləri üzrə üzləşmə prosesində xarici hasilat şirkətləri və hökumət arasında yaranan və üzləşdirmə cədvəlində əks olunan 6,6 mln. ABŞ dolları məbləğində kənarlaşma ilə bağlı Hesabatda verilmiş izahata aydınlıq gətirilməsini və Azərbaycan hökumətinə çatan mənfəət neftinin Qərb İxrac Boru Kəməri ilə ötürülməsinə görə ARDNF-in ödədiyi vəsaitin hərəkət mexanizminin hesabatda daha aydın şəkildə təqdim edilməsini təmin etsin

2.10. Üzləşmə prosesinin Hesabatda təqdim edilən nəticələri ilə bağlı rəydə qeyd edilən anlaşılmazlıqlara (hökumətə təhvil verilən təbii qazın və səmt qazının həcmi, SOCAR-ın mənfəət vergisi üzrə qarşılıqlı əvəzlənmələr, xarici şirkətlərin neft gəlirlərindən hökumətə ödənişlər və s.) aydınlıq gətirsin və belə qüsurların növbəti illərin hesabatlarında təkrarlanmaması üçün zəruri tədbirlər həyata keçirsin;

2.11. MHŞT Standartının tələblərinə əsasən hesabata cəlb edilmiş şirkət və hökumət qurumlarının beynəlxalq audit standartlarına uyğun auditdən keçməsinə əminliyi təmin etsin.

# 3. SOCAR-a tövsiyə olunur:

3.1. SOCAR-in illik maliyyə hesabatının MSŞT Koalisiyasına üzv olan mütəxəssislərə tədqimatı keçirilsin, hesabatla bağlı yaranmış sualların cavablandırılmasını təmin etsin;

3.2. Neft, qaz və neft məhsullarının daxili istehlakçılar üçün dünya bazar qiymətindən aşağı qiymətə icbari şəkildə təqdim edilməsinin Şirkətə, xüsusilə onun maliyyə durumuna təsiri ilə bağlı xüsusi araşdırmalar aparsın, onun kəmiyyət və keyfiyyət təsirlərini qiymətləndirsin;

3.3. Şirkət bilavasitə özünün səlahiyyətlərinə aid olmayan, lakin ayrı-ayrı dövlət proqramlarının icrasında iştirak formasında həyata keçirdiyi bütün sosial xarakterli fəaliyyətlər (layihələr) üzrə müvafiq dövlət qurumları ilə zəruri müqavilələrin bağlanmasına nail olsun;

3.4. Şirkətin illik hesabatlarında onun bütün sosial fəaliyyətləri üzrə, habelə idman sahəsində bütün fəaliyyətləri üzrə illik xərclərini əks etdirilməsini təmin etsin;

3.5. Növbəti illər üzrə MHŞT Hesabatlarında Şirkətlə bağlı daha ətraflı və təkmil məlumatların əks olunması üçün ÇQ və Müstəqil Administratorla əməkdaşlığı genişləndirsin.

# 4. Hökumətə tövsiyə olunur:

4.1. SOCAR-ın kvazi-fiskal fəaliyyətlərinin azaldılması istiqamətində kompleks tədbirlər həyata keçirilməsi məqsədəuyğundur;

4.2. SOCAR-ın bilavasitə onun funksiyalarına aid olmayan istiqamətlər üzrə dövlət proqramlarında iştirakı hallarını, belə layihələrin icrasında Şirkətin iştirakı qaydaları dəqiq müəyyən edilsin;

4.3. SOCAR-ın ayrı-ayrı dövlət qurumlarının səlahiyyətlərinə aid sosial fəaliyyətlərin icrasına cəlb edilməsi hallarının aradan qaldırılması üçün zəruri tədbirlər həyata keçirilsin;

4.4. Hasilat sənayesi məhsulları nəqlinin, tranzıt də daxil olmaqla, artımını nəzərə alaraq pilot ölkə kimi 2015-ci il üzrə MHŞT hesabatına nəqletmə gəlirlərini daxil etmək təşəbbüsü ilə Beynəlxalq MHŞT İH-ə müraciət etsin;

4.5. MHŞT nəqletmə hesabatlılığının mürəkkəbliyini və texniki çətinliyi nəzərə alaraq, keçidin iki mərhələdə həyata keçirilməsi məqsədəuyğun sayıla bilər: 1-ci mərhələdə boru kəmərləri vasitəsilə daşınmadan əldə edilən gəlirlərin tam şəkildə hesabata daxil edlməsinə nail olunmalı, 2- ci mərhələdə isə, 2016-cı ildən başlayaraq, dəmiryolu və dəniz daşımaları da əhatə olunmalıdır;

4.6. Hökumət müvafiq qurumlara və nəqliyyat şirkətlərinə bununla bağlı müraciət hazırlamalı (xüsusiə dəniz və dəmiryolu daşınmaları), ehtiyac duyulan məlumatların təmin etməsi üçün onlardan dəstək göstərməsi xahiş edilməlidir.

4.7. MHŞT Standartının tələblərinə əsasən hesabata cəlb edilmiş hökumət qurumlarının beynəlxalq audit standartlarına uyğun auditdən keçməsi üçün zəruri tədbirlər həyata keşirsin.

MSŞA QHT Koalisiyası Şurası ÇQ-ni Azərbaycan Respublikasının 2013-cü il üzrə MHŞT Hesabatını 2015-ci ilin Fəaliyyət Planına uyğun olaraq geniş ictimaiyyətə çatdırılması üçün fəallıq göstərməyə və geniş tədbirlər həyata keçirməyə çağırır.

Koalisiyası Şurası MHŞT üzrə Azərbaycan təcrübəsinin daha da təkmilləşdirilməsinə yönəldilmiş bu təkliflərə Hökumət Komissiyasının və şirkətlərin diqqətlə yanaşacaqlarına və bunların reallaşdırılması istiqamətində əməli addımlar atacaqlarına ümid edir. Bu, MHŞT prosesinə və hesabatlılıq sisteminə vətəndaş cəmiyyətinin inam və etibarının artmasında mühüm rol oynaya bilər.

# Qeydlər

EITI

Extractive
Industries
Transparency
Initiative

MHŞT

Mədən
Hasilatı üzrə
Şəffaflıq
Təşəbbüsü